www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 22-23 avqust 2015-ci il  Şənbə  № 184  (6212)  Qiymıəti 40 qəpik

**Xəbər**

## Prokuror Xədicə İsmayıla 9 il iş istədi

yazısı səh.10-da

**Gündəm**

### "Stratfor"dan Azərbaycana Qarabağ xəbərdarlığı



ABŞ-ın "kölgə kəşfiyyatı"nın analitikləri: "Rusiya-Qərb qarşıdurması Ukraynadan Qafqaza adlaya bilər..."

yazısı səh.9-da

### AXCP-dən Razi Nurullayevin tərəfinə keçənlərin sayı artır

yazısı səh.3-də

### "Beynəlxalq Bank işi" yenidən qızışır

yazısı səh.5-də

### Qubad İbadoğlu Müsavata qarşı müraciətdən xəbərsiz olduğunu deyir

yazısı səh.7-də

### Hakimiyyət-Qərb konfliktinin əsas səbəbi; iqtidar deputatından kəskin reaksiya

yazısı səh.9-da

### 22 il əvvəl Füzuli rayonu necə işğal olundu...

yazısı səh.13-də

### Mingəçevirdə polisə çağırılan gənc intihar etdi

yazısı səh.14-də

### Zığda sakinlər su aksiyası keçirdi

yazısı səh.11-də

### Bakıda iki gənc qız itkin düşdü

yazısı səh.14-də

### Rus bölmələrində keçid balının aşağı olmasının səbəbi

yazısı səh.15-də

### Almaniyada azərbaycanlı qaçqınların sığınacağına od vuruldu

yazısı səh.2-də

### İki nazirlik dərman bazarında yeni nəzarət sistemi tətbiq edəcək

yazısı səh.14-də

## 180 azərbaycanlı fəhləni qanunsuz yolla Qazaxıstana kim aparıb?

# ABİD ŞƏRİFOVUN ŞİRKƏTİNDƏ MÜDHİŞ FIRILDAQ: HƏBSLƏR VAR...

"EVRASCON" ASC-nin fəhlələrinə Qazaxıstan ərazisində işləmələri üçün icazə vərəqəsinin alınması üçün ayrılan pul mənimsənilib; Almatı Vilayət Məhkəməsi azərbaycanlıları həbs etməyə başlayıb




yazısı səh.5-də

# Növbəti dollar ajiotajı - Milli Bank xəbərdarlıq etdi

Valyutadəyişmə məntəqələrində durğunluq hökm sürür; ekspertlər ikinci devalvasiya ehtimalını istisna etmirlər

yazısı səh.11-də



*Zeynal Nağdəliyev:*

**"Prezidentin tələbi odur ki, seçkilərdə şəffaflıq təmin olunsun"**

yazısı səh.4-də



*Mehriban Vəzir:*

**"Müqavimət gücü sıfırın altındadır"**

yazısı səh.6-da



*Ənvər Əliyev:*

**"Azərbaycanda seçkini boykot etməyin heç bir əhəmiyyəti yoxdur"**

yazısı səh.10-da

# Prezident XDMX-nin qulluqçularını rütbə və medalla təltif etdi



**Prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin Tibb İdarəsi - Müalicə-Diaqnostika Mərkəzinin rəisi Elşad Belal oğlu Həmidova general rütbəsi verib. Axar.az xəbər verir ki, dövlət başçısının sərəncamı ilə E.Həmidov tibb xidməti general mayoru ali hərbi rütbəsi alıb.**

Bundan başqa, prezident Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.

Xidməti vəzifələrini yerinə yetirərkən əldə etdikləri yüksək nailiyyətlərə görə və Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşlarının peşə bayramı günü münasibətilə Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçuları təltif ediliblər:

2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
**Rzayev Vüsal Sabir oğlu** - general-mayor.

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə
**Yüsifov Akif İsaxan oğlu** - general-mayor.

Həmçinin XDMX-nin 8 əməkdaşı "Vətən uğrunda" medalı, 8 nəfər "İgidliyə görə" medalı, 22 nəfər isə "Hərbi xidmətlərə görə" medalı ilə təltif ediliblər.

## Müsavatla REAL arasında yaxınlaşma

**Avqustun 21-də Respublikaçı Alternativ Hərəkatının (REAL) ofisində Müsavat Partiyasının başqanı Arif Hacılı, başqan müavini Səxavət Soltanlı və Müsavat Partiyasının Divan üzvü Razim Əmiraslanlı ilə REAL-ın icra katibi Natiq Cəfərli, İdarə Heyəti üzvləri Azər Qasımlı, Altay Göyüşov və Erkin Qədirli arasında görüş keçirilib.**

Bu barədə Arif Hacılı məlumat yayıb. Onun sözlərinə görə, görüşdə siyasi məsələlər müzakirə edilib: "Funksional əməkdaşlıq münasibətlərinin qurulması barədə ilkin razılığa gəldik".

Bəs, Müsavat rəhbərliyi ilə REAL arasında görüş keçirilməsi perspektivdə Müsavat-REAL bloku və ya ittifaqının yaranacağı deməkdirmi?

"Yeni Müsavat"ın bu sualına cavabında Razim Əmiraslanlı bildirdi ki, indiki halda əsas müzakirə qarşıdan gələn parlament seçkilərində funksional əməkdaşlıq etməkdir: "Detalları müzakirə edib yəqin ki, yenidən görüşəcəyik. Razılıq olsa yəqin ki, əməkdaşlıq haqqında saziş imzalanacaq".

❑ **E.SEYİDAĞA**

## Həkim Habil Əliyevin yaxşılaşması xəbərlərini təkzib edir

**"Xalq artistinin vəziyyəti hələ də ağır olaraq qalır. Arada vəziyyəti yaxşılaşsa da bu çox davam etmir". Bu sözləri xalq artisti, kaman ustası Habil Əliyevin həkimi, nefroloq Səbinə Qasımova "Yeni Müsavat"a açıqlamasında bildirib. Həkim xalq artistinin vəziyyətinin yaxşılaşdığı və yaxın günlərdə xəstəxanadan evə buraxılacağı xəbərlərinin doğru olmadığını deyib:**

"Evə buraxılacağı barədə söhbət belə gedə bilməz. Bu qətiyyən mümkün deyil. Bildiyiniz kimi, Habil Əliyevin 90-a yaxın yaşı var. Onun ağciyər və tənəffüs yollarında olan problemlərlə yanaşı digər xəstəlikləri, o cümlədən ürək xəstəliyi var. Kifayət qədər yaşlı insandır, bədəni fiziki cəhətdən bu problemlərə tab gətirə bilmir".

**Xalq artistinin sənət dostu Möhlət Müslümov da kaman ustası Habil Əliyevin vəziyyətinin hələ də ağır olduğunu deyib:** "Bir neçə dəfə sənət dostları olaraq xəstəxanaya gedib Habil Əliyevi ziyarət etmək istəmişik. Lakin bizə bildiriblər ki, vəziyyəti hələ də ağır olaraq qalır. Buna görə də yanına heç kimi buraxmırlar. Şəxsən mən mütəmadi olaraq onun həyat yoldaşı Şərqiyyə xanımla əlaqə saxlayıb xalq artistinin vəziyyəti ilə bağlı maraqlanıram. Şərqiyyə xanım da xalq artisinin vəziyyətinin ağır olaraq qaldığını deyir".

**Xatırladaq ki, xalq artisti Habil Əliyev avqustun 14-də Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilib.**

❑ **Xalidə GƏRAY**

## Azərbaycan Hərbi Hava Qüvvələri təlim-məşq uçuşları keçirir

**Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri "TurAz Qartalı - 2015" birgə taktiki təlimlərinə hazırlıq məqsədilə planlı təlim-məşq uçuşları həyata keçirir. APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, Hərbi Hava Qüvvələrinin uçuş, mühəndis-texniki heyəti, o cümlədən bort və yerüstü xidmətlərin mütəxəssislərinin iştirakı ilə keçirilən məşqlərdə aviasiya vasitələri şərti hava döyüşlərini imitasiya etməklə, müxtəlif manevrlər və bir sıra xüsusi tapşırıqları yerinə yetirir, şəxsi heyətin təlim-döyüş təcrübəsi üzrə vərdiş və bacarıqlarını təkmilləşdirir.**

Təlim-məşqlərdə pilotlar hərəkət edən və hərəkətsiz yerüstü hədəfləri, müxtəlif obyektləri, şərti düşmənin zirehli texnikası, helikopteri, aşağı hündürlükdə və zəif sürətlə uçan hava aparatlarının aşkar edilməsi və tanınması tapşırıqlarını da icra edirlər.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05




## Azərbaycanda daha bir iş adamı axtarışa verilib

**Azərbaycanda daha bir iş adamı axtarışa verilib. APA-nın məlumatına görə, "Şatl" MMC-nin təsisçisi və rəhbəri Sərvər Şeyxov Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə təqsirləndirilir.**

Məlumata görə, S.Şeyxov dəfələrlə vergi və bank borcları ilə bağlı dəfələrlə məhkəməyə verilib. Lakin o borcları ödəməkdən boyun qaçırıb. Hazırda polis onun tutulması istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirir.

## Yeni polis bölməsi yaradıldı

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən müsavat.coma verilən məlumatda bildirilir ki, Qusar rayonu ərazisində ictimai qaydanın qorunmasının, ictimai təhlükəsizliyin təmin edilməsinin səmərəsini artırmaq və vətəndaşların polisə müraciətlərini asanlaşdırmaq məqsədi ilə rayon mərkəzindən uzaqlığını nəzərə alaraq, Azərbaycan prezidentinin tapşırığı əsasında Şahdağ Qış-Yay Turizm Kompleksinin də daxil olduğu Zindan-Muruq, Kuzun, Aladaş və Ləzə kəndlərini əhatə edən ərazi polis bölməsi yaradılıb.**

Avqustun 21-də həmin ərazidə inşa edilmiş ən müasir standartlara uyğun inzibati binanın açılışı olub.

Respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədbirdə iştirak edib, tapşırıq və tövsiyələrini verib.



## Almaniyada azərbaycanlı qaçqınların sığınacağına od vuruldu

**Almaniyada bir qrup azərbaycanlı mühacirin yerləşdirildiyi qaçqın düşərgəsinə od vurulub. Virtualaz.org saytı xəbər verir ki, hadisə Bavariya əyalətinin Noyştad-Valdnabe rayonunun eyni adlı inzibati mərkəzində baş verib. Rayonun polis nümayəndəsinin bildirdiyinə görə, naməlum şəxslər Azərbaycandan olan 19 qaçqının, o cümlədən 3 azyaşlının yerləşdirildiyi sığınacağa od vurub. Qəsəbə meri Rupert Troppman bildirib ki, o, hadisədən şoka düşüb. "Mən şokdayam, bu, olduqca dəhşətli hadisədir"-mer deyib. Merin bildirdiyinə görə, 5500 nəfər əhalisi olan bu kiçik şəhərdə ksenofobiyaya yer ola bilməz.**

Hadisənin arxasında kimlərin dayandığı məlum deyil. Mer bildirib ki, bu haqda nəsə deməyə çətinlik çəkir. "Mən istəyirəm ki, polis hər şeyi araşdırsın, spekulyasiya etmək istəmirəm"- deyə R.Troppman bildirib. Qaçqın sığınacağı şəhərdəki keçmiş restoran binasında yerləşir. Yanğın barədə xəbərdarlıq yerli vaxtla saat 03:20-də daxil olub. Yanğın binanın birinci mərtəbəsində başlayıb və yanğınsöndürənlər gələndə artıq mebellər yanıbmış. Yanğınsöndürənlər yanğını tez nəzarət altına ala biliblər və sığınacaqda məskunlaşanlardan heç kim zərər çəkməyib. Sığınacağın sakinləri bildiriblər ki, onlar hadisədən əvvəl binanın birinci mərtəbəsindən iki nəfərin çıxıb qaçdığını görüblər. Üçüncü şəxs isə onları kənarda gözləyirmiş. Polis hadisənin ksenofobiya zəminində törədildiyini istisna etmir. Lakin qalan versiyalar da araşdırılır. Yerli polisin nümayəndəsi Maykl Rebele bildirib ki, hadisə yerinə mütəxəssislər cəlb edilib. Onlar tərcüməçinin köməyi ilə sığınacaq sakinlərindən ifadələr alırlar. Bina qaçqın sığınacağı üçün iki ildir istifadə olunur. Hazırda orada Azərbaycandan olan 19 qaçqın yerləşdirilib, binanın birinci mərtəbəsi əsasən uşaqların oyun oynaması üçün istifadə edilir. Qeyd edək ki, Almaniyada son vaxtlar ksenofobiya və faşizm meylləri kəskin artıb.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

## Əli Kərimlinin istefa verən müavini haqda iki xəbər

Əbülfəz Qurbanlının Dağıstanda fəhlə işlədiyi deyilir; sabiq cəbhəçi isə bildirib ki, o, sədrin yerinə iddialı olduğu üçün partiyadan uzaqlaşdırılıb

**Ötən ay AXCP-dən istefa verən sədr müavini Əbülfəz Qurbanlının müəmmalı gedişi ilə bağlı yeni versiyalar ortaya çıxıb. Ə.Qurbanlının Əli Kərimlinin yerinə iddialı olduğuna görə, partiyadan uzaqlaşdırıldığı deyilir.**

Keçmiş cəbhəçi gənc, hazırda Razi Nurullayevin yeni yaratdığı təşkilatda sədr müavini postunu tutan Ehtiram Mehdiyev Ə.Qurbanlının istefası ilə bağlı sosial şəbəkələrdə status paylaşıb. Sabiq cəbhəçi məlum istefanın arxasında AXCP Ali Məclisinin sədri Həsən Kərimovun dayandığını yazıb: "AXCP sədrinin müavini Əbülfəz Qurbanlı məhz partiyada gəncləşmə siyasətinin qurbanlarından biridir. Məlum olub ki, AXCP-də gəncləşdirmə siyasətini tələb edən qruplaşma Əli Kərimlinin yerinə Əbülfəz Qurbanlının namizədliyini irəli sürüb. Qruplaşmanın bu addımı partiyanın sədrlik postuna iddiası olan Fuad Qəhrəmanlının, Həsən Kərimovun və Gözəl Bayramlının xoşuna gəlməyib. Nəticədə Əli Kərimlinin təşkil etdiyi gizli iclasda Ə.Qurbanlının "qələmini qırıblar".

Keçmiş cəbhəçi gənc özünün facebook statusunda onu da yazıb ki, sədr müavininin AXCP-dən uzaqlaşdırılması kampaniyasının başında Həsən Kərimov dayanıb.

AzVision.az saytı isə Əbülfəz Qurbanlının hazırda harda olması haqda maraqlı məlumat yayıb. Saytın iddiasına görə, Ə.Qurbanlı Əli Kərimlinin təzyiq və böhtanlarından qurtulmaq üçün xarici ölkəyə üz tutmağa məcbur olub. Bu barədə vaxtilə onunla yaxın olmuş partiya yoldaşı AzVision.az-a bilgi verib. Sabiq AXCP sədrinin müavininin hazırda Dağıstanda tikintidə fəhləliklə məşğul olduğu bildirilir.

❑ **Cavanşir ABBASLI**

## Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə rəis müavini təyin olundu

**Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə rəis müavini təyin olunub. Nəqliyyat Nazirliyindən "APA-Economics"ə verilən məlumata görə, nazir Ziya Məmmədovun 21 avqust 2015-ci il tarixli əmri ilə bu vəzifə İbrahim Əliyevə həvalə olunub. Qeyd edək ki, bundan öncə İbrahim Əliyev Nəqliyyat İntellektual İdarəetmə Mərkəzində baş direktorun müavini - texniki direktor vəzifəsində çalışıb.**

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# AXCP-dən Razi Nurullayevin tərəfinə keçənlərin sayı artır

## Suraxanı cəbhəçiləri də istefa bəyanatı yaydılar; Razi Nurullayev Əli Kərimlinin müavini haqqında şok açıqlama verdi

**"Yeni Demokratiya" hərəkatının rəhbəri, AXCP sədrinin sabiq müavini Razi Nurullayev və bir qrup keçmiş cəbhəçi AXCP Etimad Qurultayının Təşkilat Komitəsinin yarandığını elan etdikdən sonra Əli Kərimlinin sədri olduğu AXCP-dən istefa verib onlara qoşulanların sayı artmaqdadır. Dünən isə AXCP-nin Suraxanı təşkilatından 5 nəfər istefa verərək R.Nurullayevin tərəfinə keçdiklərini elan ediblər.**





Partiyanı tərk edən Muradov Samir, Mirvəlişov Seymur, Məmmədov Füzuli, Əzizov Vusal, Hacıyev Samir bəyanat yayaraq bildiriblər ki, Əli Kərimlinin partiya daxilində yaratdığı anti-demokratik mühitə etiraz olaraq alternativ Azərbaycan Xalq Cəbhəsi Partiyasına qoşulurlar:

"Biz aşağıdakı imza edən Hovsan cəbhəçiləri bəyan edirik ki, Əli Kərimlinin rəhbərlik etdiyi dövrdə partiya daxilindəki anti-demokratik mühitə, maliyyə şəffafsızlığına, saxtakarlıqlara, bir qrup şəxsin partiya daxilində fironluğuna etiraz olaraq Razi Nurullayevin rəhbərlik etdiyi alternativ Azərbaycan Xalq Cəbhəsi Partiyasına qoşulduğumuzu elan edirik və bundan sonra fəaliyyətimizi orada davam etdirəcəyik".

AXCP-nin və Milli Şuranın rəhbərliyinə daxil olan şəxslər tərəfindən isə R.Nurullayevə qarşı ittihamlar və təhqir kampaniyası davam edir.

Məsələn, Milli Şuranın sədri Cəmil Həsənli facebook səhifəsində R.Nurullayevə qarşı geniş yazı ilə çıxış edib. O, R.Nurullayevi aşağılayan fikirlər işlətməklə yanaşı hakimiyyətlə hələ Milli Şurada olduğu dövrdən işbirliyində olmaqda suçlayıb...

**AXCP sədrinin müavini Fuad Qəhrəmanlı isə R.Nurullayevi və onunla birlikdə olan keçmiş AXCP üzvlərini siyasi əxlaqsızlıqda ittiham edib:** "Razi Nurullayev başda olmaqla Xalq Cəbhəsindən məhz hakimiyyətə xidmətə, siyasi prinsiplərə xəyanətə görə qovulmuş 5-6 nəfər toplaşaraq AXCP- nin adına iddia etdiklərini bildiriblər. Hətta sayları o qədər azdır ki, içlərində bir neçə nəfər heç vaxt Xalq Cəbhəsinin üzvü olmamış (məsələn Rəfael Becanov) şəxsləri də gətirib fon yaratmaq üçün orada oturdublar. Bu, hakimiyyətin qurduğu tamaşadır. Xalq Cəbhəsinin adını ələ keçirmək bu hakimiyyətin çoxdankı arzusudur. Bu dəfə də alınmayacaq. Xalq Cəbhəsi nə möhürdən, nə də ki, Ədliyyə Nazirliyindəki qeydiyyatdan ibarət deyil...

Gedin nə siyasi əxlaqsızlıq bacarırsınızsa, özünüzü nə qədər gülünc duruma sala bilirsinizsə əlinizdən gələnləri edin. Siz bu tamaşalarla Xalq Cəbhəsinə qalib gələ bilməzsiniz, olsa -olsa öz mənəviyyatsızlığınızı ancaq ifşa edə bilərsiniz".

**Razi Nurullayev isə bütün şər-böhtana, təhqir kampaniyasına baxmayaraq AXCP-nin Əli Kərimlidən xilas olmasına nail olmaq istiqamətində başlatdığı işi davam etdirəcəyini bildirir**: "Əli Kərimlinin rəhbərlik etdiyi AXCP təhqir makinasıdır. Orada ədalət yoxdur. Onlar mənə qarşı öz səviyyələrinə uyğun ifadələr ünvanladılar. Biz heç nədən çəkinmirik və onlara cavab da vermirik. Bilirik ki, haqsız tərəf həmişə özünü müdafiə etməyə çalışır. Bu gün onlar haqsız olduqları üçün ciddi-cəhdlə doğruluqlarını göstərməyə çalışırlar. Əli Kərimlidən AXCP-ni alacağıq. Biz istəməzdik ki, Azərbaycanın bəzi ziyalıları Əli Kərimlinin diqtəsi ilə hərəkət etsinlər. Bəziləri "Azadlıq" qəzetindən "meydan" almaq üçün Əli Kərimlinin tərəfini tutub, bizi alçatmağa çalışırlar. Bu həmin insanlara yaraşmır. Onları ədalətli olmağa səsləyirik.



Muradov Samir
Mirvəlişov Seymur
Məmmədov Füzuli
Əzizov Vusal
Hacıyev Samir

BƏYANAT

Biz yuxaridaki imza edən Hovsan cəbhəçiləri bəyan edirik ki, Əli Kərimlinin rəhbərlik etdiyi dövrdə partiya daxilindəki anti-demokratik mühitə, maliyyə şəffafsızlığına, saxtakarlıqlara, bir qrup şəxsin partiya daxilində fironluğuna etiraz olaraq Razi Nurullayevin rəhbərlik etdiyi alternativ Azərbaycan Xalq Cəbhəsi Partiyasına qoşulduğumuzu elan edirik və bundan sonra fəaliyyətimizi orada davam etdirəcəyik.

Cəmil müəllimə hörmətim var və ona heç bir cavab verməyəcəm. Ancaq Cəmil Həsənlinin də müəyyən məsələlərə tolerant və dözümlü yanaşmasını arzu edərdim.

Onlar məni AXCP-nin adına guya qanunsuz olaraq iddia etməkdə suçlayırlar. Biz AXCP adına iddia etmirik, biz AXCP-yik. AXCP-ni Əli Kərimli yaratmayıb, partiyanı Elçibəyin başçılığı ilə xalq yaradıb. Bu gün də partiya xalqa məxsus olmalıdır. Əli Kərimli "Yurd"u yaradıb, daha sonra isə adını AXCP qoyub. Əli Kərimlinin partiyası yoxdur. O, xalqın yaratdığı AXCP-ni qrup maraqlarına qurban verərək 4-5 nəfərin maraqlarına xidmət göstərməyə vadar edib.

Azərbaycan xalqını aldadıb hakimiyyətlə danışıqlara gedib, hakimiyyətdən deputat yeri alıb, hakimiyyətdən pul alıb və bu gün də hakimiyyətin böyük bir hissəsi ilə işləyir. Əli Kərimli hakimiyyətə xidmət edir. Əli Kərimlinin ətrafı mənim hansısa bir sifarişi yerinə yetirdiyimi cəmiyyətə təbliğ edir. Mən heç bir sifarişi yerinə yetirmirəm. Kaş ki, bizə də Əli Kərimliyə olan qədər dəstək veriləydi. Bu iddialar da Əli Kərimlinin ətrafına məxsusdur, boş və mənasız sözlərdir. Atıq hər kəs Əli Kərimlinin iştirakı ilə müxalifətdə hansı oyunların getdiyini, müxalifətdə hansı intriqaların yarandığını, partiyalarda hansı işlərin baş verdiyini bilirlər. Bu səbəbdən Azərbaycanın real müxalifət qüvvələri bizə dəstək verir, bir çoxları bizim legitimliyimizi qəbul etdiklərini açıqlayıblar".

**R.Nurullayev avropa.info-ya açıqlamasında isə Fuad Qəhramanlı haqqında sensasion məlumatlar verib**: "Heç zaman Fuad Qəhrəmanlı haqqında hələ danışmamışam. Amma AXCP-nin üfunət çəlləyi olan, söyüş və təhqir dağarcığı olan Fuad Qəhrəmanlı haqqında hər zaman eşitdiyim və cəbhəçilər arasında da dolanan bir məsələmi demək istəyirəm. Bu beyni kiçik, cılız şər və böhtan dağarcığı hakimiyyətlə çoxdan işləyir və AXCP-də basdırılan minadır. Partlayıb özünü də məhv edəcək bu əxlaqsız insan. Onu əxlaqsızlığı siyasi deyil, həm də məişət səviyyəsindədir. Bu barədə sonra. İndi isə, qoy hamı bilsin ki, o hakimiyyətdən pul alır və həmişə də alıb. Fuadın mənimlə olan gizli danışıqlarını da yaxın günlərdə açıqlayacam. Sən necə olur ki, həbs olunmursan? Axı sənin kimi danışanlar çoxdan həbsdədir, ay kiçik beyinli insan? Sən mitinq üçün də pul alırsan. Sən hər şeydən pul çıxarmağı və onu şər-böhtan zavodu Əli Kərimli ilə bölüşürsən. Bu işdə sənə vasitəçilik edən də var. Onun da adı açıqlanacaq. Peşəsi də jurnalistikadır. Bu şəxs MTN və "Bantotdel" ilə yaxın münasibətdədir. Sən elə onun əli ilə bilirdin ki, kimlər tutulacaq və kimlər çıxacaq. Bunu AXCP-də bilməyən varmı? Sən və Əli Kərimli nə qədər insanlara dost deyib sonra da önünüzdən yığışdırmaq üçün həbsə atdırmısınız? O, həm də Fuad Qəhrəmanlıya, AXCP-də kimin həbs olunacağı ilə bağlı xəbərlər də ötürür. Qoy hamı bilsin ki, bu kiçik insan hakimiyyət içərisində bir neçə qrupla işləməkdədir və onlardan biri və ya ikisi haqqında AXCP sədri Əli Kərimlinin də məlumatı var. Bu adam müxalifətdən iqtidara, iqtidardan isə Əli Kərimliyə xəbər daşıyır. Bu kiçik adamla bağlı bildiyimə görə ifşaedici audio və video yazılar da var. Fuad Qəhrəmanlı həm də məişət pozğunudur".

❑ **Etibar SEYİDAĞA**

# Seçki seçkiyə bənzər...



**Hüseynbala SƏLİMOV**

**L.Tolstoy özünün "Anna Karenina" romanının lap girişində yazır ki, bütün xoşbəxt ailələr biri-birinə bənzəyir, bədbəxtlərin hamısı isə ayrı cür bədbəxtdi.**

Amma dərindən baxanda görürsən ki, elə bədbəxtlər də bir-birinə oxşayır. Təbii ki, cəmiyyətləri ailələrə bərabər tutmaq o qədər də düzgün deyil. Amma niyə də yox? Tamam olmasa da, baxıb görürsən ki, elə cəmiyyət də ailə kimidir - onların da xoşbəxtləri və bədbəxtləri olur, bircə fərqlə ki, ailələrdən fərqli olaraq cəmiyyətlər bunun fərqində olmurlar...

Bu yazını yazmağa hazırlaşırdım ki, gözüm Belorusdan bir yazıya sataşdı. Bəli, payızda bu ölkədə prezident seçkisi olmalıdır. Hələlik yalnız bir nəfər qeydə alınmaq üçün lazım olan 100 min imzanı toplayıb - bu da indiki prezident A.Lukaşenkodur. Müxalifət namizədləri isə zəruri sayda imza toplaya bilməyib və vaxtın bitməsinə bir neçə gün qalsa da, MSK-ya imzaları təqdim etməyəcəklərini bildiriblər...

Maraqlı cəhət A.Lukaşenkonun imzalarının necə toplanmasıdır. Deyilənə görə, iş yerlərində insanların pasportları alınır və onları prezidentə səs verməyə məcbur edirlər. Qərəz, bütün hallarda bu dəfə Lukaşenko əsas müxalifətin opponentliyi olmadan seçkiyə gedəcək. Digər namizədlər isə onun üçün elə də təhlükə törətmirlər...

Ən maraqlısı isə odur ki, A.Lukaşenko artıq indidən özü haqqında video-çarxlar yayır. Bu çarxlarda prezidentin öz ailəsi birlikdə necə kartof əkməsi və bostanda işləməsi göstərilir...

Bunları niyə deyirəm? Bəlkə yazmağa mövzu tapmıram? Yox, belə deyil, hələki yazmağa mövzu var. Sadəcə, mənim də bir zəif cəhətim var - avtoritar rejimlərə və onların liderlərinə çox həssasam...

Həm də bu il biz də seçki olacaq. Düzdür, bu, prezident deyil, parlament seçkisi olacaq, amma nə fərqi? Seçki seçkidir və necə deyərlər, seçki seçkiyə bənzər...

Bəli, bədbəxtlikdən seçki seçkiyə bənzəyir. Hətta onlar müxtəlif səviyyəli seçkilər olsalar da...

Belarusda insanlar seçki ilə maraqlanmır. Ən azı imza toplaya bilməyən müxalifət belə deyir. İnsanlar belə hesab edir ki, hər şey irəlicədən bəllidir və əbəs yerə vaxt itirməyə, ən əsası isə ümid etməyə dəyməz...

A.Lukaşenkonun isə bu seçkilərdən gözləntiləri böyükdür. O ümid edir ki, bu dəfə nəhayət ki, hamının seçdiyi və etiraf etdiyi prezident ola biləcək...

Amma burada mənim yadıma yalançı haqqında məşhur lətifə düşür. Bəli, yalançı o qədər yalan danışır ki, bir gün evi həqiqətən də yananda heç kim buna inanmır...

İndi Lukaşenko da bu vaxta qədər çox yalan danışıb. Bu qədər yalandan sonra deyəsən ilk dəfə olaraq həqiqi seçki keçirmək istəyir, amma adamlar inanmır...

Azərbaycanda da elə bir vaxt gələ bilər ki, müxalifət tamam zəifləyər və hakimiyyət həqiqətən də düzgün seçki keçirməyə qərar verər. Bəzən bizə elə gəlir ki, bu məqam artıq yetişib - diqqətdən tamam məhrum edilmiş müxalifətdən fərqli olaraq daim göz önündə olan və əməlli-başlı reklam edilən hakimiyyətin həqiqətən də səs toplamaq imkanları çoxdur...

Əgər hakimiyyət bu il də özünə istədiyi reytinqi qazandıra bilməyibsə, onun bu reytinqi daha heç bir vaxt qazandıra bilməyəcəyini qətiyyətlə demək olar. Yalnız hansısa qeyri-adi bir hadisə, məsələn, Qarabağın azad olunması onu bu cəmiyyətin gözündə qiymətə mindirə bilər...

Bizim fikrimizcə, hakimiyyət bu dəfə də seçkidə özünün "ənənəvi" üsullarından istifadə etsə bu, o demək olacaq ki, bu siyasi qüvvə artıq ömürlük bədbəxtliyə düçar olub və onun islah olunmasına daha ümid də yoxdur...

Ən dramatik vəziyyətsə Belarus sindromunun təkrarlanması ola bilər. Özünün artıq şəksiz üstünlüyə malik olduğunu düşünən hakimiyyət birdən düzgün seçki keçirməyə qərar verər, cəmiyyət isə buna inanmaz, seçkiyə gəlməz. Bunu təsəvvür edirsinizmi? Belə halda hakimiyyət nə edəcək? Təbii ki, seçkiyə gəlməyənlərin də əvəzinə "səs verəcəklər" və hər şey əvvəlki seçkilərdə olduğu kimi təkrar olunacaq...

Elə bu səbəbdən də bizim bu ölkədə əsl seçki görmək ümidlərimiz və arzumuz elə də real görünmür.

**Nə etmək olar? Razılaşmaq lazım gəlir ki, elə bədbəxtlər də biri-birinə bənzəyir və biz hamımız arzularımızı deyil, taleyimizi yaşayırıq... Tale isə bu dünyada, deyilənə görə, ölüm kimi qaçılmazdır...**



# Kərimlilərin "xəlifə" məntiqi

Zahid SƏFƏROĞLU
zahid.saferoglu@box.az

**Əli Kərimli və ətrafı "Yeni Müsavat"a savaş açmağın əməlli-başlı altını çəkir. Hələ başları çox ağrıyacaq və bundan da ağır üzüntülərə tuş gələcəklər, nə qədər ki, hakimiyyət yolunda əsas manea qismində qəzetimizi və onun baş redaktoru Rauf Arifoğlunu görəcəklər. Buna və özümüzə əminik.**

Gerçəkdən də malı itənin imanı olmaz. Adamın böyür-başı ilbəil boşala-boşala gedir, ətrafında demək olar, ciddi, nüfuzlu bir şəxs qalmayıb, o isə günahı ölkənin aparıcı media orqanında görür. Əgər "Yeni Müsavat", Rauf Arifoğlu bunca güclüdürsə, əstəğfürullah, qüdrət sahibdirsə, demək, bizimlə düşmənçilik yox, dostluq daha caiz deyilmi? Siz necə siyasətçiniz onda?

Amma kimə deyirsən. Azərbaycan müxalifətinin çoxdan metastazına çevrilmiş (nə kəsib atmaq olur, nə də "müalicə" eləmək) "Yurd" hörgütünün öz məntiqi, öz yanaşma və mübarizə prinsipləri var. O prinsiplərin də qayəsində "Kim bizimlə deyil, bizə qarşıdır!" leninçi tezisi dayanır. Ancaq ağlı başında olan insan, az-çox tanınmış ictimai xadim sizinlə, sizin qara güruhunuzla, demokratiya mantiyası altında gizlənən İŞİD təfəkkürlülərlə niyə olsun ki? Başları xarabmı olub?

***

Xain xoflu olar. İndi də sabiq cəbhəçi funksioner Razi Nurullayevin revanş hərəkatını "Yeni Müsavat"ın baş redaktoru ilə iqtidarın birgə projesi olduğunu ortaya atıb, bu cəfəngiyatı tirajlamağa girişiblər. Guya 10-15 il öncəki güclü AXCP-dən hazırda sanballı nəsə qalıb və bu AXCP qalığının varlığı da "Yeni Müsavat"ı bərk qayğılandırır, hakimiyyətə isə ciddi əngəl yaradır.

Hakimiyyət özü bilər, fəqət bizə nə əngəl ola bilərsiz ki? Biz nə siyasi təşkilat, partiyayıq, nə də hakimiyyətə iddialı qurum. Yəni nəzəri olaraq yollarımız tam ayrı - siz ideoloji olaraq bizə nə rəqib, nə də müttəfiq ola bilərsiniz. Bizim tək hədəfimiz ölkədə, dünyada baş verənlərlə bağlı ələhəzrət oxucuya doğru-dürüst informasiya xidməti göstərmək, o sırada siyasi mühitdə baş verənlərə tər-təmiz güzgü tutmaq və bu zaman əziyyətimizin qarşılığında halal paramızı qazanmaqdır.

Əlbəttə ki, yeri gələndə həm də qəzet olaraq prinsipial, milli mənafeyə söykənən mövqe sərgiləmək də əsas görəvlərimiz sırasındadır. Zira, biz də insanıq, cəmiyyətin parçasıyıq, bu ölkənin vətəndaşıyıq və ölkənin, toplumun gələcəyinə, onu sağdan-soldan, içdən-dışdan gözləyən təhlükələrə laqeyd qala bilmərik.

Bir də axı, zəifi zəiflətməyə nə hacət? Zatən Elçibəy AXCP-sindən nə qalıb ki - şər-böhtan dağarcıqlarından savayı?

***

Bunları yazırıq, amma fərqindəyik ki, yenə gedib daşa-divara dəyəcək, "möhürlü qəlblər"ə təsir edə, daxil ola bilməyəcək. Nədən ki, cənab Kərimlidən - İŞİD baş kəsənlərini Azərbaycana dəvət edən əmisi oğlu İnqilab Kərimovun timsalında "xəlİfə" əl Bağdadinin mübarizə üsullarına "like" deyən bir partiya sədrindən və onun yanındakılardan ayrı, ağıllı bir şey gözləmək möcüzə olar.

Əslinə qalsa, hakimiyyətə (hakimiyyətəmi?) gəlmək üçün şeytanla müttəfiqliyi, şeytani mübarizə üsullarını normal saymaq deməkdir bu. Hara gedirlər belə qısır təfəkkür, yaraşmayan əda və yerə-göyə sığmayan inadla, bəlli deyil?..

Böyük, güclü siyasətin əsas göstəricisi hakimiyyətə gəlməkdir, ən nüfuzlu, ictimai rəyə ciddi təsir imkanı olan bir mətbu orqana qarşı savaş açmaq yox! Əksinə, sağlam məntiqə görə, iqtidar olmaq istəyən siyasi qüvvə öncə nüfuzlu media orqanları ilə işləməyi, onlarla dost-müttəfiq olmağı, əməkdaşlıq etməyi bacarmalıdır. Yolları da çoxdan bəlli.

İndi sizə qarşı mübarizədə hansısa siyasi qüvvənin təbii müttəfiqinə çevrilmişiksə, bu, bizim günahımız deyil, sizin suçunuzdur. Deməli, sizin hədəfiniz hakimiyyət deyil. Bəs nədir? Bəlkə doğrudan da fürsət düşən kimi, İŞİD metodlarından yararlanıb "mini-xilafət" qurmaqdır - Allah bilir...

***

**Yəni sivil, demokratik mübarizə bunlardan ötrü sadəcə, şirma rolundadır hələ ki. Əks təqdirdə demokratiyaya, demokratik mübarizə üsuluna, sadəcə, insaniyyətə, dinə-imana heç bir aidiyyəti olmayan İŞİD-ə necə haqq qazandırmaq olar?**



# "Prezidentin tələbi odur ki, seçkilərdə şəffaflıq təmin olunsun"

## MSK-nın tədbirində Zeynal Nağdəliyev seçki ilə bağlı ölkə başçısının verdiyi göstərişi açıqladı; DİN-dən xəbərdarlıq oldu

**Avqustun 21-də Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün genişləndirilmiş müşavirə keçirilib. MSK sədri Məzahir Pənahov bildirib ki, Azərbaycanda demokratik seçkilərin keçirilməsi üçün bütün şərait var. Demokratik seçkilərin keçirilməsi üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitlik olmalıdır. Azərbaycanda bu sahədə heç bir problem yoxdur.**

M.Pənahov Azərbaycanın seçkiləri müşahidə etmək istəyən yerli və beynəlxalq müşahidəçilərə həmişə şərait yaratdığını da deyib. O qeyd edib ki, seçkilərin şəffaflığı üçün 1000-ə qədər seçki məntəqəsində kameralar quraşdırılıb, internet üzərindən dünyanın istənilən nöqtəsindən bu məntəqələrdə seçkiləri izləyə bilərlər. MSK sədri bütün dairə seçki komissiyalarının müasir standartlarda inşa olunan binalarda fəaliyyət göstərdiyini, seçki məntəqələrinin də müasir tələblərə cavab verən binalarda fəaliyyət göstərdiyini söyləyib.

**M.Pənahov qeyd edib ki, seçki hüquqlarının qorunması ilə bağlı məsələlər də Seçki Məcəlləsində əksini tapıb**: "Azərbaycan vətəndaşının ən yüksək məhkəmə instansiyasına müraciət edərək hüququnu təmin etməsi də qanunvericilikdə əksini tapıb".

MSK sədri dairə seçki komissiyalarının sədrlərini bundan sonra da fəaliyyətlərində **məsuliyyətli olmağa çağırıb.**

**Prezident Administrasiyası rəhbərinin müavini, Regional idarəetmə və yerli özünüidarəetmə orqanları il iş şöbəsinin müdiri Zeynal Nağdəliyev** isə bildirib ki, səsvermədə qanun pozuntusuna yol verilməməsinin təmin edilməsi qarşıya qoyulan məqsədlərdəndir: "Prezidentin tələbi odur ki, seçkilərdə şəffaflıq təmin olunsun".

**Z.Nağdəliyev seçkilərdə bütün siyasi partiyalara bərabər şərait yaradılmalı olduğunu qeyd edib:** "Dairənin hər birində təbliğat və təşviqat üçün açıq və qapalı yerlər var. Olmayan dairələrdə də təbliğat və təşviqat üçün belə yerlər ayrılacaq".

**Z.Nağdəliyev seçki siyahılarının dəqiqləşməsi sahəsində böyük iş görüldüyünü vurğulayıb:** "Bizim seçici siyahıları bir çox ölkə üçün nümunədir. Hər bir vətəndaşın seçki hüququnun reallaşdırılması üçün şərait yaradılır. Seçki siyahılarının dəqiqləşməsi sahəsində iş hər gün davam etməli, mütləq seçici siyahıları ideal olmalıdır. Mən seçki məntəqələrində veb-kameraların quraşdırılmasını da xüsusi qeyd etmək istəyirəm. Veb-kameralar seçkilərin şəffaf keçirildiyini göstərmək üçündür. Hər bir şey etməliyik ki, bu sınaqdan da üzüağ çıxaq. Seçkidə xırda məsələ yoxdur, xırda olsa da, fəsadı böyükdür, ölkəmizin imicinə mənfi təsir edə bilər".

**Daxili işlər nazirinin müavini Oruc Zalov** isə DİN-in MSK ilə birlikdə sentyabrdan başlayaraq seçkidə təhlükəsizliyi təmin edən polislər üçün treninqlər və tədbirlər keçirəcəyini açıqlayıb və seçki dövrü ilə bağlı xəbərdarlıq xarakterli mesajlar verib: "Polis orqanları hər bir seçən və seçilənin hüquqlarını qorumağa borcludur. Deputatlığa namizədlərin görüşlərində təhlükəsizlik tam təmin olunacaq və onların seçki kampaniyası aparması üçün təhlükəsiz şərait yaradılacaq. Əgər görüşlər zamanı kimsə qanunazidd hərəkət edərsə, polis bunun qarşısını qətiyyətlə alacaq. Yerli icra orqanları və seçki komissiyaları bu görüşlər barədə əvvəlcədən məlumatlandırılmalıdır ki, polis həmin görüşlər zamanı təhlükəsizliyi təmin etsin. Ancaq razılaşdırılmamış yerlərdə tədbirlər keçirilərsə, qanunazidd şüarlar səsləndirilərsə, polis bütün gücü ilə bu halların qarşısını alacaq. Ölkəmizdə mövcud olan sabitlik bundan sonra da qorunub saxlanacaq. Bizim əvvəlki illərdə qazandığımız təcrübə bu işi də uğurla başa vurmağa kömək edəcək.

Daxili İşlər Nazirliyi seçki zamanı baş verə biləcək qanun pozuntularının qarşısının alınması məqsədilə xüsusi tədbirlər planı hazırlayıb".

**Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov** isə bildirib ki, seçkilərlə bağlı hələ çox şeylər öyrənilməlidir: "Bəzən bizə elə gəlir ki, hər şeyi bilirik. Elə deyil, yenə öyrənməliyik. Çünki yeni texnologiyalar, normalar meydana gəlir.

Seçki hüquqlarının həyata keçirilməsi Azərbaycan dövlətinin mahiyyətinə xas olan keyfiyyətdir. Azərbaycan demokratik, hüquqi dövlətdir və bu prinsiplər Konstitusiyada əksini tapıb. Seçki bu hüquqların reallaşdırılması baxımından çox mühümdür. Mən əminəm ki, bu günə qədər keçirilən seçkilər Azərbaycanın qoşulduğu bütün sənədlərin tələblərinə uyğun gəlir. Ancaq hər gün Seçki Məcəlləsinin tələblərini daha çox mənimsəməliyik ki, artıq söz-söhbətlərə ehtiyac qalmasın. Çalışmalıyıq ki, növbəti parlament seçkisində də Azərbaycan bir nümunə göstərsin. Seçkilər ən yüksək səviyyədə, şəffaf keçirilməlidir".

**❑ Etibar SEYİDAĞA**

# Müsavat namizəd qıtlığı yaşayır?

## Razim Əmiraslanlı yayılan xəbəri təkzib etdi

**Müxalifət partiyalarının deputatlığa namizədlər siyahılarının ictimaiyyətə açıqlanmamasının kökündə hansı problemin dayandığı haqda maraqlı xəbər yayılıb. Xəbərdə deyilir ki, ölkənin aparıcı müxalif partiyası olan Müsavat da daxil olmaqla müxalifət partiyalarının üzvləri seçkidə namizədliklərini irəli sürmək istəmirlər, bir çox üzvlər isə tərəddüd içindədirlər.**



Razim Əmiraslanlı

Hətta bildirilir ki, partiyaların sədrləri, liderləri bir çox partiya üzvlərinə namizədliklərini irəli sürmələri üçün xahiş də edirlər. Lakin problem həllini tapmamış qalır. Nəticədə partiyalar deputatlığa namizədləri siyahısını hazırlamaqda çətinliklə üzləşiblər. Üzvlərin seçkiyə qatılmaq istəməmələrinin müxalifətçilərin özlərinə inamsızlıqları deyil, seçkilərin demokratik keçiriləcəyinə inanmamaları, eyni zamanda maddi problemləri ilə bağlı olduğu qeyd edilir. Beləliklə, deyilənlər doğrudursa, belə çıxır ki, aparıcı müxalif partiyaları belə, seçkidə iştirak etməyə namizəd tapmaq çətinliyi yaşayırlar. Seçkiyə isə vaxt azalır.

Xəbərdə adı keçən Müsavat Partiyasının təşkilat şöbəsinin müdiri, Divan üzvü Razim Əmiraslanlı isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yayılan bu xəbərdə deyilənlərin Müsavata aidiyyəti yoxdur. Çünki Müsavat Partiyası belə problem yaşamır. Əksinə, elə seçki dairələri var ki, oradan 2-3 müsavatçı namizəd olmaq istəyir.

**Müsavatın seçkiyə ciddi hazırlaşdığını deyən Razim Əmiraslanlı Məclisin 29 avqustda keçiriləcək növbədənkənar sessiyasında deputatlığa namizədlərinin təsdiqlənəcəyini bildirdi.**

**❑ E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015

# 180 azərbaycanlı fəhləni qanunsuz yolla Qazaxıstana kim aparıb?

# Abid Şərifovun şirkətində müdhiş fırıldaq: həbslər var...

## "EVRASCON" ASC-nin fəhlələrinə Qazaxıstan ərazisində işləmələri üçün icazə vərəqəsinin alınması üçün ayrılan pul mənimsənilib; Almatı Vilayət Məhkəməsi azərbaycanlıları həbs etməyə başlayıb

**Qazaxıstanın Almatı Vilayət Məhkəməsi azərbaycanlı fəhlələrin həbsinə başlayıb. Fəhlələri Almatıya bu il mayın əvvəllərində işçilərin maaşını vermədiyinə görə adı mətbuatın gündəminə gələn "EVRASCON" ASC aparıb. Şirkətin Qazaxıstanın Almatı vilayətində tikinti işlərinin görülməsi üçün müqaviləsi olub. İndi bəlli olur ki, Bakıda işçilərin pulunu vermədiyi günlərdə şirkət Almatıda görüləcək işləri həyata keçirmək üçün 180 nəfər azərbaycanlı fəhləni Qazaxıstana yollayıb.**




4 ay ərzində azərbaycanlı fəhlələr Qazaxıstan Miqrasiya Xidməti ilə problemlər yaşamayıblar. Ayda 2 dəfə olmaqla qonşu ölkənin ərazisinə keçib yenidən Qazaxıstana qayıdıblar, işlərini görüb ailələrinə çörəkpulu yollayıblar. Bir neçə gün əvvəl isə məsələnin üstü açılıb və bu ölkənin Miqrasiya Xidməti rəsmi sənədlərdə Qazaxıstana qonaq kimi getmələri göstərilən azərbaycanlılar haqda sərt addımlar atmağa başlayıb.

Aldığımız məlumata görə, hər gün 10 nəfər olmaqla azərbaycanlı fəhləni Almatı Vilayət Məhkəməsinə aparıb Qazaxıstan ərazisində qanunsuz olaraq fəaliyyət göstərdiklərinə görə 1-2 sutka həbsə alırlar.

Məsələ bu şəkil alandan sonra aydın olub ki, azərbaycanlı fəhlələrin bu dövlətin ərazisində işləmələri üçün icazə vərəqəsinin alınmasına pul ayrılsa da, mənimsənilib. "EVRASCON" ASC-nin daxilində baş vermiş mənimsəmə azərbaycanlı fəhlələrə baha başa gəlib - onlar vaxtaşırı saxlanılırlar. Üstəlik növbəti həbsləri zamanı daha bir neçə sutkalıq həbs artıq türmə həyatı ilə əvəz oluna bilər.

Hazırda Qazaxıstanda olan "EVRASCON" ASC-nin işçilərdən biri adının çəkilməməsi şərti ilə baş verənlərlə bağlı "Yeni Müsavat" a danışmağa razılaşıb. Deyib ki, etiraz edən fəhlələr şirkətin Almatı filialının rəhbəri Ramiz Tağıyevin sərt təpkisi ilə üzləşir. İşçilər işdən çıxarılmaqla, yol xərci öz hesablarına olmaq şərti ilə Azərbaycana göndərilmək və digər bu kimi sözlərlə hədələnirlər. Belə bir durumla üzləşən azərbaycanlı fəhlələr çıxılmaz durumda qalaraq Qazaxıstan təcridxanasında sutkalıq cəza çəkməyə məcbur olurlar.

Bu şirkət Azərbaycanda nəqliyyat infrastrukturunun tikintisi sahəsində iri layihələrin həyata keçirilməsi ilə məşğul olan "Azərkörpü" ASC-dir. Sadəcə adını dəyişib. Yeni adı "EVRASCON" ASC-dir. "Azərkörpü" Bakı şəhərində SSRİ-nin Nəqliyyat Tikintisi Nazirliyi yanında 1968-ci ildə yaradılıb və fəaliyyətə "Körpütikintidəstəsi-100" kimi başlayıb. Bu müddət ərzində müəssisə Azərbaycanda nəqliyyat infrastrukturunun tikintisi sahəsində təcrübə toplayıb. 2001-ci ildə həyata keçirilən özəlləşdirmə nəticəsində şirkət səhmdar cəmiyyət statusunu alıb. Şirkət 5 min 423 nəfərlə müqavilə bağlayıb. Şirkətin baş nazirin müavini Abid Şərifovun patronajlığı altında fəaliyyət göstərməsi barədə məlumatlar var.

Mövzuya qayıdacağıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.*** *Yazıda adı hallanan hər kəsi, o cümlədən "EVRASCON" ASC rəsmilərini də dinləməyə hazırıq.*

# "Kredit işi" ilə bağlı saxlanılanların həbs müddəti uzadıldı

## Beynəlxalq Bank işi yenidən qızışır

**Nərimanov Rayon Məhkəməsində Beynəlxalq Bankın Dubay filialının həbsdə olan müdiri Adil Hüseynov barəsində seçilmiş həbs qətimkan tədbirinin müddətinin uzadılması barədə istintaq orqanı tərəfindən verilən vəsatətə baxılıb. Bu barədə APA-ya A.Hüseynovun vəkili Kamandar Nəsibov məlumat verib. Deyib ki, məhkəmə həbs-qətimkan tədbirinin müddətinin 3 ay uzadılması barədə qərar qəbul edib.**




K.Nəsibov bildirib ki, Beynəlxalq Bankı ilə bağlı həbs olunan digər şəxslərin də barələrində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb: "Adil Hüseynovdan başqa bir neçə nəfərin də həbs müddəti uzadılıb, bir neçə nəfərin həbs müddəti isə yaxın günlərdə uzadılacaq". Vəkil onu da bildirib ki, Adil Hüseynovla bağlı indiyə kimi hər hansı istintaq hərəkəti həyata keçirilməyib: "O, ifadə verməyib, hər hansı üzləşmə həyata keçirilməyib. Mən məhkəmədə çıxışım zamanı da bunları bildirdim. Həbs müddətinin uzadılması barədə qərardan isə apellyasiya şikayəti veriləcək".

Qeyd edək ki, A.Hüseynova qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) maddəsi ilə cinayət işi ittiham elan olunub. Nərimanov Rayon Məhkəməsi tərəfindən onun barəsində həbs qətimkan tədbiri seçilib. A.Hüseynov mərhum polis polkovniki Fətulla Hüseynovun oğludur. F. Hüseynov Daxili İşlər Nazirliyinin sabiq baş əməliyyat müvəkkili, hazırda ömürlük həbsdə olan Hacı Məmmədovun dəstəsi tərəfindən öldürülüb.

Adı Beynəlxalq Bank ətrafındakı kredit qalmaqalında keçən "Globus Plaza"nın sahibi, sabiq deputat Dünyamin Xəlilov bu il mayın əvvəllərində axtarışa verilmişdi.

**Daha sonra DİN əməkdaşları oliqarxı saxlamış, onun şirkətinin ofisində axtarış aparmış və şirkətin kassalarını möhürləyərək bağlamışdılar.** "Globus Plaza"nın mühasibləri də DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsində (MCQMBİ) sorğu-sual olunmuşdular. Virtualaz.org saytı hüquq-mühafizə orqanlarındakı məlumatlı mənbələrdən Dünyamin Xəlilovun işi üzrə şok effekti yaradacaq sensasion məlumatlar daxil olub. Həmin informasiyalardan məlum olur ki, Nərimanov Rayon Məhkəməsi bu il mayın 15-də Dünyamin Xəlilov barəsində 4 ay müddətinə həbs-qəti-imkan tədbiri seçib. Həmin prosesə hakim Turqay Hüseynov sədrlik edib. Dünyamin Xəlilovun işi Nərimanov Rayon Məhkəməsində 4/005 - 485/215 nömrəsi ilə qeydiyyatdan keçib. Burada işin ən maraqlı tərəfi odur ki, sözügedən məhkəmə qərarı bu günə qədər də qüvvəsində qalır. Yəni Nərimanov Rayon Məhkəməsinin qərarına görə, oliqarx hazırda istintaq təcridxanasında olmalıdır. Lakin D.Xəlilov nəyə görəsə hələ də öz kabinetində oturub və çoxmilyonluq kreditlərinin qaytarılması problemini həll etməklə məşğuldur. Sayt onu da aydınlaşdırıb ki, Bakı Apelyasiya Məhkəməsi Nərimanov Rayon Məhkəməsinin Beynəlxalq Bankın müflisləşməsi qalmaqalına birbaşa aidiyyəti olan vurulmuş oliqarx barəsindəki həbs-qətimkan tədbiri qərarını hələ də ləğv etməyib. İşin sensasiya sayılacaq tərəfi də elə budur...

Xatırladaq ki, Dünyamin Xəlilov 2005-ci ildə Beynəlxalq Bankın səhmdarı olub. 2005-2010-cu illərdə parlamentin deputatı olmuş D.Xəlilov Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin qohumudur və işçisi olub. C.Hacıyevə məxsus "Şəki Bazar" və "Şəki Ət Kombinatı" ASC-ni uzun müddət D.Xəlilov idarə edib. Maraqlıdır ki, Beynəlxalq Bankın bir filialı uzun illər "Globus Plaza"nın üçüncü mərtəbəsində yerləşib. Beynəlxalq Bankdan alınıb mənimsənilən kreditlər üzrə həbslər başladıqdan sonra bankın fəaliyyəti dayandırılaraq, oradan köçürülüb.

**Bəzi məlumatlara görə, D.Xəlilov Beynəlxalq Bankdan 1 milyard 700 milyon manat, bəzi məlumatlara görə isə 2 milyard dollardan artıq kredit adı ilə vəsait çıxarıb, həmin kreditləri geri ödəməyib. Bakıda, Rusiya səfirliyi yaxınlığında elit "Saatlı bina"nın sahibi olan D.Xəlilov mətbuata açıqlamasında ölkədən qaçmadığını, müalicəyə getdiyini deməklə kifayətlənib. Eks-deputatın hələlik nə həbs edildiyi, nə də axtarışda olması barədə rəsmi xəbər yoxdur.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Kriminal aləmin şitilliyi



**Xalid KAZIMLI**

**Bu gün işə gələndə (yəni yazının yazıldığı gün) yolun kənarında çiyinlərindəki idman çantaları ilə irəliləyən 13-14 yaşlı dörd yeniyetmə gördüm. Öz aralarında söhbət edə-edə, güman ki, idman zalına məşqə gedirdilər və əl-qol hərəkətlərindən jestlərindən belə anlaşılırdı ki, söhbətləri də idman barədədir.**

Doğrusunu deyim ki, əvvəllər bu cür uşaqları görəndə məndə pozitiv qənaət yaranırdı. Fikirləşirdim ki, məhəllədə, tində avara-avara durub gəlib-gedənə sataşmalarındansa, zərərli vərdişlərə aludə olmalarındansa, yeniyetmə və gənclərin idmana meyllənməsi daha yaxşıdır. Həm özləri sağlam olar, həm də cəmiyyət üçün təhlükə törətməzlər.

Son vaxtlar isə bu rəydə müəyyən dəyişikliklər əmələ gəlib. Hazırda cəmiyyət üçün təhlükə törədənlərin sırasında keçmişdə idmanla məşğul olmuş adamlar xüsusi çəkiyə malikdir.

Onlar yarımçıq, uğursuz idmançılardır. Məşğul olduqları idman növündə ciddi bir nailiyyətləri yoxdur, ölkə birinciliyində, Avropa və dünya miqyaslı yarışmalarda fərqlənməyiblər. Amma onlar da yaxşı yaşamaq, iş-güc yiyəsi olmaq, adlı-sanlı idmançılar kimi firavan həyat sürmək istəyirlər.

Bəs necə etsinlər, nə etsinlər? Heç nə. Əllərindən gələn bir iş yoxdur. Çoxu adını yazmaqda çətinlik çəkir. Xarici dil bilmirlər, ali savad, xüsusi istedad yiyəsi deyillər. Olanlarınkı əzələdir. Bir də başqa insanlardan fərqli olaraq əlbəyaxa döyüş növlərindən beş-altı fənd bilirlər.

**Ona görə də onların öz dolanışıqlarını fiziki üstünlüklərindən yararlanmaqla təmin etmək istəmələri təbiidir və qaçılmazdır. Bu isə əvvəl-axır yarımçıq idmançıların yolunu kriminal aləmə istiqamətləndirir.**

Hazırda ölkədə gənc idmançılar nəsli var, onların işi-gücü çayxanalarda, barlarda toplaşaraq, uzun-uzadı kimin haqlı (rus dilindəki kriminal jarqonla desək, "prav"), kimin haqsız ("neprav") olmasını ayırd etməkdir. Belə gənclərin xüsusi ritorikaları, ədaları, jarqonlardan ibarət məhdud leksikonları var.

İstənilən gün onlar hansısa kütləvi dava-dalaşa qarışa, kimisə şil-küt edə və həbsə düşə bilərlər.

**Son vaxtlar bu kimi hadisələr çox olur - fiziki qüvvəsinə, öyrəndikləri döyüş fəndlərinə güvənən gənclər bir saat sonralarını düşünmədən ağılsız hərəkətlər edir, xərəkdə xəstəxanaya və ya qolu qandallı şəkildə təcridxanaya aparılanda dərin peşmançılıq yaşayırlar.**

Göz önündə olan odur ki, bir zamanlar bir-birinin ardınca açılan olimpiya-idman komplekslərinin gənclərimizi kriminal aləmdən uzaqlaşdıracağınızı düşünərkən, yanılmışıq. İdmana bu şəkildə aşırı önəm verilməsi onları təhsildən yayındırır, sonda kriminala yönləndirir. O komplekslər kriminal aləmin şitilliyi rolunu oynamaqdadır.

Çünki idmançılar 30-35 yaşda karyeralarını bitirir, bekar qalırlar. Hamısı da məşqçi olası, supermarketlər şəbəkəsi işlədəsi deyil ki... Əldə-ovucda olan beş-on manat da qurtarır və onlar yaşayış uğrunda mübarizəyə başlayırlar.

**Təcrübə göstərir ki, "idman ölkəsi" kimi tanınmaqdan ötrü milyonlar xərcləməyin mənası yoxdur. İdmançıların bu qədər çoxluğu yalnız hərbi təyinat üçün yararlı ola bilər.**

Əvəzində intellektual gənclərimiz ildən-ilə azalır. Ana dilini bilməyən, az qala yazıb-oxumağı bacarmayan yeni nəsil peyda olub.

Bir çox qeyri-mədəni ölkələrdə olduğu kimi, bizdə də idman və savad bir-birinə tərs mütənasibdir. Yüksək intellekti olan gənclərimiz cüssəcə zəif, məharətli idmançılarımız isə intellekt sarıdan kasaddırlar. Biz intellektual idmançılar yetişdirə bilmirik.

Heç kəs deməsin ki, dünyanın hər tərəfində belədir. Elə deyil. İngiltərənin, Almaniyanın, Fransanın kitab yazan, veriliş hazırlayan idmançılarını bir kənara qoyur, qardaş Türkiyədən misal gətirirəm.

Türkiyənin məşhur futbolçusu Hakan Şükürün karyerasının son iliydi. "Qalatasaray" hansısa komanda ilə oynamışdı, oyundan sonra Hakan Şükürdən açıqlama alırdılar. Hakan Şükür kəkələmədən, rəvan bir təhkiyə ilə jurnalistə elə bir intellektual cavab verdi ki, şərhçi Ömər Üründül belə bir ifadə işlətdi: "Baxın, Hakan necə gözəl danışdı, hazır millət vəkilidir". Ondan 1-2 il sonra Hakan Şükür doğrudan da millət vəkili seçildi.

Bizim ən savadlı danışan idmançımızın ifadəsi isə adətən belə olur: "Allahın köməkliyi ilə qalib gəlib, bayrağımızı qaldıracağıq". Bunu da yüz dəfə təkrarlayıblar deyə, artıq trafaret halına gəlib.

**Məncə, əsas diqqəti idmana yox, təhsilə vermək lazımdır.**

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015

# "Müqavimət gücü sıfırın altındadır" - Mehriban Vəzirin müsahibəsi

## Yazıçı - publisist: "Allah da göydən bu çirkin halımıza baxar və deyər ki, olmağınızdan olmamağınız yaxşıdır"



**Yazıçı-publisist Mehriban Vəzir "Yeni Müsavat"a maraqlı müsahibə verib. O, ölkənin indiki durumu, baş verən hadisələr, ictimai-siyasi həyatda yaşananlarla bağlı sualları cavablandırıb.**

***- Mehriban xanım, nə baş verir, nədir bu gördüklərimiz?***

- İki kəlmə ilə desək, çökmüş mənəviyyat. "Qalaları dururkən mənəviyyatı çökmüş xalq" əhvalatı. Məncə, bir xalq olaraq mənəviyyatın çöküş dövrünü yaşayırıq.

***- Hardan başladı bu çöküş?***

- İdarəetmədən. Çox demişəm, yeri gəldi, bir daha təkrar edim, dövrünün böyük dövlət adamı və hər zamanın böyük filosofu Nəsrəddin Tusinin belə bir fikri var - idarəetmə xeyirxah adamların əlində olarsa, xalq xeyirxahlaşar. Əksi də məlum... Yəni bugünkü durumun mentalitetə qətiyyən aidiyyəti yoxdur. Bu, pis idarəetmədən doğan ictimai-mənəvi böhrandır. Mənəviyyat varlığın dayağıdır. İnsan da, dövlət də mənəviyyatı ilə dik dura bilir. Əgər mənəviyyat çökübsə, hər ikisi çökər. Bunu təkcə yerli idarəetmə etmədi. Xalqların sərvətini daşıyan dünya güclərinin proqramı belə olur. Vətəndaşı ram edib oyuncaq hala gətirmək, ictimai müqaviməti, həmrəyliyi, milli ruhu zəiflətmək. İctimai fəallığı, təhsili, səhiyyəni, hüququ çökdürməklə cəmiyyətin gələcəyini çökdürmək. Çox təəssüf, bunu həyata keçirə bildilər. Düzdür, millətin ruhu Allaha bağlıdır, insan onu öldürə bilməz. Allah milləti qoruduqca, o, var olur. Amma Allah da göydən bu çirkin halımıza baxar və deyər ki, olmağınızdan olmamağınız yaxşıdır. Çox millətlər ömrünü yaşayıb, tarixin səhnəsindən gedib. Hər şeyin ömrü olduğu kimi millətin də ömrü olur. Biz bu böhrandan çıxa biləcəyikmi, davam etmək haqqı alacağıqmı. Bilmirəm. Bu günümüzü görmək çox acıdı. Təxminən 20 il öncə ümidlərimiz çox böyük idi. Onda oğlum azyaşlıydı.

***- Yeri cənnət olsun...***

- Bir gün dedi ki, 18 yaşım olan kimi çıxıb gedəcəm Amerikaya. Dedim, yox, ehtiyac olmayacaq, çünki sənin 18 yaşın olanda bizim ölkəmiz elə Amerika kimi olacaq. Orda sənin istədiyin nə varsa - demokratiya, insan haqları, ədalətli quruluş burada da qurulacaq. Onda vətənimiz haqqında bu cür düşünürdük. Ağıla gəlməzdi ki, fərd olaraq bizim hər birimizin və vətənimizin gələcəyi talanacaq. Talanan nədirsə onun adına sərvət deyirik, əslində onun adı sərvət deyil, bir xalqın işıqlı gələcəyi, bir dövlətin gücüdür.

***- Milli qüvvələr də, sizcə, ən müxtəlif vasitələrlə buna görəmi yox edilir?***

- Milli qüvvələr... bu söz özü bu gün absurd səslənir. Qüvvə deyilən bir şey yoxdur, pərən-pərəndir. Müqavimət gücü sıfırın altındadır. İstər hakimiyyətin, istər müxalifətin, istər vətəndaş cəmiyyətinin durumu göz önündədir. Vətəndaş cəmiyyəti bir-birinin axırına çıxdı, müxalifət bir-birini yedi, hakimiyyət didişmə içində. Son vaxtlar məni ən çox sarsıdan məsələ vətəndaş cəmiyyətinin durumu oldu. Əlbəttə, onlardan bəzilərinə hakimiyyətin münasibəti, zorakılığı, şəri, böhtanı məlumdur. Amma hansını tərpədirsən, yüz minlərlə vergi borcu çıxır. Bu nə deməkdir? Hökuməti büdcəni dağıtmaqda tənqid edənlər özləri vergidən yayınıblar. Bu xalqa yazığınız gəlmirmi? Bu xalq üzünü hara tutsun, kimə inansın, kimə güvənsin?

**"Deputat olandan sonra dəbdir, hamı doktorluq dissertasiyası müdafiə edir. Onların doktorluğunu ləğv eləmək 10 dəqiqəlik işdir - elmlərinin canı cəmi 2 suala bağlıdır"**

***- Mehriban xanım, mənəviyyatdan, millətin ruhundan danışdınız? Millətlər üçün çətin dönəmlərdə mənəviyyatı, milli ruhu qoruyan kiçik bir kəsim olur. Axır dönəmlərə qədər azərbaycanlılar "odqoruyan" obrazında ziyalıları görürdülər. Ancaq indi onların da səsi eşidilmir. Niyə belə susqunluqdu?***

- Azərbaycanda ziyalı kimdir?

***- Xalq üçün ziyalı yazarlar, şairlər, bəstəkarlar...***

- İctimai rəy belədir. Amma yanlışdır. Yazıçı, şair, bəstəkar ziyalı deyil, saydığınız kimi yazıçıdır, şairdir, bəstəkardır. Bizdə "tanınmış adam" sözü ilə "ziyalı" sözünün yeri səhv düşüb. Bunlar müxtəlif məna kəsb edir. Az qala 2000 ildir "ziyalı kimdir" sualına cavab axtarılır. Mən Jan Pol Sartrın yanaşmasını bəyənirəm. Sart belə izah edir, dünyanın 5 alimi bir araya gətirilib nüvə tədqiqatları aparır. Məhsulun dağıdıcılıq gücü, bəşərə ziyanı bəlli olanda o 5 alimdən biri geri çəkilir, deyir ki, mən bu işdə yoxam, o puldan da imtina edirəm. Həmin anda o alim olur ziyalı. Zərəri düşünmədən təqdiqatı aparıb, silah yaradıb, pulunu alan 4 nəfər qalır alim. Bizim yazıçılar, şairlər, bəstəkarlar və bir çox məşhurlar bütün zərərli proqramlarda iştirak etdilər, dəstək verdilər və qonorarlarını alıb "alim" qaldılar, ziyalı ola bilmədilər. Bizim ünlü yazıçılarımızın, şairlərimizin hansı ziyalı ola bildi ki? Sadəcə, cəmiyyətin hörmət etdiyi bir neçə nəfər susub, durub kənarda.

***- Soruşanda deyirlər, abrımıza qısılıb susmuşuq. Düz edirlər?***

- Abrımıza qısılmışıq deyirlər, ancaq əslində prezident təqaüdünə qısılıblar. Yaxınlarda yolda bir gənc, gözəl qız məni saxladı, salamlaşdı, yazılarımı oxuduğunu dedi, xoş sözlər söylədi, axırda da özünü təqdim elədi - mən də yazaram. Çox gözəl, dedim. Davamını gətirdi - prezident təqaüdçüsüyəm. Prezident təqaüdü almaq bir ölçüyə çevrilib... Nə bir əsərinin adını dedi, nə hansı mövzuda yazdığından, nə qədər tirajla çap olunduğundan danışdı, eləcə dedi ki, prezident təqaüdçüsüyəm. Bu şəkildə cəmiyyət parçalandı. Arada gənc şairlərin, yazarların bir-birlərinə münasibətlərinə, çəkişmələrinə baxıram, hərəsi özünə bir büt düzəldib kölgəsinə qısılıb yaşayır, öz ağaları uğrunda ölümünə savaşırlar. Azadlıqları yoxdur. Çünki azad olsalar acından öləcəklər.

**"Arada gənc şairlərin, yazarların bir-birlərinə münasibətlərinə, çəkişmələrinə baxıram, hərəsi özünə bir büt düzəldib kölgəsinə qısılıb yaşayır, öz ağaları uğrunda ölümünə savaşırlar. Azadlıqları yoxdur. Çünki azad olsalar acından öləcəklər".**

***- Hakimiyyətin ziyalıları öz yanına çəkməsini, onları ev, maşın, mükafatlarla belə demək mümkünsə, zərərsizləşdirməsini sovetlər dönəminin gələnəyi sayanlar çoxdur. Bu gün Azərbaycan hakimiyyətində sovetlər dönəminin yetirmələri ən üst məqamlardadır. Bu həmin modeldirmi?***

- Sovetlər dönəmi bəşərin xərçəng xəstəliyi idi. İndi yaşananlar onun metastazıdır.

***- Öldürücüsü...***

- Bəli, öldürücüsü. Bu gün Azərbaycan hakimiyyətində təmsil olunanların təhsil səviyyəsini incələsək görərik ki, yüksək məqamları tutanlar 40-50 yaşında hansısa bayır-bucaq universitetin hüquq fakültəsini qiyabi bitiriblər. Rəis olandan sonra hüquq oxuyublar. Bu gün Azərbaycanda pis oxuyanların hakimiyyətidir. Arada internetdə nazirliklərdə yüksək vəzifə tutmuşların təhsil xronologiyasına və doğulduqları yerlərə baxıram. Siz də baxın, maraqlı mənzərə var.

Deputat olandan sonra dəbdi, hamı doktorluq dissertasiyası müdafiə edir. Onların doktorluğunu ləğv eləmək 10 dəqiqəlik işdir - elmlərinin canı cəmi 2 suala bağlıdır.

**"Sovetlər dönəmi bəşərin xərçəng xəstəliyi idi. İndi yaşananlar onun metastazıdır"**

Dediyiniz kimi, indi bizdə sovet dönəmi yetirmələrinin, eləcə də yarımsavadlı adamların idarəetməsidir. Düzdü, savad da hələ hər şey demək deyil. Alimin şəri daha təhlükəlidir. Bütün şər liderlər böyük zəka sahibləridir, bilgilidirlər, ağır kitablar oxuyublar. Terror təşkilatları liderlərinin şəkillərini paylaşırlar, hamısının arxasında zəngin kitabxanalar görünür. Ona görə də "bilikli adam dürüst adamdır" fikri də yanlışdır. Həzrəti Mövlanə deyir ki, ən böyük şeytan camidən çıxar. Lakin dürüstlük və peşəkarlıq idarəetmənin stimullaşdıracağı bir nəsnədir. Bu stimulu yaratmaq yaxşı idarəetmə deməkdir. Cəmiyyəti dürüstlüyə və peşəkarlığa yönləndirmək hakimmiyyətlərin Allah qarşısında olan ən mühüm borcudur. Başqa sözlə, vicdan borcudur.

***- Siz bayaq müxalifət məsələsinə toxundunuz. Bir dönəm cəmiyyətin fəal, düşünən, keyfiyyətli kəsimi müxalifətdə təmsil olunurdu. Ancaq indi sıralar çox seyrəlib. Niyə belə keyfiyyət itkisi yaşandı? Niyə, düşərgə bir-birini didir?***

- Yol çox uzandı. Sınaq ağır oldu. Cəmiyyət çörək imtahanına çəkildi. Cəzalar dözülməz hala gəldi. Qorxu mühiti yarandı. Hakimiyyət sıralara pozuculuq saldı, liderlərdən sıravilərə kimi satın aldı. Səbatsızlıq baş alıb getdi. Hər kəs özünü birinci bildi, mənəm-mənəmlik, bir-birini əzmək ehtirası meydan suladı. Bununla da liderlərin mənəvi gücü zəiflədi. Daha hansını deyim. İnsanları bir arada saxlayacaq liderin yalnız dili sözlə deyil, ürəyi də şəfqətlə dolu olmalıdır. Şəfqət əskikliyi var.

***- Görünür, bütün bunlar müxalifət düşərgəsinin 23 ildə özünü heç cür reallaşdıra bilməməsinin fəsadlarıdır. Siz necə düşünürsünüz?***

- O da var, lakin o da birmənlı deyil. Kofi Anan 27 il həbsxanada yatdı. Azadlığa çıxdı, mübarizəsini davam etdirdi, sonra prezident oldu, BMT-yə qədər gəldi. İllərin sayı bəzən önəmlidir, bəzən də önəmli deyil. Bizim bir hədəfimiz var, o hədəfə çatmaq istəyirik. Ancaq çatdıq-çatmadıq, getdiyimiz yolu ləyaqətlə getməliyik. Müxalifətin düşərgələşməsi və bir-birinə qarşı amansızlaşması təəssüf doğurur. Mən müqavimət olan bütün tərəfləri dəstəkləyirəm. Müqavimət ocaqlarını cəmiyyətin nəbzi sayıram. O ocaqlar olmasa xalq ölmüş sayılır.



**"Bu xalqa yazığınız gəlmirmi? Bu xalq üzünü hara tutsun, kimə inansın, kimə güvənsin?"**

***- Mehriban xanım, bu gün Azərbaycandan mühacirət edənlər, eyni zamanda hakimiyyətlə problemlər yaşadıqları üçün ölkəyə gələ bilməyən insanların Azərbaycana yönəlik mesajlarını necə qiymətləndirirsiniz? Məsələn, keçmiş səfir Arif Məmmədovun ağ qərənfilli etiraz çağırışları sizdə hansı asossasiyanı doğurur?***

- Naşılıqdı. Bu çağırışçılar xalqın və idarəetmənin indiki durumunu hiss etmirlər. Avropada yaşayıb Azərbaycandakı vəziyyəti anlamaq olmaz. Orda ürəkləri sıxılır, oturub xalqın ayağa qalxmasını arzulayırlar. Bilmirlər ki, bu ölkənin bu zülmü çəkən hər bir vətəndaşı sizdən çox o "ayağa qalx" gününü arzulayır. Amma olmur, məqam yetişmir, xalq meydana çıxmır, şərtlər, şəraitlər müsaid deyil.

***- Passiv mövqe tutanların bəzisi deyir ki, mübarizə imkanları çox məhduddur, biz özümüzü qoruyuruq, ona görə də susmuşuq. Bu sizə hərəkətsizliyə haqq qazandırmaq kimi görünmürmü?***

- Birmənalı fikrim yoxdur. Bəlkə cəsarətin də zamanı var. Bəlkə zamanından əvvəl olanda cəsarət olur? Bütün hallarda fürsət yetişəndə çoxları qəhrəman olacaq. Bu günün ən murdar yaltaqları belə özlərinə haqq qazandırmaq üçün söz tapacaqlar.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015

**Bəlli olduğu kimi, Qubad İbadoğlunun rəhbərlik etdiyi ADR Hərəkatının bir qrup üzvünün şikayəti əsasında Ədliyyə Nazirliyi Müsavat Partiyasının ötən ilin sentyabrında keçirilən qurultayı ilə bağlı araşdırma aparır. Bu məqsədlə nazirlik Müsavat başqanının müavini Elman Fəttahı Ədliyyə nazirliyinə dəvət edib. Bundan sonra E.Fəttah mətbuata açıqlamasında ADR Hərəkatını ittiham edib.**



# Qubad İbadoğlu Müsavata qarşı müraciətdən xəbərsiz olduğunu deyir

## Məsuliyyəti başqanlığa sabiq namizədin müavini öz üzərinə götürdü

**O, bildirib ki, Ədliyyə Nazirliyinə edilən şikayət xarakterli müraciətdə təxminən 12-13 nəfərin imzası var. Onun sözlərinə görə, müraciət ADR Hərəkatının sədr müavini, Departament rəhbəri, Məclis üzvləri tərəfindən səviyyəsində hazırlanıb**: "Bizə əvvəlcədən bəlli idi ki, ADR Müsavata qarşı yaradılan hərəkatdır. Qənaətim ondan ibarətdir ki, bu, təşkil olunmuş məsələdir. Ədliyyə Nazirliyi Müsavat Partiyasına qarşı bu addımı atırsa, kampaniya aparanların fəaliyyətlərini partiyaya qarşı yönəldən şəxslərin müraciəti ilə bağlı qurultayın nəticələrini mübahisələndirməsi baş verirsə, deməli ortada nəsə var".

**Müsavat Partiyası başqanlığına sabiq namizəd, partiyanın keçmiş üzvü, Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının sədri Qubad İbadoğlu** isə dünən APA-ya açıqlamsında deyib ki, Müsavat Partiyasının bir qrup üzvünün partiyanın qurultayının nəticələrinin ləğv olunması ilə bağlı Ədliyyə Nazirliyinə müraciəti barədə məlumatı mətbuatdan öyrənib. Bu məsələyə dair Azərbaycan Demokratiya və Rifah Hərəkatının strukturlarında heç zaman müzakirə aparılmayıb: "Bu müraciət ADR Hərəkatına üzv olan müsavatçıların fərdi qərarıdır və onların öz iradəsinin məhsuludur. Ədliyyə Nazirliyinə göndərilən müraciət partiya üzvlərini Müsavatdan xaric edən strukturların verdiyi qərarların legitim olmamasının, partiyaya rəhbərik edən şəxslərin isə səlahiyyət həddini aşmasının isbatı xarakteri daşıyır. Şəxsən mən də partiya rəhbərliyinin qərarlarından razı qalmamışam və problemin həlli üçün partiyadaxili prosedurlar vasitəsilə çalışmışam, amma təəssüf ki, partiyada hazırkı strukturların Nizamnamə çərçivəsində hərəkət etməməsi nəticəsində buna nail ola bilməmişəm. Lakin buna baxmayaraq, belə problemlərin başqa müstəvidə həllini məqbul hesab etmirəm".

**Q.İbadoğlunun dediyindən belə məlum olub ki, Ədliyyə nazirliyinə müraciətin müəllifləri sırasında deyil.**

Maraqlıdır ki, Q.İbadoğlunun müavini, sabiq müsavatçı Ellada Məmmədli isə açıq şəkildə bəyan edib ki, Müsavat Partiyasının qurultayının nəticələrinin ləğvi ilə bağlı Ədliyyə Nazirliyinə müraciəti şəxsən özü imzalayıb: "Bunu mən imzalamışam. Amma bunun Azərbaycan Demokratiya və Rifah Hərəkatına aidiyyəti yoxdur. Hazırkı Müsavat rəhbərliyi məhkəməyə müraciət olunmasın deyə qurultaydan sonra uzaqlaşdırılan partiya üzvlərinə xaric olunma ilə bağlı sənəd vermir. Buna görə də biz məhkəməyə müraciət edə bilmirik. Bütün bunları nəzərə alıb, Ədliyyə Nazirliyinə müraciət etməyi qərara aldıq. Hazırda müraciətimiz araşdırılır".

"ADR rəhbərliyinin Müsavat Partiyasının qurultayının nəticələrinin ləğv edilməsi ilə bağlı Ədliyyə Nazirliyinə müraciət etdiyi barədə əlimdə faktlar var".

Bunu isə APA-ya açıqlamasında **Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** deyib.

G.Aslanlı partiyanın qurultayının nəticələrinin ləğv edilməsi üçün Ədliyyə Nazirliyinə edilən müraciətdə ADR Hərəkatının rəhbərliyini ittiham edib. Onun sözlərinə görə, ADR rəhbərliyi əvvəllər də Ədliyyə Nazirliyinə müraciət edəcəyini deyib: "Hətta Müsavatın qərargahı önündə piket keçirəndə də qətnamədə bu barədə qeyd etmişdilər. Yəni bu məsələ onların daxilində çoxdan müzakirə mövzusudur. İndi rəhbərlikdə olanların özlərini kənara çəkməsi o qədər də təbii görünmür. Çünki müraciətdə ADR-in sədr müavinləri, departament rəhbərləri, Məclis üzvlərinin imzaları var. Ona görə də mən şəxsən rəhbərliyin bu məsələdən xəbərsiz olduğuna inanmıram və əlimdə faktlar var. Çünki bütün yazılarında, müraciətlərində "biz Ədliyyə Nazirliyinə müraciət etmək məcburiyyətində qalacağıq" kimi ifadələr işlədiblər. İndi də bu fakt göz qabağındadır".

**G.Aslanlı qeyd edib ki, Ədliyyə Nazirliyi Müsavat Partiyasının qurultayının nəticələrini yanvar ayında təsdiq edib:** "Bu haqda Müsavata sənəd də təqdim ediblər. Ona görə də bu məsələdə Müsavat Partiyası elə bir narahatlıq keçirmir, sadəcə olaraq kimin-kim olduğu artıq göz qabağındadır".

❑ **E.SEYİDAĞA**

# Qarabağ veteranının evi zəbt edilib

## Xəqani Quliyev: "Torpağımı tutublar, mənzilimi də sökməklə hədələyirlər"



**Sabunçu qəsəbəsində yaşayan Qarabağ veteranı Quliyev Xaqani Hüseyn oğlunun yaşayış evi zorla əlindən alınır. Onun sözlərinə görə Sabunçu Rayon İcra Hakimiyyətinin nümayəndələri onun eyniadlı qəsəbədəki - Stansiyayanı küçəsi, ev 36-da yerləşən torpağını zəbt etməklə yanaşı, həmin ünvandakı evini də sökəcəyi ilə hədələyirlər:**

"1992-ci illərdə könüllü olaraq Qarabağ döyüşlərində iştirak etmişəm. Döyüşlər zamanı zədə aldığımdan danışığımda qüsurlar yaranıb, müharibə veteranıyam. Üstəlik bir neçə il öncə avtomobil qəzası keçirdiyimdən yerimək də çətinlik çəkirəm. Bir sözlə, səhhətimdə ciddi problemlər olsa da, ailəmi birtəhər dolandırmağa çalışıram.

**Sabunçu qəsəbəsindəki evimi qanuni yolla almışam və artıq 15 ildən çoxdur ki, ailəmlə birgə həmin ünvanda yaşayıram.** Lakin bir neçə ildir ki, icra hakimiyyətinin işçiləri yaşayışımızı cəhənnəmə döndərib. Əvvəlcə ərazidən keçən qaz borularını qanunsuz olaraq mənim həyətimə saldılar. Halbuki, həmin mülkiyyət tam olaraq mənə aiddir və mənim icazəm olmadan həyətimdən heç bir boru keçirilə bilməz. Bu azmış kimi həyətimdə olan ağacları da məhv etdilər. Bununla bağlı kimə şikayət etsək də, səsimiz eşidən yoxdur. Bu günlərdə isə ərazidə park adı ilə mərmər sexi tikildiyindən həyətim tamamilə zəbt edilib, hasarlanıb, darvazam çıxarılaraq harasa aparılıb. Şikayət edəndə isə icra nümyəndələri yaşadığım evi də əlimdən alacağı ilə hədələyir. Onlar heç bir əsas olmadan evimin qanunsuz tikildiyini, buna görə də tezliklə bizi ailəlikcə evdən çıxaracaqlarını bildirirlər. Hazırda isə mən və ailəm öz evimizə girmək üçün qonşunun həyətindən istifadə edirik. Çünki həyətimiz qanunsuz olaraq hasarlandığından ayaq qoymağa belə yer yoxdur".

**X.Quliyevin sözlərinə görə qəsəbədə qanunsuz olaraq tikilən mərmər sexi qəsəbə sakinlərini hər an ölümlə üz-üzə qoyur:** "Həmin ərazi hasarlananda bizə bildirmişdilər ki, orda park tikiləcək. Lakin sonradan bizə məlum oldu ki, orda mərmər sexi tikilir. Dünyanın heç bir yerində mərmər sexi qəsəbə daxilində tikilmir. Çünki mərmər hazırlanarakən müəyyən şüalar buraxır ki, bu da insan sağlamlığı üçün ciddi təhlükədir. Təssəvür edin, bu qəsəbədə nə qədər sakin, yaşlı, qoca, uşaqlar var. Onların həyatları təhlükə ilə üz-üzədir. Mən yerimək də və danışmaqda çətinlik çəkirəm, əliləm. Buna görə də idarələrə gedib şikayətimi edə bilmirəm, üstəlik məni və qəsəbə sakinlərini dinləyəcək heç kim yoxdur. Rayon sakinləri dəfələrlə aidiyyatı orqanlara şikayət etsələrdə səslərinə səs verən yoxdur. Mən ölkə prezidentinə səslənirəm, kömək istəyirəm; xahiş edirəm, həyətimin, evimin qanunsuz olaraq əlimdən alınmasına imkan verməyin. Mənə qarşı törətdilən özbaşınalıqlarla bağlı ciddi tədbilər görülməsini xahiş edirəm".

❑ **Xalidə GƏRAY**

# Bölgə uğrunda yeni oyun



**Azər RƏŞİDOĞLU**

**Hakimiyyət sanki Qərblə bağlarını qırır. İqtidar Kremlə doğru reveranslarını davam etdirir. Rusiyanın Azərbaycanı yenidən ilhaq etməsi cəhdləri son zamanlar siyasi dairələrdə ən çox müzakirə olunan mövzulardandır. Maraqlıdır ki, ictimai rəy də artıq "şimal küləyi"nin gəlişinə hazırdır. Rusiyanın Bakıdan konkret mövqe tələb etməsi və şərtlər irəli sürməsi faktı danılmazdır. Azərbaycan diplomatiyasının təzadlarla dolu olan "açıq qapı" siyasəti acınacaqlı durum yaradır.**

Lakin hazırda rəsmi Bakının üzləşdiyi təzyiqlər arasında daha çox diqqəti cəlb edən şimal qonşumuzun təhdidləridir.

Bu amil nəzərdən qaça bilməz. Rusiyanın Azərbaycandakı proseslərə təsir imkanları xeyli böyükdür. Həm coğrafi yaxınlıq, həm də Azərbaycan ordusuna real təsir imkanları, kəşfiyyat üstünlüyü, əhalinin mühüm hissəsi üçün şimal qonşumuz cəlbedici olması Moskvanın proseslərdə dominant rol oynamağına geniş imkan yaradır.

Rusiya Azərbaycandakı 2013-cü il seçkilərini hədəfə aldığını nümayiş və Moskva nüfuzlu soydaşlarımızın dili ilə rəsmi Bakıya təzyiqlərini davam etdirir.

Rusiya-Azərbaycan münasibətləri 1994-cü ili, "Əsrin müqaviləsi" imzalanan dövrü xatırladır. Onda Kremlin təzyiqləri Bakının maraqlarına cavab verdi. Heydər Əliyev Moskvanın təzyiqlərindən qurtulmaq üçün Qərblə yaxınlaşa bildi. Şimal təhlükəsi amilini həddən ziyadə şişirtməklə hakimiyyət "Sem dayı"nın dəstəyini qazandı. Neft müqaviləsi imzalandıqdan sonra çoxu anladı ki, Rusiya təhlükəsi barədə deyilənlər çox şişirdilib.

Hazırda rəsmi Bakı yenə də analoji addımları ata bilərmi? 1994-cü ildə ABŞ və Avropa üçün "Əsrin müqaviləsi" son dərəcə mühüm idi və bu baxımdan Kremlin şantajından xilas olmaq daha asan göründürdü.

İndiki şəraitdə isə rəsmi Bakıya edilən təzyiqlər Qərb və Rusiyanın müştərək layihəsi kimi təqdim olunur. Göründüyü kimi, Azərbaycan təklənib. Belə vəziyyətdə hamının etirazını göz önünə almaq və seçkiyə getmək ağır nəticələrdən xəbər verir.

İslahatlara, narazı tərəflərin şərtlərini yumşaltmağa yönəlmiş addımlar atmağa zaman lazımdır. Vaxt isə məhduddur və qarşıdan "seytnot" təhlükəsi gəlir.

Lakin ABŞ-ın Azərbaycanla bağlı davranışı onu deməyə əsas verir ki, transmilli neft korporasiyaları yenidən bu iqtidarı dəstəkləyə bilərlər. Düzdür, Qərb islahatlar tələb edir.

İqtidarın davranışı isə sübut edir ki, heç bir köklü islahat olmayacaq. Bu baxımdan vaxt udmaq və təzyiqlərdən sığortalanmaq üçün bir variant da var.

Azərbaycan hakimiyyətini belə bir varianta Rusiya çəkir. Rəsmi Bakı "hərbi marş" çalmaqla Qərbin dəstəyinə bel bağlayır. Artıq ictimai rəydə belə fikir var ki, Qarabağda hərbi əməliyyatlar başlaya və bununla da seçkilər təxirə salına bilər.

Rəsmi Bakı göstərir ki, Azərbaycan Kreml tərəfindən müharibəyə sövq edilir. Müharibə isə Qərbin maraqlarına cavab vermir. Ən azı enerjidaşıyıcılarının təhlükəsizliyi baxımından Qərb buna razı olmaz.

İlk baxışdan Rusiya belə bir lokal müharibədə maraqlıdır. Lakin tərəflərə təzyiqini saxlaya bilməkdən ötrü Moskvaya status-kvonun saxlanılması daha önəmlidir. Odur ki, irimiqyaslı hərbi əməliyyatlardan söhbət gedə bilməz.

Düzdür, rəsmi Bakı bütün cəbhə boyunca müharibəyə başlamağa şirnikləndirilə bilər. Lakin Rusiyanın öz forpostu olan Ermənistana yardım etməyəcəyinə heç kəs zəmanət verə bilməz. Hərbi müttəfiqi olan Ermənistanı müdafiə etməkdən ötrü Rusiya Azərbaycanı sülhə vadar edə, bundan sonra isə rəsmi Bakı separatçı "DQR"-in şərtlərini qəbul etməyə məcbur edilə bilər. Belə acı məğlubiyyətdən sonra isə prezident seçkilərinə qatılmaq ağlasığmaz olardı. Deməli, Bakının müharibəyə hazırlaşması barədə deyilənlər taktiki gedişlərdən başqa bir şey deyil.

**Bu baxımdan hakimiyyətin davranışı çoxsaylı suallar doğurur. Belə ehtimallar da var ki, Rusiyanı təzyiqlərə təhrik etmək rəsmi Bakının manevrləridir. Belə ki, iqtidar dam coğrafi şəraitindən yaraqlanaraq, "düşmən qonşular" əhatəsində yerləşdiyini Qərbə nümayiş etdirib və bunun dividentini qazanıb. Hazırda isə Qərbin Azərbaycana təzyiqlərinin artdığı bir zamanda yenidən Rusiya tərəfindən sıxıldığını, bunun isə ABŞ-ın enerji layihələrinə ciddi zərbələr endirdiyini göstərmək Bakının aldadıcı manevrləri ola bilər. Yəni Rusiya Qərbin enerji layihələrinin təminatçısı kimi çıxış edən Azərbaycan hakimiyyətini "bitirmək" istəsə, ikincinin rəsmi Bakıya dəstək verməkdən başqa yolu qalmır. Bir sözlə, bölgədə yenidən ciddi oyunlar getməyə başlayıb...**



# Bunun qarşısı

Zamin HACI
zaminhaci@gmail.com

“Əgər bu xəbəri tək bircə Kərbəlayı Mirzəli gətirmiş olsaydı, ola bilərdi birdən-birə inanmayaq; çünki ağıla sığmaz ki, bu qədər adam birdən gəlsin kəndə. Niyə? Nə səbəbə? Kəndi çapıb talamayacaqlar ki? Və bir də nə belə vacib iş düşüb ki, bu qədər adam elə hamısı birdən gəliblər kəndə?”

**(Mirzə Cəlil, “Danabaş kəndinin məktəbi”)**

**Aha, tam vaxtı gəlib çatmışdır. Bunu bilmək çox asandır. Elə ki polis naziri, ya da onun müavinlərindən biri “Bunun qarşısı qətiyyətlə alınacaqdır” başlığı ilə açıqlama verirsə, demək, Azərbaycanda seçki keçirilir. 25 ildir belədir. Dünən də xəbər lentlərinə daxili işlər nazirinin müavini Oruc Zalov müəllimin şəkli altında məhz bu başlıq qoyulmuşdu: “Polis bunun qarşısını qətiyyətlə alacaq”.**

Özü də heç yazının içini oxumağa ehtiyac yoxdur. Hamı arifdir, işarədən anlayır ki, “bunun” deyiləndə nə nəzərdə tutulur. Eynilə, indi lazım işləri üzrə general olan Zakir müəllim vaxtilə daxili qoşunların şefi olarkən “Bizdə sümükqıran itlər var” deyəndə uca millətimiz bunu “Qarşıdan prezident seçkiləri gəlir, hamı seçkilərə!” şüarının anonsu kimi qəbul eləmişdi.

“Bunun” ayrı nə ola bilər? Ayrı heç zad. Polis quldur tutanda bu haqda “tərəfimizdən aşkar edilib götürülmüşdür” bəyanatı verir. “Bunun qarşısı alınacaq” ancaq seçki keçiriləcək anlamındadır.

Yeri gəlmişkən, hələ “bunun qarşısı alınacaq”dan iki gün qabaq YAP sədrinin müavini Səyavuş müəllim partiyanın deputatxana siyahısının hazırlanması haqda danışmışdı. Lakin yüz dənə deputat, iki yüz dənə deputatlığa namizəd, üç yüz seçici, dörd yüz müşahidəçi yığışıb gəlsin, brifinq keçirsin - mənası yoxdur, biz seçkiyə start verildiyini düşünmərik. Hətta Məzahir Pənahov MSK-nın qabağında çörəyə and içsə yenə inanmarıq. Mütləq “bunun qarşısı alınacaq!” açıqlaması olmalıdır. Bu, bizim seçkilərin birinci maddəsidir. Preambula hissəsidir. (Savadlı adamam, hələ ambulatoriya sözünün də mənasını bilirəm. Qədim yunanca “lentini prezident kəsməyən cumbulu xəstəxana” deməkdir).

Əlqərəz, Oruc müəllim düyməni basdı, biz də gedək seçkiyə hazırlaşaq. Hökumət də Oruc müəllimin icazəsindən sonra möhkəm əl-ayağa düşübdür. Şıdırğı iş gedir. Əfruz xalanı səhərlər əlində ştanq AzTV-dən MTN-ə qədər qaçan görüblər. Çünki heç bir seçki Əfruz xala tipli müəllimələr olmadan keçirilə bilməz. “Əfruz xalalar” bizim seçkilərin dayağıdır, dirəyidir, özülüdür, bazisidir və hətta üstqurumudur! (Gərək insan savadlı olduğunu vaxtaşırı gözə soxsun, yoxsa heç kim hörmət qoymur. Bir dəfə metro polisi məni saxlayıb sənəd istəyəndə “sənə qarşı preventiv tədbirlər görəcəyəm” demişdim, dərhal buraxdı, dedi sən Allah rədd ol get, xatanı-balanı bizdən uzaq elə).

Prezident Administrasiyası şefinin müavini Zeynal Nağdəliyev də iclas keçirib taksi şoferi qovan nəqliyyat müfəttişi kimi qabaqdan tozanaqla gələn deputatxana seçkisi mövzusuna toxunubdur. Deyir prezident tapşırıb, gərək seçkilər şəffaf olsun.

Anlamadım, guya bizdə seçkilər indiyə qədər nə cür olurdu? Belə şübhəli, özünə inamsız bəyanatların mənası nədir? Hətta əlim qurusun yazdığım yerdə, adamda şübhə yaranır ki, bəlkə də Zeynal müəllim beynəlxalq imperializmə xidmət edir. Bəlkə də onun Çində ağqvardiyaçı qohumları vardır. Ya da uşağı məktəbdə müsavatçı uşağına dərslərini hazırlamaqda kömək göstərir. Yoxsa “seçkilər şəffaf olmalıdır” nə sözdür? Bəyəm biz zəncilər prezident qoyub eşşək kimi işlədən amerikalıyıq, ya dağılan Almaniyada yaşayırıq? Qətiyyən. Biz çiçəklənən Azərbaycanımızın sakinləriyik, burda isə seçkilərin qeyri-şəffaf olmasını kimsə deyə bilməz. İndi bir şey ki, qabaqlar həmişə şəffaf olubdur, bu il təzədən nə cür şəffaf olacaqdır?

**Fikirləşirəm bəlkə Oruc müəllim “Bunun qarşısı alınacaqdır” deyəndə elə Zeynal müəllimi nəzərdə tutumuş. Çünki şəffaflığa başqa pis gözlə baxan hələlik qeydə alınmayıbdır. Özünüzü yığışdırın, Balıq Hafiz demişkən.**

# Rusiya Azərbaycanda yenidən hərbi mövcudluğunu bərpa edə bilərmi?

## Şahin Cəfərli: “Bu amil dövlətə və hakimiyyətin özünə müəyyən təhlükələr yaradar”

**Son günlər mediada Rusiyanın Azərbaycanda yenidən hərbi kontingent yerləşdirəcəyi ilə bağlı xəbərlər yayılır. Doğrudur, hələlik rəsmi olaraq bu məlumat təsdiq və ya təkzib olunmur. Ancaq məlumatın yenidən dövriyyəyə buraxılması və yaranmış susqunluq şübhələrə səbəb olur.**

**Məlum olduğu kimi, Rusiyanın Azərbaycanda yeganə hərbi mövcudluğu olan Qəbələ RLS 2012-ci ildə iki dövlət arasında müvafiq müqavilənin uzadılmamasından sonra qapadılıb. Ruslar stansiyanı tamamilə boşaldıblar. Ancaq hələ o zaman bir çox ekspertlər bu addımın Rusiyanı narazı saldığını, Bakını buna görə cəzalandıracağını iddia edirdilər.**

Bu hadisədən bir neçə ay sonra İsmayıllıda baş verən iğtişaş da bəziləri tərəfindən rus təxribatı kimi qiymətləndirildi.

İndi isə regionda hərbi-siyasi vəziyyət kəskin dəyişib, Rusiya təsirini daha da artırıb. Azərbaycan isə bir sıra amilləri nəzərə alaraq Moskva ilə münasibətləri yaxşı vəziyyətdə saxlamağa çalışır. Belə bir vəziyyətdə rusların hansısa formada Azərbaycanda hərbi mövcudluğunu bərpa etmək istəməsi nəzəri baxımdan xeyli dərəcədə real görünür.

Ancaq **siyasi şərhçi Şahin Cəfərli** Azərbaycan hökumətinin ölkədə Rusiyanın *(və ya digər dövlətlərin)* hərbi kontingent yerləşdirib, hərbi baza formasında hansısa mərkəz yaratmasına razılıq verəcəyini inandırıcı saymır: “Son vaxtlar Azərbaycan-Rusiya münasibətlərin inkişaf dinamikasına fikir versək, görərik ki, zahiri yaxınlaşma və qarşılıqlı isti mesajlardan başqa ortada ciddi praktik nəticələr, inteqrasiya xarakterli razılaşma yoxdur. Düzdür, Azərbaycan hakimiyyəti Rusiya ilə mümkün qədər yaxşı münasibətlər saxlamağa çalışır, lakin bundan uzağa gedən nəticələr çıxarmağa dəyməz - ən azı hələlik. Burada Azərbaycan tərəfinin güddüyü məqsəd, əvvəla, postsovet məkanında həddən artıq aqressiv siyasət yeridən Moskvanın, belə deyək, qəzəbinə səbəb olacaq addımlara yol verməmək, bu aqressiyanın Azərbaycana qarşı yönəlməsinin qarşısını almaqdır. Digər tərəfdən isə Bakı son vaxtlar insan haqları, demokratiya ilə bağlı məsələlərdə narahatlıq və narazılığını ifadə edən Qərb dövlətlərinə bir növ gözdağı verir ki, təzyiqləri artırsanız, bizim əlimizdə Rusiya kimi bir alternativ də var. Müşahidələrimiz əsasında onu qeyd edə bilərik ki, son ayların ən çox müzakirə olunan mövzusu olan Azərbaycan-Rusiya yaxınlaşması hələlik hansısa müqavilə-hüquq bazası ilə möhkəmləndirilməyib.



Qərblə münasibətlərdə isə soyuqluq olsa da, dialoq kanalları hər zaman açıqdır və qarşılıqlı təmaslar, müzakirələr davam edir. Belə bir vəziyyətdə Azərbaycanın strateji seçimdə Rusiyaya üstünlük verməsi mənasına gələn ciddi addımlar atacağı ağlabatan görünmür”.

**Ş.Cəfərli deyir ki, Azərbaycanda Rusiyanın hər hansı forma və ya ad altında hərbi mövcudluğu dövlət müstəqilliyinin məhdudlaşması ilə yanaşı, xarici siyasətdə manevr imkanlarının daralması demək olardı. Azərbaycan hakimiyyəti isə ekspertə görə, buna gətməz:** “Bu amil dövlətə və hakimiyyətin özünə müəyyən təhlükələr də yaradardı. Hərbi baza lazım gəldikdə ərazisində yerləşdiyi dövlətə qarşı ən müxtəlif fəaliyyətlər üçün - casusluq, təxribat, əl altından daxildəki müəyyən qüvvələrə dəstək verib onları öz məqsədləri istiqamətində idarə etmək, yönəltmək, müəyyən addımlara sövq etməkdən tutmuş, birbaşa hərbi müdaxiləyə qədər - çox əlverişli platsdarmdır. Ən yaxın tarixdə baş vermiş bir hadisəni - Krımın Rusiya tərəfindən işğal və ilhaqını xatırlatmaq kifayətdir. Rusiya məhz özünün Krımdakı Qara dəniz donanmasının kontingenti və onlara əlavə olunan qüvvələr vasitəsilə Krımı ələ keçirdi. Həmin hərbi-dəniz bazası hətta Ukrayna-Rusiya münasibətlərinin yaxşı olduğu zamanlarda belə Krımda Rusiyameylli qüvvələrə hər cür dəstək verən, yarımadada Ukrayna dövlətinin əsaslarını sarsıtmağa yönəlmiş fəaliyyətlər həyata keçirən bir platsdarm idi. Bütün bunları nəzərə aldıqda Rusiya ilə hərbi əməkdaşlığın Azərbaycan ərazisində bu dövlətin hərbi bazasının yaradılması səviyyəsinə qədər dərinləşəcəyini gözləmirəm”.

**Rusiya Müdafiə Nazirliyinin “Zvezda” telekanalında Rusiyanın Azərbaycanda RLS quracağı ilə bağlı məlumata gəlincə, ekspert deyir ki, Bakı bu məsələyə rəsmi münasibət bildirməlidir:** “Xəbərdə Voronejdəki RLS-in hansısa elementlərinin Azərbaycanda yerləşdirilməsindən söhbət gedir. Bu məsələdə qeyri-müəyyənlik çoxdur. Əvvəla, əgər Rusiyanın buna ehtiyacı var idisə, Qəbələ RLS-dən, onun ərazisindən niyə imtina edirdi? Xatırladaq ki, o vaxt Rusiya tərəfi Qəbələ RLS-ə ehtiyac duymadığını, bu stansiyanın köhnəlmiş texniki avadanlığını külli miqdarda xərc çəkərək dəyişməkdənsə, yeni bir stansiyanın işə salınmasının daha sərfəli olduğunu və yeni inşa edilən Armavir RLS-in Qəbələ RLS-in əhatə etdiyi coğrafiyanı nəzarətdə saxlamaq üçün yetərli olduğunu bildirmişdi. İndi bu ehtiyac nədən yaranıb? Başqa bir sual ondan ibarətdir ki, Azərbaycan hökuməti yuxarıda qeyd etdiyimiz siyasi xarakterli təhlükələrdən başqa, həm də ölkənin turizm mərkəzlərindən olan, beynəlxalq toplantıların, müxtəlif festivalların keçirildiyi Qəbələdə (eləcə də ölkənin hər hansı digər nöqtəsində) ekologiyaya təhlükə yaradacaq, şüalanma mənbəyinə çevriləcək radiolokasiya stansiyasının yerləşdirilməsinə razı olarmı? Bu, inandırıcı görünmür. Lakin bir daha təkrar etmək istəyirəm ki, rəsmi Bakının bu məsələyə münasibət bildirməsi zəruridir, çünki susqunluq müəyyən şübhələrin və söz-söhbətin yaranmasına rəvac verir”.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015

# Hakimiyyət-Qərb konfliktinin əsas səbəbi; iqtidar deputatından kəskin reaksiya

**Azərbaycan hakimiyyəti ilə Qərb dairələri arasındakı münasibətlərdə hökm sürən konfrantasiya şəraiti davam edir. Rəsmi Bakıya QHT rəhbərləri, eyni zamanda jurnalistlərin həbsi ilə bağlı verilən reaksiyalar gərginliyin səngiməmk əvəzinə artdığını təsdiqləyir.**

Ancaq diqqətçəkən bir məsələ var ki, Azərbaycan hakimiyyəti də Qərb dairələri ilə münasibətlərə yenidən baxmağa maraqlı görünmür. Bəzi müşahidəçilərin fikrincə, əgər hakimiyyət bir neçə siyasi məhbusun azadlığına qərar verərsə, münasibətlərdə kəskin dönüş yaranar və gərginliklərin yerini normal əlaqələr tuta bilər. Odur ki, ortaya sual çıxır, hakimiyyət Qərblə niyə anlaşa bilmir? Belə konfrantasiya vəziyyəti ona sərf edir, yoxsa ortada Rusiya amili var deyə, Bakı ehtiyat edir?

**Politoloq Hikmət Hacızadə** deyir ki, burada iki səbəb var: "Birincisi, hakimiyyət Rusiyadan qorxur və Qarabağ məsələsinin həllində Moskvadan kömək gözləyir. Bu köməyi qazanmaq üçünsə Qərbi söymək lazım gəlir. İkincisi, iqtidar Qərbin gətirdiyi demokratiyadan və rəngli inqilabdan qorxur. Buna görə də Qərbin bütün demokratik proqramlarını bağlayır". Bəs, bu durum, münasibətlərdəki gərginlik nə vaxta qədər davam edə bilər? H.Hacızadənin cavabı konkret oldu: "Qərb Rusiyanı çökdürənə qədər".

**Ancaq bu da var ki, Rusiya imperiyasının çöküşü barədə gözləntilər reallaşmaya da bilər. Yaxud ABŞ və Avropa İranla anlaşdığı kimi, günün birində Rusiya ilə də ortaq dil tapa, keçmişdə olanları unuda bilər. Yaxud Rusiyanı çöküşü uzun illərdən sonra reallaşa bilər. O zamana qədər isə Bakı ilə Qərb paytaxtları arasındakı gərginlik hansısa ciddi fəsadlar verə bilər. Bakının dirənişinin qarşılığında Qərb Azərbaycan hakimiyyətinə qarşı sanksiya-filan tətbiq edə, yaxud onu dəyişmək barədə düşünə bilərmi? Politoloq bunu düşünmür:** "İş burasındadır ki, hökumətimiz ancaq demokratik proyektləri bağlayır. Qərbin biznes və ya strateji proqramlarına isə toxunmur. Qərb biznesinə toxunsa, məsələn, bp-ni və s. ölkədən qovsa, onda sanksiyalarla rastlaşa bilər".

**AVP sədri, deputat Fəzail Ağamalı** isə fərqli düşünür: "Qərb uzun müddətdir ki, Azərbaycana təzyiq etməkdədir və bu anlaşılmazlığın günahını mən Azərbaycan hakimiyyətində görmürəm. Bunun üçün əlimizdə kifayət qədər faktlar, arqumentlər var. Qərb Avrovision mahnı festivalı ərəfəsində, onun gedişi dövründə belə, mahnı festivalını siyasələşdirməyə cəhdlər göstərdi, özünün resurslarını işə salaraq Azərbaycana qarşı daha çox siyasilərin və bir sıra dövlətlərin ixtiyarında olan, onların nəzarəti altında hərəkət edən QHT-ləri, medianı Azərbaycana qarşı yönəltdi. Eyni situasiya daha geniş şəbəkədə idman oyunları ərəfəsində və oyunların gedişində baş verdi. Hətta bununla bağlı Avropa Olimpiya Komitəsi sədrinin çox kəskin bəyanatı oldu. Əgər Azərbaycan dinamik inkişaf edən, sabit, öz portnyor öhdəliyini bütün bəndləri ilə yerinə yetirən bir ölkədirsə, əgər o, Qərbin Azərbaycanın maraqlarına zərbə



**Hikmət Hacızadə: "İqtidar Qərbin gətirdiyi demokratiyadan və rəngli inqilabdan qorxur"**



**Fəzail Ağamalı: "Moskvanın 20-25 il qabaqkı hərəkətləri az qala bunların yanında hörmətə layiq hərəkətlər idi"**

vuran layihələrində - İran və ya Rusiyaya qarşı - iştirak etmirsə, üstəlik, rəsmi Bakı müstəqil, öz dövlətinin, xalqının maraqlarına uyğun xətti həyata keçirirsə, müstəqil siyasət aparırsa, bu isə Qərbin, bir sıra beynəlxalq təşkilatları idarə edən Qərb dövlətlərinin xoşuna gəlmirsə, onların maraqları Azərbaycanda təmin olunmursa, onda Azərbaycana qarşı ən müxtəlif şəkildə təhdidlər həyata keçirirlər. Eyni zamanda Azərbaycanda Leyla Yunus, Xədicə İsmayıl kimi "beşinci kolon"un nümayəndələrini işə salırlar, onların haqqında aparılan araşdırmaların obyektiv şəkildə getməsinə mane olurlar və Azərbaycana təzyiq edirlər, anoloqu olmayan bir şəkildə ki, "məhkəmənin qərarı olmadan onlar dərhal azad edilsin". Bununla da Azərbaycana alçaldıcı münasibət bəsləyirlər". F.Ağamalı qeyd etdi ki, Azərbaycan dövləri bütün bunları qəbul etməməklə tamamilə düz edir: "Çünki biz müstəqil dövlətik, onların koloniyası deyilik. Mən kommunist hakimiyyəti dövründə, nifrət etdiyim rejimdə də yaşamışam, ona qarşı mübarizə aparan insanlardan biri kimi onun məhdudiyyətlərinin, qadağalarının şahidi olmuşam. Moskva bu cür hərəkət etməyib. Moskva bu dərəcədə həyasızlıqla, biabırçılıqla etdiyi hərəkət etmirdi. Moskvanın 20-25 il qabaqkı hərəkətləri az qala bunların yanında hörmətə layiq hərəkətlər idi. Bunlar artıq bütün hədləri aşaraq Azərbaycan qarşı alçaldıcı hərəkətlərə yol verirlər ki, Azərbaycan dövləti də bunu heç zaman qəbul etməyəcək. Azərbaycan müstəqil dövlətdir, onun prezidentinin xətti doğrudur, bu, onun milli və dövlət maraqlarına tam xidmət edir və xalqımızın iradəsini özündə əks etdirir. Bütün bu yaranmış vəziyyətin günahı isə Qərb dairələri və orada kök salan erməni lobbisindədir.

❑ **Cavid TURAN**

# "Stratfor"dan Azərbaycana Qarabağ xəbərdarlığı



## ABŞ-ın "kölgə kəşfiyyatı"nın analitikləri: "Rusiya-Qərb qarşıdurması Ukraynadan Qafqaza adlaya bilər..."

**"Ukrayna konflikti kəskinləşdikcə Rusiya ilə Qərb arasında qarşıdurma da güclənəcək. Bu zaman mübahisə mərkəzi Ukraynadan Güney Qafqaza - Gürcüstan, Azərbaycan və Ermənistana adlaya bilər". Belə bir xəbərdarlıqla ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" analitik mərkəzinin təhlilçiləri çıxış ediblər.**

Təhqiqat müəllifləri hesab edirlər ki, 2008-ci ildəki "5 günlük müharibə"dən sonra Rusiya Ermənistanda hərbi mövcudluğunu gücləndirib və bu ölkədə güclü iqtisadi və siyasi mövqe əldə edib. "Ermənistanda, Abxaziya və Cənubi Osetiyada hərbi mövcudluq, Azərbaycanla isə təhlükəsizlik sahəsində əməkdaşlıq Rusiyanın regionda dominant xarici güc olmasını təmin edir" - qeyd edib analitiklər.

Bununla belə, "Stratfor" ekspertlərinə görə, Qərb Rusiyanın keçmiş sovet periferiyasında öz təsirini artırmasına imkan vermək fikrində deyil: "Qərb ölkələri açıq şəkildə Kremlə anladıblar ki, onların dəstəyi Ukrayna ilə bitməyəcək. Qərb Mərkəzi və Şərqi Avropada hərbi bazalar qurmağa, habelə keçmiş sovet periferiyası ölkələrindən bir neçəsi ilə təhlükəsizlik sahəsində əməkdaşlığı genişləndirməyə başlayıb".

**Mərkəzin analitikləri bu xüsusda Qərblə Rusiya arasında yeni qarşıdurma nöqtəsinin məhz Qafqaz ola biləcəyini bir daha vurğulayıblar:** "Bunu NATO-nun Gürcüstanda avqustun axırında təlim mərkəzi açmağa hazırlaşması sübut edir". Bundan əlavə, ekspertlər o qənaətdədir ki, "iki on illik nisbi sakitlikdən sonra Dağlıq Qarabağa görə Azərbaycanla Ermənistan arasında münaqişə təzədən qızışmağa başlayıb. "Rusiya bu məsələdə hələ ki, iki ölkəni dialoqa çağırmaqla çəkindirici diplomatik mövqe tutur, həmçinin, çəkindirici element qismində hər iki ölkəyə silah satışını davam etdirir", - deyə təhqiqat müəllifləri vurğulayıblar.

***

**Amerikalı analitiklərin hesabatında əksini tapan məqamlar və xəbərdarlıqlar əslində yeni deyil. Belə bir prosesin - Qərblə (NATO ilə) Rusiyanın məhz Güney Qafqazda üz-üzə gələ bilməsinin, Ukrayna münaqişəsinin Qafqaza "transfer" oluna bilməsinin mümkünlüyü barədə ötən saylarımızda yazmışıq.** Görünür ən əvvəl belə bir perspektivi hesaba alan Rusiyanın Güney Qafqaz planları getdikcə daha qorxulu məzmun almaqdadır.

Məsələ ondadır ki, 2008-ci ildən sonra, ələlxüsus da son bir ildə və Krım böhranı yarandan sonra, nəhayət Vyana anlaşmasının İranın Qərblə yaxınlaşmasına stimul yaratmasının ardınca Kreml həqiqətən cənub cinahı (periferiyası) boyu hərbi cəhətdən möhkəmlənmək, paralel surətdə bölgə ölkələrini, o cümlədən Türkiyəni və İranı, nəhayət, Qərbin özünü təhdid etmək xətti götürüb.

Aydınca görünür ki, şimal qonşumuz Qərbin, NATO-nun bölgəyə girişini nəyin bahasına olur-olsun durdurmaq, Gürcüstan timsalında Azərbaycana da dərs vermək, ən önəmlisi, ABŞ və NATO-nu elə regiondaca vurmaq, onların buradakı siyasi, hərbi, demokratik dayaqlarını sarsıdıb, bölgəyə yolları etibarlı şəkildə bağlamaq istəyir.

Yada salaq ki, bu arada bu arada vəziyyətdən çıxış edən Qərbin bəzi "beyin mərkəz"ləri Rusiya ilə NATO (ABŞ) arasında hətta müharibə ehtimalından danışmağa başlayıblar. Məsələn, az öncə belə bir ehtimalı Böyük Britaniyadakı "European Leadership Netwok" analitik mərkəzin ekspertləri irəli sürmüşdülər.

***

Təbii ki, Rusiyanın cənub cinahı üzrə aktivləşməsi həm də NATO baş katibi Yohan Stoltenberqin avqustun sonunda NATO-nun təlim mərkəzini açmaq üçün bu ölkəyə səfəri ilə bağlıdır. Kreml bundan çox narahatdır. Çünki belə bir mərkəzin açılması əslində NATO-nun de-yure Gürcüstanda "oturması", ölkənin tezliklə alyansa üzv olacağının anonsu deməkdir. Moskvanın Gürcüstan ərazində keçən Bakı-Supsa neft kəmərinin bir hissəsini ələ keçirməsi də eyni narahatlıqdan - Qərbin Gürcüstanda hərbi cəhətdən möhkəmlənmək yönündə real addımlar atmağa başlamasından qaynaqlanır.

Odur ki, şimal qonşumuz Qərbi qabaqlamağa və Azərbaycan, Gürcüstan və Ermənistanı tam nəzarət altına almağa çalışır. Vaxtilə Rusiyanın Azərbaycandakı "gözü" sayılan Qəbələ RLSİ-in bərpası məsələsinin gündəmə gəlməsi də bu mənada qətiyyən təsadüfi sayıla bilməz.

Əlbəttə ki, Kreml Güney Qafqaz ölkələrini qorxutmaq, təhdid eləmək üçün yeri gələndə öz arsenalındakı köhnə vasitələrdən də yararlanacaq. Söhbət öncəliklə köhnə separatçılıq ocaqlarını qızışdırmaqdan və yeni separatçı ocaqlar yaratmaqdan, bu ölkələrin daxilində özünün "5-ci kolon"çularını fəallaşdırmaqdan gedir.

***

Kəsəsi, "Stratfor" analitiklərinin də anons etdikləri kimi, regiona yönəlik Rusiya aqressiyasının daha aktiv fazaya keçəcəyini gözləmək lazım gəlir. Belədirsə, Gürcüstanla yanaşı, Azərbaycan da ciddi narahat olmalıdır. Unutmaq olmaz ki, bölgənin ən "uzun ömürlü" münaqişəsi - Dağlıq Qarabağ ixtilafı məhz Azərbaycandadır. Moskvanın yeni separatçı ocaqlar yaratmaq təcrübəsi də ki bəlli. Üstəgəl, Azərbaycanda Rusiya "5-ci kolon"çuları var və onlar hətta aşıq şəkildə ("Avrasiya hərəkatı") təşkilatlanmağa başlayıblar - nə yaxşı ki, onların cilovunu yığmaq üçün rəsmi Bakının nəhayət, hərəkətə keçdiyi haqda məlumatlar var...

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015

# Sərdar Cəlaloğlunun dediklərinə Ümid sədrindən reaksiya

**Ümid Partiyasının "125-lər" adlı seçki bloku ilə iki illik əməkdaşlığını, bu blokda seçkilərə qatılmağa üstünlük verdiyini və ADP-nin "125-lər" bloku ilə bu günə qədər heç bir əməkdaşlıq etmədiyini əsas götürərək Qarabağ Blokunda təmsil olunan Ümid Partiyası ilə Azərbaycan Demokrat Partiyası seçkilərdə ayrı-ayrılıqda, öz namizədləri ilə, müstəqil iştirak etmək haqqında razılıq əldə ediblər.**

Bunu APA-ya açıqlamasında ADP sədri Sərdar Cəlaloğlu deyib. O bildirib ki, 125-lər əksər dairələrdən namizəd irəli sürür: "...Ona görə də fikirləşdik ki, bu şəkildə ADP ttp://az.apa.az/tag/ADP və Ümid Partiyası parlament seçkilərində birgə iştirak edə bilməyəcək. Bu baxımdan aramızda danışdıq ki, birgə seçkiyə qatılmaq ADP ttp://az.apa.az/tag/ADP üçün problem olur və bir halda ki, Ümid Partiyası ADP ttp://az.apa.az/tag/ADP-nin barələrində heç bir məlumatı olmadığı "125-lər"lə 2 ilə yaxındır ki, bir seçki layihəsi üzərində işləyir, onlara mane olmayaq. ADP ttp://az.apa.az/tag/ADP də seçkilərdə müstəqil iştirak etsin".

Bundan öncəki parlament seçkilərində Qarabağ Blokunda təmsil olunan ADP ttp://az.apa.az/tag/ADP və Ümid Partiyası dairələr üzrə vahid namizədlər irəli sürüb, lakin Ümid Partiyası parlamentdə təmsilçilik hüququ əldə etsə də, dövlət büdcəsindən siyasi partiyalar üçün ayrılan vəsaiti ADP ttp://az.apa.az/tag/ADP ilə bölüşməyib. Son prezident seçkilərində isə hər iki partiya seçkilərə ayrı-ayrı namizədlə qatılıb. Qarşıdan gələn parlament seçkilərində də iki partiyanın ayrılıqda iştirak edəcəyi nəzərə alınsa, Qarabağ Blokunun mövcudluğunu qoruması nə dərəcədə məntiqli sayıla bilər? Sualın cavabında S. Cəlaloğlu bildirib ki, əslində Qarabağ Bloku müəyyən mənada öz ömrünü başa vurub: "Ümid Partiyası və ADP razılaşıb ki, seçki qurtarana qədər Qarabağ Blokunun fəaliyyətini dayandıraq. Sonra elə bir situasiya yarana bilər ki, Qarabağ bloku buraxıla bilər. Ümumilikdə isə etiraf etməliyik ki, iki partiyanın uzun müddət seçkilərdə, bir çox məsələlərlə bağlı ayrı-ayrı çıxış etməsi həm üzvlərimiz arasında, həm də cəmiyyətdə anlaşılmazlıq yaradır. Məsələn, biz uzun müddətdir ki, bir blokdayıq, dəfələrlə qarşıdan gələn parlament seçkilərində birgə iştirak edəcəyimizi deyirik, amma paralel olaraq Ümid Partiyası "125-lər"lə seçki layihəsi həyata keçirir. Bu özü göstərir ki, Qarabağ Bloku siyasi blok sərhədlərindən kənara çıxmaq imkanına malik deyil. Ona görə də situasiya dəyişəcəksə, yeni müxalif blokun yaranmasına ehtiyac olacaqsa, seçkidən sonra müxalifətdə yeni qruplaşma tələb olunacaqsa, həmin situasiyanın tələblərinə uyğun yenidən qruplaşa bilərik".



**İqbal Ağazadə:** "Qərara aldıq ki, seçkilərdə ADP də öz namizədlərini irəli sürsün, biz də"



**Ənvər Əliyev:** "Proseslər göstərir ki, Azərbaycanda seçkini boykot etməyin heç bir əhəmiyyəti yoxdur"

Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə isə S.Cəlaloğlunun dediklərinə reaksiyasında bunları bildirdi: "Uzun müddət idi ki, "125-lər" Siyasi Bloku ilə Ümid Partiyası dairələrdə işləyirdi, seçkilərə hazırlaşırdı və dairələr bölüşdürülmüşdü. Biz dairələr üzrə işlədik. Üst-üstə düşən dairələr ola bilər. Ona görə qərara aldıq ki, seçkilərdə ADP də öz namizədlərini irəli sürsün, biz də. Qeydiyyat məsələsi bitəndən sonra "Qarabağ" Seçki Bloku yığışıb bu məsələləri müzakirə edəcək. Prezident seçkilərinə də biz ayrılıqda getmişdik, Sərdar Cəlaloğlu da namizəd idi, mən də. Baxmayaraq ki, biz bir siyasi blokdayıq, "Qarabağ" Blokunu seçki blokuna çevirməmişdik. İndi də həmin təcrübədir, həmin formada gedirik. Qeydiyyatdan sonra bu məsələlərə baxacağıq". ADP sədrindən fərqli olaraq İ.Ağazadə blokun öz ömrünü başa vurmadığını vurğuladı. Ötən parlament seçkilərindən sonra ayrılan maliyyə vəsaitinin ADP ilə bölüşdürülməməsinə gəldikdə, Ümid sədri belə dedi: "Maliyyə bölüşdürülə bilməz axı. Maliyyə partiyaya ayrılır, bloka ayrılmır ki. 2010-cu ildə bizim parlamentdə təmsil olunmağımızla bağlı ayrılan maliyyə partiyaya ayırılıb, bloka yox. Qanun bunu birmənalı deyir".

O, boykot çağırışlarını da şərh edib. S.Cəlaloğlunun sözlərinə görə, "Siyasi partiyalar haqqında" qanun vətəndaşları seçkidən çəkindirməyi qadağan edir: "Ona görə də aktiv boykot aparmaq qeyri-qanunidir. Bunu heç bir partiya edə bilməz. Partiyalar seçkidə iştirak etməməklə bağlı qərar qəbul edə bilər. Bu da siyasi qərar olacaq. Situasiyanı nəzərə alaraq partiyanın seçkidə iştirak etməməsi tamamilə normal haldır. Qanun seçkilərdə iştirakı zərurət kimi müəyyən etməyib. Siyasi partiyaların seçkidə iştirakı könüllüdür. Qanun isə boykota imkan vermir".

Seçki mütəxəssisi Ənvər Əliyev "Yeni Müsavat"a bildirdi ki, qanunda boykotla bağlı hər hansı müddəa yoxdur: "Qanunda belə şey yazılmayıb ki, seçkini boykot etmək, ya olmaz. Boykot etirazın bir formasıdır, necə ki, küçə yürüşləri, mitinqlər. Qanunda yaza bilməzdilər ki, seçkiyə etiraz etmək olar, ya olmaz. Amma proseslər göstərir ki, Azərbaycanda seçkini boykot etməyin heç bir əhəmiyyəti yoxdur. Ümumiyyətlə, boykot sözü azərbaycanlılara aid deyil".

İ.Ağazadə isə qeyd etdi ki, qanunda seçkidə iştirak etmək, etməmək var: "Seçkidə iştirak etməyib boykota çağırmaq var, yaxud etməyib sakit durmaq var".

❑ **Cavid TURAN**

# Prokuror Xədicə İsmayıla 9 il iş istədi

## Jurnalist məhkəmə xərcini ödəməkdən imtina etdi: "Az iş istədi..."

**Avqustun 21-də Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırmaçı-jurnalist Xədicə İsmayılın məhkəmə istintaqı başa çatdı. Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilən məhkəmədə dövlət ittihamçısı Ramazan Hadıyev çıxışında jurnalistin 9 il müddətinə azadlıqdan məhrum edilməsini istədi.**

O, çıxışında bildirdi ki, X.İsmayıl AzadlıqRadiosunun Bakı Bürosunun rəhbəri kimi qulluq səlahiyyətlərindən istifadə edib, vergi məcəlləsinin 101-ci maddəsinə uyğun olaraq vergidən yayınıb, xidməti müqavilələr bağlatmaqla digərlərinin də az vergi ödəməsinə səbəb olub: "Xədicə İsmayıl özünü heç bir maddə üzrə təqsirli bilməyib. Məhkəmə istintaqı zamanı dindirilən Aynur İmranova göstərdi ki, o, ali təhsilli şəxsdir. Bunu əsas götürərək, demək mümkündür ki, Aynur İmranova öz ifadələrində bilərəkdən Xədicə İsmayılı məsuliyyətdən yayındırmağa çalışırdı. Ona görə də onun dedikləri sübut kimi götürülməməlidir. Digər şahid Esmira Cavadova bildirir ki, 2009-cu ildən xidməti müqavilə bağlayıb, aylıq gəliri 1400 manata qədərdir, həmin gəlirdən sadələşdirilmiş vergi əsasında yalnız 4% ödəyib. O, xidməti deyil, əmək müqaviləsi bağlasaydı, buna görə 14% ödəyərdi. Esmira Cavadova istintaqa ifadəsində bildirmişdi ki, ona xidməti müqavilə bağlamağı Xədicə İsmayıl məsləhət görüb. Bu da onu göstərir ki, Xədicə İsmayıl bilərəkdən vergi yayınmasına şərait yaradıb. Sonradan məhkəmə istintaqında Esmira Cavadova dediklərindən imtina etdi. Hesab edirəm ki, onun istintaqda verdiyi ifadəsi əsas götürülməlidir. Məhkəmədə ifadə verən Çingiz Sultansoy da xidməti müqavilə bağladığını deyib, onun işi redaktədir və daim redaksiyada oturmağı tələb edir. Belə olan halda, onunla niyə xidməti müqavilə bağlandığı hamıya məlumdur. Məqsəd radionu 14%-lik vergidən yayındırmaqdır.



AzadlıqRadiosunun ofisindən 12 əmək kitabçası, ştamp və möhür götürülüb. Əgər Xədicə İsmayılın dediyi kimi Bakı Bürosu işə götürən deyildisə, o zaman bunlar nəyə lazım idi. Aralıq Aktından və digər sənədlərdən bir daha aydın olur ki, 12-14 nəfər ştatda olduğu halda redaksiyada 30 kompüter olub. Muzdlu işçi kimi fəaliyyət göstərən şəxslərlə xidməti müqavilə bağlanıb".

Prokuror Xədicə İsmayılın radioya rəhbərlik etdiyi sonuncu bir ildə AzadlıqRadiosunun lisenziyasız fəaliyyət göstərdiyini də qeyd etdi.

125-ci maddə ətrafında danışan Ramazan Hadıyev qeyd etdi ki, zərərçəkən Tural Mustafayevi Xədicə İsmayıl ölüm həddinə çatdırıb: "Tural Mustafayev məhkəmə istintaqı zamanı suallarıma ancaq "bilmirəm", "belə istəmişəm" deməklə, hər vasitə ilə Xədicə İsmayılı müdafiə etməyə çalışırdı. Ona böhtan atdığını söyləmişdi. Ancaq o, bəzi şeyləri unudurdu. Məsələn, o bir neçə dəfə hüquq-mühafizə orqanlarına müraciət etmişdi və heç kimə məlum olmayan, doğruluğu şübhə doğurmayan fikirlər söyləmişdi. Onun istintaq zamanı verdiyi ifadəsi keçmiş həyat yoldaşı Şəfa Mustafayeva tərəfindən də təsdiqlənmişdi. Məhkəmədə ifadə verən ailə üzvləri, eləcə də, ekspertizanın nəticələri Tural Mustafayevin anlaqlı, fiziki və psixoloji cəhətdən sağlam olduğunu göstərir".

Prokuror Xədicə İsmayılın Tural Mustafayevi ölümə təhrik etdiyinin sübutu kimi şəxsi yazışmaları məhkəmədə oxuyub. Bildirib ki, Xədicə İsmayıl Tural Mustafayevi özündən maddi asılılığa məcbur edib, sonradan imkansız vəziyyətə düşən Tural Mustafayev əvvəlki durumunu bərpa etmək üçün dəfələrlə Xədicə İsmayıla onu bağışlaması üçün yalvarıb, ancaq Xədicə İsmayıl onu bağışlamayıb və bununla da T.Mustafayev intihar həddinə çatıb".

**Prokurorun iddiasına görə, 125-ci maddənin ictimai təhlükəsi ondadır ki, insanı ölümə sürükləyir və bu da insanlıqdan kənar əməldir:** "Xədicə İsmayıl islah və yenidən tərbiyə olunması üçün məhkum olunmalıdır. O, Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi ilə 8 il, 192.2.2-ci maddəsi ilə 4 il, 125-ci maddə ilə 5 il, 213.1-ci maddə ilə 2 il, 308.2-ci maddəsilə 2 il müddətində azadlıqdan məhrum edilməlidir. Maddələr ümumiləşdirilərək, yekun olaraq Xədicə İsmayıl 3 il dövlət və yerli özünüidarəetmə orqanlarında vəzifə tutmaq hüququndan məhrum edilməklə 9 il müddətinə azadlıqdan məhrum edilməlidir".

Prokuror sonda onu da qeyd etdi ki, təqsirləndirilən şəxs cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməli, məhkəmə xərci olaraq, 364 manat ondan tutulmalıdır. X.İsmayıl prokurora cavabında bildirdi ki, məhkəmə xərcini ödəməyəcək.

Dövlət ittihamçısının çıxışının ardınca zərərçəkən Tural Mustafayevin nümayəndəsi Səfər Hüseynov çıxış edərək, prokurorun fikirləri ilə razılaşdığını bildirdi.

Daha sonra müdafiə tərəfi çıxış üçün məhkəmədən vaxt istədi. Bunu nəzərə alan məhkəmə heyəti növbəti prosesi avqustun 26-ı saat 11:00-a təyin etdi.

**Məhkəmədən sonra X.İsmayılın anası Elmira İsmayılova qızına 9 il iş istənilməsinə münasibət bildirdi:** "Mənim qızım heç vaxt qanunsuz iş görməyib. Ona inamım böyükdür. Hakim və prokurorun düzgün qərar çıxaracağına inanmıram. Bilirəm ki, hökm oxunacaq. O da doğru deyil. Qızım həbsxanada yatmağa layiq deyil. Xədicə 9 il iş istənilməsini gülüşlə qarşıladı. O da zarafatla mənim kimi dedi ki, az iş istədi".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015

# Növbəti dollar ajiotajı - Milli Bank xəbərdarlıq etdi

## Valyutadəyişmə məntəqələrində durğunluq hökm sürür; ekspertlər ikinci devalvasiya ehtimalını istisna etmirlər

**Dünya bazarında neftin kəskin ucuzlaşması və ölkəmizdə baş verən digər iqtisadi proseslər manatın ikinci dəfə devalvasiyaya uğraması ehtimalını gündəmə gətirib. Artıq bir neçə gündür ki, bu məsələ müzakirə olunur.**

İkinci kəskin devalvasiyanın olacağı ehtimalı valyutadəyişmə məntəqələrinin də fəaliyyətinin iflic edib. Yayılan məlumatlara görə, paytaxtda bir çox valyutadəyişmə məntəqəsi fəaliyyətini müvəqqəti dayandırıb.

Bu sahədəki real vəziyyəti öyrənmək üçün paytaxtın "Neftçilər" metrostansiyası yaxınlığındakı valyutadəyişmə məntəqələrinə baş çəkdik. 10-dan çox valyutadəyişmə məntəqəsində olub, durumu dəyərləndirməyə çalışdıq. Məntəqələrin fəaliyyətini dayandırması faktına rast gəlməsək də, əksəriyyəti demək olar ki, boş idi. Müşahidə apardığımız valyutadəyişmə məntəqələrindən yalnız ikisində müştəri ilə rastlaşdıq. Elə valyuta satışı ilə məşğul olanlar da son zamanlar müraciətlərin sayının azaldığını qeyd etdilər.

"Exchange" işçiləri musavat.com-a bildirdilər ki, son iqtisadi proseslər əhalini yenidən gözləmə mövqeyinə keçməyə məcbur edib. İnsanlar əllərində olan vəsaiti dəyişməyə ehtiyat edirlər.

**Adının çəkilməsini istənməyən valyutadəyişmə məntəqəsinin işçisi vəziyyətin çətin olduğunu, bu sahədə durğunluq yaşandığını bildirdi:** "Gün ərzində az sayda alıcı gəlir. Günümüzü gözləməklə keçiririk. İnsanlar buraya ancaq böyük pulları xırdalamağa gəlirlər. Bizə də 5-10 qəpik qazanc qalır".

Valyutadəyişmə məntəqələrində müşahidə apardığımız zaman avronun alışına üstünlük verənlərin daha çox olmasının şahidi olduq. Valyuta dəyişən vətəndaşlar bunun səbəbini Avropa ölkələrinə istirahətə getmələri ilə izah etdilər. Əllərindəki vəsaitlərlə bağlı qayğılara gəlincə, bildirdilər ki, indiki məqamda külli miqdarda valyuta alıb-satmaq risklidir. Vətəndaşlar ikinci dəfə manatın devalvasiyaya uğramasını gözlədiklərini də dedilər.







Qeyd edək ki, məntəqələrdə hazırda 1 ABŞ dollarının alışı 1,052 AZN, satışı isə 1,057 AZN-dir. 1 Avronun alışı 1,176 AZN, satışı isə 1,193 AZN təşkil edir. 1 rus rublunun alışı 0, 15 AZN, satışı 0,157 AZN-dir.

Musavat.com-a açıqlamasında valyutadəyişmə məntəqələrindəki durumu izah edən **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, hazırda bazarda avronun alışı ilə bağlı aktivlik var və bu da istirahət mövsümü ilə bağlıdır: "Xaricə səfərlər hələ ki, bitməyib, yay mövsümi ilə əlaqədar Avropa ölkələrinə istirahətə gedənlərin sayı artıb. Səfər edənlərin əksəriyyəti avrozonaya səyahət etdiyindən, valyuta bazarında avroya tələbat hələ ki var və bu, mövsümi xarakter daşıyır. Hər zaman yay mövsümündə avroya olan tələbat artır".

**Ekspert onu da dedi ki, valyutadəyişmə məntəqələrindəki durğunluğun səbəblərindən biri də insanların gözləmə mövqeyinə keçməsidir:** "Çünki qarşıda bizi hansı proseslər gözlədiyini təxmin etmək olduqca çətindir. Qonşu ölkələrin milli valyutalarında da devalvasiya gedir. Qazaxıstan valyutası ucuzlaşdı, Rusiyada rubl hər gün 1,5-2 faiz dəyər itirir, türk lirəsi də tarixində ən rekord həddə dəyər itirib. Bütün bu proseslər psixoloji faktor kimi Azərbaycanda da əhaliyə təsir göstərir, əhali gözləmə mövqeyi tutub ki, vəziyyət hansı istiqamətdə dəyişəcək. Çünki, birinci devalvasiyadan sonra ajiotaj yaşanarkən insanlar əllərində olan pul kütləsini dollara dəyişdilər. İndi isə insanların əllərində olan sərbəst pul kütləsi də azalıb, əvvəllər manatla depozitdə saxlanılan vəsaitləri dollara çeviriblər, evlərdəki nağd pul ehtiyatlarının böyük hissəsi də artıq xarici valyuta ilə saxlanır. Ona görə də əllərdə sərbəst manat kütləsi də yoxdur ki, bu əməliyyatlar sürətlənsin.

Mərkəzi Bankın son aylar apardığı siyasət də o idi ki, dövriyyədə manatın həcmini azaltmağa çalışırdılar ki, inflyasiya artmasın və dolların məzənnəsinə ciddi təsir göstərməsin. Bunun da prosesə təsiri var. İnsanlar əllərində olan dolları da manata çevirmək istəmir, gözləyirlər ki, nə zamansa manatın məzənnəsi qalxsa, daha uğurlu məzənnə ilə dəyişsinlər. Valyutadəyişmə məntəqələrindəki passivliyi bu amillərlə izah etmək olar".

Dünən isə günün sonunda valyuta ajiotajına rəsmi reaksiya verildi. Azərbaycan Mərkəzi Bank (AMB) valyuta bazarında ajiotajı aradan qaldırmaq üçün banklara şifahi xəbərdarlıq göndərib.

APA-nın məlumata görə, AMB kommersiya banklarına dolların satış məzənnəsinin maksimal həddini 1,055 səviyyəsində götürülməsini tövsiyə edib. "Qonşu ölkələrin iqtisadiyyatında baş verən proseslərdən sonra Azərbaycanda əhali arasında ajiotaj yaranıb. Hətta bəzi valyutadəyişmə məntəqələrində 1 ABŞ dolları 1,07 manat məzənnəsi ilə satılırdı. Bu ajiotajı aradan qaldırmaq üçün Mərkəzi Bank rəhbərliyi tərəfindən kommersiya banklarına xəbərdarlıq edilib. Banklara tövsiyə olunub ki, dolların satış məzənnəsinin maksimal həddi 1,055 səviyyəsində götürülsün", - deyə məlumatda vurğulanıb.

**Mərkəzi Bankın bu tələbinə əməl etməyən banklarla bağlı qanunvericiliyə uyğun ölçü götürüləcəyi bildirilir.**

**❑ Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

# Zığda su aksiyası

## Qəsəbə sakinləri içməli su qıtlığından əziyyət çəkir

**Avqustun 21-də Zığ qəsəbəsində aksiya keçirilib. Buna səbəb əhalinin 23 ildir içməli su qıtlığı yaşamasıdır. İllərdir get-gələ salınan qəsəbə sakinlərinin müraciət etmədiyi dövlət qurumu qalmayıb. Lakin onların dərdlərinə əncam çəkən yoxdur. Bir neçə ay əvvəl başlayan su çəkilişi isə yarıda dayandırılıb.**

Sakinlər illərdir yaşadıqları problemlərini musavat.com-a danışıblar.

Vüqar Həmidli narazı sakinlərdən biridir. O, 20 ildən artıqdır ki, qəsəbədə içməli suyun olmadığını, edilən şikayətlərdən sonra çəkilən su xəttinin də yarıda saxlanıldığını deyir: "Ana xətti qəsəbənin bir hissəsinə çəkiblər. Burdan hər bir evə xətt çəkilməlidir. Amma deyirlər ki, kim su istəyir, özü çəksin. Ancaq hazırlanan plana görə, bütün evlərə su çəkilməli, kənd tam olaraq su ilə təmin edilməli idi. Qəsəbənin Xanlar, Nizami, Səcərəd Həmidov, Həzi Aslanov küçələrinin əksər yerlərində su yoxdur. Aşağı hissələrində bir neçə evdə su var. O da fasilələrlə gəlir".

Sakinlər içməli suyu maşınla öz hesablarına alır. Onların etirazları və şikayətlərindən sonra "Azərsu" qəsəbəyə içməli su göndərməyə başlayıb.



**54 yaşlı qəsəbə sakini Xanlar Müslümov evlərinə su gəlmədiyini deyir:** "Zığda yaşadığım illərdə normal su görməmişik. İndi də gətirib iki küçəyə su çəkiblər. Deyirlər ki, qalanını da çəkmirik. Guya ki, pul yoxdur. Bəs ayrılan pullar hanı? Sonuncu dəfə avqustun 2-də icra hakimiyyətində qəbul olmuşuq. Dedilər, düzələcək".

### Zığ sakinlərinin dərdi təkcə su deyil...

Gənc sakinlərdən olan Ağasi Əzizli bu qəsəbədə böyüsə də, normal qaydada içməli su verilişini görməyib. Elə ən çox şikayət edən, müvafiq qurumlarda qəbulda olan sakinlərdən biri də odur: "İllərlə şikayət etdik. Nəhayət, su çəkməyə başladılar. İndi də gətirib yarıda saxladılar. Deyirlər ki, burdan sonra da özünüz çəkin. Bütün dövlət idarələrinə getmişik. Zığda yol, su, kanalizasiya, marşrut, işsizlik problem var. 11 kilometr şəhərdən uzaqdayıq. Amma marşrut xəttimiz, yolumuz yoxdur".

**Kənd sakinləri deyir ki, "Azərsu" onlara öz hesablarına su çəkməyi təklif edib. Sakinlər işin yarıda dayandırılmasına etiraz edirlər. Onlar dövlət büdcəsindən ayrılan vəsaitin düzgün xərclənilmədiyini, ölkə rəhbərliyinin göstərişlərinin yerli məmurlar tərəfindən icra edilmədiyini deyirlər.**






Sakinlərlə söhbətimiz zamanı əraziyə **"Azərsu" ASC-nin tikinti departamentinin rəisi Səid Salayev**, Zığ qəsəbə nümayəndəliyinin və Suraxanı Rayon İcra Hakimiyyətinin əməkdaşları gəldilər. Görüş zamanı tərəflər arasında gərginlik yaşandı.

Sakinlər görülən işin yarıda qalmasına etiraz etdi, rəsmi qurumların nümayəndələri isə bunu vəsaitin olmaması ilə əlaqələndirdilər.

Gərginlik zamanı "Azərsu" ASC-nin tikinti departamentinin rəisi Səid Salayevlə sakinlər arasında maraqlı dialoqlar yaşandı. Bu isə vəziyyətin daha da gərginləşməsinə, sakinlərin aqressivləşməsinə səbəb oldu.

S.Salayev sakinlərin biri ilə danışarkən "səndən iy gəlir, aralı dayan", deyə tələb etdi. Sakinlər isə bunu ironiya ilə cavab verdilər: "23 ildir su gəlmir. Ona görə iy gəlir".

"Azərsu" rəsmisi başqa bir sakinlə söhbəti zamanı ondan siqareti yerə atıb sonra danışmağı tələb etdi. Cavabı isə belə oldu: "Niyə atmalıyam? Mənə siqaret almısan ki?"

**Qəsəbə sakinlərinin narazılığı və qeyd edilən problemin nə zaman həll edilməsi ilə bağlı S.Salayev də musavat.vom-a açıqlama verib:** "Su şəbəkəsinin çəkilməsi məsələsi hələ ki dayanıb. Yalnız kollektorlar qoyulacaq, sayğaclar quraşdırılacaq və insanlar öz hesablarına müvəqqəti olaraq xətləri çəkəcək. Vəsait olandan sonra sakinlərin çəkdiyi xətlər dağıdılacaq və yenidən çəkiləcək. Bu bir ilə də iki ilə də ola bilər".

S.Salayev imkansız ailələrə su xətlərinin çəkilməsi üçün kömək edəcəklərini də dedi.

**Sonda qəsəbə sakinləri verilən sözlərə inanmadıqlarını, illərdir suya həsrət qalan Zığın bu dərddən xilas olması üçün lazımi vəsaitin ayrıldığını, lakin bu işi görməli olan qurumların bunu icra etmədiyini dedilər.**

**❑ İlkin MURADOV**
**Fotolar müəllifindir**

Yeni Müsavat
N 184 (6212) 22 avqust 2015

**AzadlıqRadiosunun əməkdaşı, hazırda həbsdə olan jurnalist Xədicə İsmayılın məhkəməsi yekunlaşır. Prokuror ötən gün ona 9 il iş istədi. Bugünlərdə məhkəmənin yekunlaşacağı, hökm çıxarılacağı gözlənilir. Amma prosesi izləyən jurnalistlər və geniş ictimaiyyət saxtalaşdırılmış, şantajla alındığı iddia olunan istintaq ifadələrinin işin gedişinə ciddi təsir göstərdiyinin fərqindədir. "Yeni Müsavat" isə X.İsmayılın cinayət işi üzrə istintaq sənədlərini əldə edib və oradakı şahid, zərərçəkən və təqsirləndirilən şəxslərin ifadələri ilə tanış olub.**

# Xədicə İsmayıl istintaqa ifadəsində nələr deyib...

## Xanım jurnalistin AzadlıqRadiosu və Tural Mustafayevlə bağlı açıqladığı detallar diqqət cəlb edir; iş üzrə ittiham aktı "Yeni Müsavat"da

Ötən sayımızdan etibarən sizi həmin ifadələrlə tanış edərək, tanınmış jurnalistin işində, "pərdə arxasında" baş verənləri nəzərinizə çatdıracağıq. Bu iş üzrə kim hansı ifadəni verib, nələri deməyə məcbur olub və son nəticədə... işin gedişinə necə təsir göstərib? Xatırlayırsızsa, işdəki əsas fiqur olan, X.İsmayılın intihara sövq etdiyi iddia olunan T.Mustafayev bizə müsahibəsində bəzi şahidlərin video ilə şantaj olunduğu üçün həqiqətə uyğun olmayan ifadələr verdiyini açıqlamışdı.

Ötən sayımızda sizi bu işdə zərərçəkən kimi tanınan, X.İsmayıl tərəfindən intihar həddinə çatdırıldığı iddia olunan Tural Mustafayevin istintaqa verdiyi ifadə ilə tanış etmişdik. Bu dəfə isə X.İsmayılın istintaqa ifadəsini yayımlayırıq.

### AzadlıqRadiosu və Xədicə İsmayılın arasındakı əlaqənin detalları...

İttiham aktında göstərilib ki, təqsirləndirilən şəxs İsmayılova (rəsmi sənədlərdə onun soyadı İsmayılova kimi qeyd edilir, bu səbəbdən də yazının ittiham aktı ilə bağlı hissəsində xanım jurnalistin soyadını İsmayılova olaraq qeyd edəcəyik-YM) Xədicə özünü ona elan olunmuş ittihamlar üzrə təqsirli bilməsə də, istintaqa verdiyi ifadələrində ona istinad edilən əməllərin faktiki tərəfini, "Azad Avropa/AzadlıqRadiosu"nun Bakı bürosunun rəhbəri vəzifəsində işləməklə radionun fəaliyyəti ilə bağlı üstün nüfuza malik olduğunu etiraf edib. Bundan başqa, X.İsmayılova göstərib ki, 1997-ci ildə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib və həmin vaxtdan da müxtəlif mətbuat orqanlarında jurnalist işləyib. 2008-ci ildən isə "Azadlıq" radiosu ilə əməkdaşlıq edib, 08.07.2008-ci il tarixdən 2010-cu ilin sentyabr ayınadək həmin radionun Bakı bürosunun rəhbəri olub, ondan sonra həmin büronun rəhbəri vəzifəsinə Babək Bəkirov təyin edilib, 2014-cü ildən isə Zeynal Məmmədli həmin vəzifədə fəaliyyət göstərir.

X.İsmayılova həmçinin qeyd edib ki, büro rəhbəri işlədiyi dövrdə "Azadlıq" radiosuna işə qəbul olunmaq istəyən şəxsin müraciəti və onun barəsində olan məlumatlar həmin radionun Praqa şəhərində yerləşən mərkəzi ofisinə göndərilib və namizədin işə qəbulu, eyni zamanda işdən çıxarılması məsələləri mərkəzi ofisdə həll edilib. Büro rəhbəri kimi vəzifədən uzaqlaşdıqdan sonra "Azadlıq" radiosunda və hər hansı bir digər təşkilatda inzibati vəzifə daşımayıb, hazırda da belə işlərlə məşğul olmur, o 01 iyul 2008-ci ildə "Azad Avropa/AzadlıqRadiosu"nun Bakı bürosunun rəhbəri kimi fəaliyyətə başlayanda radio 101.7 tezliyində yayımlanıb, daha doğrusu büroya rəhbərlik etdiyi ilk altı ayda radio qeyd olunan tezliklə fəaliyyət göstərib.

2009-cu ilin yanvar ayının 1-dən radionun tezlik üzrə yayımı dayandırılıb və həmin tarixdən sonra radio internet vasitəsilə yayımlanıb. X.İsmayılova qeyd edib ki, 01 iyul 2008-ci ildə "Azad Avropa/AzadlıqRadiosu"nun Bakı bürosunun rəhbəri kimi fəaliyyətə başlayanda radionun tezliklə yayımlanması üçün lisenziyasının *(razılığın)* olub-olmamasını dəqiq xatırlamır, amma yayımı Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi həyata keçirdiyi üçün, güman edir ki, Milli Teleradio Şurasının lisenziyası olmadan bu yayım həyata keçirilə bilməzdi, lakin həmin detalları xatırlamır. "Azad Avropa/AzadlıqRadiosu"nun Bakı bürosunun rəhbəri olduğu müddətdə və sonrakı dövrdə hansısa müddətlər üçün Xarici İşlər Nazirliyində akkreditasiyası olub. X.İsmayılova həmçinin bildirib ki, sözügedən sənəd heç kimin əmək hüququnu tənzimləmir, bu akkreditasiya vəsiqəsi üçün müəyyən dövrlərdə müraciət etməyib. Büro rəhbəri olduğu dövrlərdə texniki detallar və vergi tənzimləməsi məsələləri ilə məşğul olmayıb, radio ilə əmək müqaviləsi əsasında işləyəndə vergiləri şirkət tərəfindən ödənilib, mülki müqavilə ilə işlədiyi dövrdə isə vergisini ödəyib, mülki müqavilə əsasında işlədiyi müddətdə aldığı əməkhaqqından 4 faiz vergi ödəmiş, əmək müqaviləsi əsasında işləyən işçilərin əməkhaqlarından hansı məbləğdə vergilərin tutulduğunu isə dəqiq bilmir. 2010-cu ilin sentyabr ayından etibarən isə həmin radioda müqavilə əsasında ştatdankənar müxbir vəzifəsində işləyir.

Konkret T.Mustafayev detalına gəlincə, X.İsmayılova ifadəsində bildirib ki, onu "Azadlıq" radiosunun ştatdankənar bölgə müxbiri kimi təxminən 2013-cü ilin iyul-avqust aylarından tanıyıb. Onunla tanışlığı radiodakı fəaliyyətləri ilə bağlı olub, 2013-cü ilin ortalarından onunla tanışlığı yaranandan sonra radioda işləyən digər şəxslər kimi onunla da yaxın dost münasibətlərində olub, birlikdə tədbirlərdə, yəni toplantılarda iştirak etdikləri hallar da baş verib. Turalın bəzən içkiyə meylli olduğunu və içəndən sonra həddindən artıq emosianal davrandığını hiss edib. Bundan başqa, bildirib ki, T.Mustafayevin "Azadlıq" radiosuna işə qəbulu onun artıq büro rəhbəri işləmədiyi dövrə təsadüf etdiyi üçün onun AzadlıqRadiosunda işə necə qəbul olunmasından, eləcə də sonradan həmin radiodan işdən necə çıxarılmasından məlumatsızdır. X.İsmayılova ifadəsində bildirib ki, T.Mustafayev işdən çıxmaq istədiyini onunla müzakirə etməyib, ancaq işdən çıxandan sonra görüşərkən və telefon vasitəsi ilə öz arzusuna əsasən radiodan işdən çıxdığını bildirib. Tural işdən çıxmasına baxmayaraq onunla ünsiyyətləri davam edib, hərdən telefonla zəngləşiblər, bəzən isə kafedə olarkən zəng edib həmin yerə gələrək onunla müxtəlif mövzularda söhbətlər ediblər. Tural təxminən 2014-cü ilin əvvəllərində söhbətlərinin birində "Meydan TV"-də işlədiyini deyəndən sonra onun həmin TV-də işlədiyini bilib, Turalın "Meydan TV"-yə necə, kimin vasitəsi ilə işə düzəlməsi barədə konkret məlumatı olmayıb. Çünki bu barədə onunla hər hansı söhbət etməyib.

X.İsmayılova eyni zamanda deyib ki, T.Mustafayevin ailəsi, həyat yoldaşı, eləcə də valideynləri ilə bağlı heç bir məlumatı yoxdur. Bundan başqa, T.Mustafayevin nişanlısı olmuş Rəhimova Rövşanə Vaqif qızını müstəqil hüquqşünas kimi tədbirlərdə görüb tanıyıb, onunla yaxın münasibəti olmayıb, hazırda da yoxdur, aralarında hər hansı bir əlaqə, o cümlədən telefon əlaqəsi olmasını xatırlamır, aralarında hər hansı bir narazılıq, söz-söhbət və ya ədavət yoxdur. Tural Mustafayevlə onun nişanlanmasını eşidib, ancaq dəqiq kimdən və nə vaxt eşitdiyini, eləcə də bu nişanla bağlı aralarında hər hansı bir söhbət olmasını da xatırlamır. Onların bir-birini nə vaxtdan, haradan, hansı şəraitdə tanımaları, eləcə də nişanlanandan sonra da aralarında olan münasibətləri ilə bağlı heç bir məlumatı yoxdur.



TƏSDİQ EDİRƏM

Azərbaycan Respublikası
Baş prokurorunun birinci müavini
II dərəcəli dövlət ədliyyə müşaviri
Rüstəm Usubov

09 iyul 2015-ci il.

İsmayılova Xədicə Rövşən qızının Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2., 125.-ci maddələri ilə təqsirləndirilməsinə dair 152006031 №-li cinayət işi üzrə

İTTİHAM AKTI

Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin rəisi, istintaq qrupunun rəhbəri, III dərəcəli dövlət ədliyyə müşaviri Eldar Əhmədov, İsmayılova Xədicə Rövşən qızının Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2. və 125.-ci maddələri ilə təqsirləndirilməsinə dair 152006031 №-li cinayət işi üzrə kifayət qədər sübutların toplanmasını və ibtidai istintaqın tamamlanmasını nəzərə alaraq, Azərbaycan Respublikası CPM-nin 289-cu maddəsini rəhbər tutub, 09 iyul 2015-ci il tarixdə saat 09:30-da Bakı şəhərində ittiham aktını tərtib etməyə başladım.

Həmin cinayət işi Azərbaycan Respublikasının və xarici qeyri-hökumət təşkilatlarının, filial və nümayəndəliklərinin fəaliyyətlərində aşkar edilmiş qanun pozuntuları faktları üzrə ibtidai istintaqı aparılan 142006023 №-li cinayət işindən 20 iyun 2015-ci il tarixdə İsmayılova Xədicə Rövşən qızının barəsində Azərbaycan Respublikası CM-nin 179.3.2., 192.2.2., 213.1., 308.2., 125.-ci maddələri ilə ayrılaraq, icraatıma qəbul edilməklə rəhbərlik etdiyim istintaq qrupu tərəfindən ibtidai istintaqı davam etdirilmişdir.

c.1, i.v.1-9.

«Azad Avropa/Azadlıq Radiosu»nun Azərbaycan Respublikasındakı nümayəndəliyinin reportyoru vəzifəsində işləmiş Mustafayev Tural Bulut oğlunun 20 oktyabr 2014-cü il tarixdə Bakı şəhəri Dənizkənarı Milli Parkda intihara cəhd etməsi faktı üzrə Xədicə İsmayılovanın Azərbaycan Respublikası CM-nin 125-ci maddəsi ilə təqsirlənlirilməsinə dair Bakı şəhər prokurorluğunun İstintaq idarəsi tərəfindən ibtidai istintaqı aparılan 140026071 №-li cinayət işi də 19 fevral 2015-ci il tarixdə 142006023 №-li cinayət işinə birləşdirilməklə ibtidai istintaq vahid icraatda davam etdirilmişdir.

c.1 , i.v. 204-206

### Tural Mustafayev xanım jurnalistə üzrxahlıq mesajı yazıb və rədd edilib

X.İsmayılova həmçinin T.Mustafayevlə bağlı digər detallara da aydınlıq gətirib. Xanım jurnalist ifadəsində bildirib ki, 2014-cü ilin oktyabr ayının 16-da istifadəsində olan telefona Tural Mustafayev ardıcıl olaraq "səninlə bu gün içmək istəyirəm, özü də nəyi var, səhv etmişəm, boynuma alıram, sadəcə bu gün bir yerdə içək, sən haqlı idin. Tural Mustafayev", "liberal adamların mütaliəyə ehtiyacı olur, danışmalıyıq, xahiş edirəm səndən. Uduzduğumu boynuma alıram, amma sənə pislik etməmişəm, danışaq lütfən" və digər oxşar məzmunlu SMS-lər göndərib. Ona cavab vermədiyinə görə bir neçə dəfə zənglər də edib. Həmin vaxt "Azadlıq" radiosunda verilişdə olduğuna görə cavab verməyib. Verilişdən çıxdıqdan bir müddət sonra Tural ona zəng edib görüşmək istədiyini deyəndə "görüşməyə vaxtım yoxdur" deyərək ona cavab verib. X.İsmayılova ifadəsində deyib ki, onunla görüşmək istəməsinin səbəbi isə işinin çoxluğu ilə əlaqədar olub. Turalla aralarında heç bir narazılıq və düşmənçilik yoxdur, Tural anası İsmaylova Elmira Novruz qızının Binəqədi rayonu ərazisində yerləşən «Baksol» adlanan ərazidəki yaşayış evində dostları ilə birlikdə olub.

Konkret T.Mustafayevin intihara cəhdinə gəlincə, X.İsmayılova onun intihar etməyə cəhd etməsi ilə bağlı məlumatı ilk dəfə "Meydan TV" saytından oxuduğunu bildirib. T.Mustafayevlə əlaqə saxlamadığı üçün onun özünü öldürmək istəməsinin səbəbi ilə bağlı məlumatı olmadığını deyib. Həqiqətən də 2014-cü ilin aprel ayına kimi T.Mustafayevlə normal münasibətləri olub və həmin vaxtdan sonra onunla heç bir münasibətləri, ünsiyyəti olmayıb. Xanım jurnalist ünsiyyətinin, münasibətinin olmamasının səbəbini xatırlamır.

İttiham aktında qeyd olunub ki, X.İsmayılova ifadəsində göstərib ki, 08 mart 2014-cü il tarixdə qadınlar bayramı münasibəti ilə "Status" kafesində yığışıblar. O, həmin tədbirə müstəqil jurnalist Aynurə İmranova ilə gedib, R.Rəhimova da orada olub. T.Mustafayev də sonradan oraya gəlmiş, ancaq onun necə və nə üçün oraya gəlməsi yadında deyil. Həmin vaxt onunla telefon vasitəsi ilə zəngləşməsini xatırlamır. Həmin vaxtı məclisdə Tural sərxoş olub. Tədbir başa çatandan sonra kafedən hamı eyni vaxtda çıxıb, kafedən çıxdıqdan sonra o, Aynurə və Fəricanla birlikdə taksiyə əyləşib gedib. Rövşənənin evlərinə kiminlə, necə getməsini xatırlamır, Tural Mustafayevin də həmin vaxtı haraya getməsindən məlumatı olmayıb. Xanım jurnalist ifadəsində göstərib ki, T.Mustafayevlə R.Rəhimovanın həmin məclisdən əvvəl bir-birləri tanıyıb-tanımamalarından məlumatsızdır, onların həmin məclisdə bir-biri ilə ünsiyyət saxlayaraq danışdıqlarını və rəqs etdiklərini xatırlamır. Həmin görüşdən sonra dəqiq xatırlamadığı gündə T.Mustafayevlə görüşərkən Rövşanə ilə Tural arasında yaxın ünsiyyət yarandığını hiss edib və bu barədə Turalın özü də ona bildirib. R.Rəhimovanın yaxşı qız olduğunu, bir az sadəlövh olduğunu və buna görə də ondan aralı durmasını Turala bildirib.

X.İsmayılova ifadəsində bildirib ki, T.Mustafayevin təxminən 2013-cü ilin noyabr ayında "Azadlıq" radiosundan işdən çıxmasını ona yazdığı SMS-dən oxuyaraq bilib və öz növbəsində SMS yazaraq nahaq işdən çıxdığını ona bildirib. Turalın bundan sonrakı əmək fəaliyyətinə onun hər hansı bir təsiri olmayıb və onun heç bir media qurumuna, o cümlədən "Meydan TV"-yə işə düzəlməsinə köməklik etməyib. Eləcə də Turalın "Meydan TV"-dən işdən çıxmasına heç bir aidiyyəti olmayıb. T.Mustafayevin 2014-cü ilin oktyabr ayının 16-da onun telefonuna "səninlə bu gün içmək istəyirəm, özü də nəyi var, səhv etmişəm, boynuma alıram, sadəcə bu gün bir yerdə içək, sən haqlı idin" sözlərini yazmaqla nə demək istədiyini anlamayıb. Onun nədə haqlı olduğunu, nədə səhv etdiyini deməkdə nəyi nəzərdə tutduğunu bilmir.

❑ YM

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# 22 il əvvəl Füzuli rayonu necə işğal olundu...

## Müharibə veteranı danışır: "O zaman Azərbaycan təkcə Ermənistanla müharibə aparmırdı"




**Avqustun 23-də Azərbaycanın Füzuli rayonunun Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmasının 22-ci ildönümüdür. 1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşüb, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşüb.**

Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Füzuli işğal olunandan sonra Azərbaycan ordusunun uğurlu əməliyyatları nəticəsində rayonun bir hissəsi geri qaytarıldı. 1993-cü ilin dekabr ayında başlatdığı əməliyyat nəticəsində işğal olunmuş 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edildi. Azərbaycan ordusu daha sonra Füzuli şəhərinin işğaldan azad olunması üçün hücuma keçsə də, bu əməliyyat uğursuzluqla nəticələndi. Hazırda işğaldan azad olunmuş torpaqlarda əhali öz doğma torpaqlarına qayıtmışdır. 1995-1997-ci illərdə Füzuli rayonunun işğaldan azad olunmuş ərazilərinə 40.000 dinc sakin qayıdaraq öz normal həyatlarını bərpa ediblər. Atəşkəs müqaviləsi imzalanmasına baxmayaraq, cəbhənin bütün istiqamətlərində olduğu kimi Füzuli rayonu ərazisində də tez-tez atəşkəs pozulur. Rayon üçün digər bir problem işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsidir. Atəşkəs razılaşması imzalandıqdan sonra Füzuli rayonu ərazisinin minalardan təmizlənməsi işlərinə başlanılıb. Ehtimal olunur ki, hazırda 2011-ci ilin ortalarına olan məlumata görə Füzuli rayonunun işğaldan azad olunmuş hissəsində - 9 milyon metr(?) ərazidə partlamamış hərbi sursat var. Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca həmsərhəd olan Füzuli Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir.

Füzuli rayonunun ərazisi 1386 km, əhalisi isə təxminən 105 min nəfərdir. Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 75 kənd və başqa yaşayış məntəqələri var. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdiriliblər. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşıb. 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılıb.

İşğal altındakı bu rayonda xeyli tarixi abidələrimiz də ermənilər tərəfindən vandallıqla məhv edilib. Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılıb, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilib. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal-Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km. məsafədə yerləşən Azıx mağarasında tapılıb. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarladı.

Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru qədim abidələri (XVIII-XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan abidələr ermənilərin vəhşi vandalizminə məruz qalmış, məhv edilmiş, yandırılmışdır.

**Füzuli uğrunda gedən döyüşlərin iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov** həmin o ağır günlər barədə "Yeni Müsavat"a danışarkən bildirdi ki, Azərbaycanın hər bir rayonu, şəhəri ona doğma və əzizdir: "Xüsusən də, bu gün düşmən tapdağı altında olan əvəzsiz Şuşamız, Xankəndimiz, Laçınımız, Ağdamımız, Füzulimiz, Qudadlımız və Zəngilanımız, Cəbrayılımız, bir sözlə hər bir kənd, hər bir qəsəbə ürəyimizin bir parçasıdır. Çox əfsuslar olsun ki, indi o yerlərdə yağı düşmən gəzir və varlığım qədər əminəm ki, çox tezliklə orada Azərbaycan bayrağı dalğalanacaq və həmvətənlərimiz bir vaxtlar olduğu kimi şad və rahat həyatlarını sürməkdə davam edəcəklər. Hələliksə biz o gözəl yurd yerlərimizin işğal tarixlərini qeyd edirik, onların tezliklə düşmən caynağından xilasına hər vəchlə çalışırıq. Hər kəs bacardığı formda. Hərbçilərimiz əldə silah, mülki vətəndaşlarımız da öz aktiv ictimai-siyasi fəaliyyəti ilə bu münaqişənin tez bir zamanda ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tezləşdirməyə çalışırlar. İşğal altında olan rayonlarımızdan Füzuli torpağı mənim üçün bir neçə səbəbdən o birilərə nisbətdə bir az yaxındır. Həm qohumluq əlaqələrimizə, həm də bu rayon uğrunda öz əsgər və zabitlərimizlə erməni-rus birləşmələrinə qarşı apardığımız döyüşlərə görə bu rayon digərlərindən mənə daha çox yaxındır".

**Füzuli və digər yaşayış məntəqələrimizin işğalının növbəti ildönümündə hamını bir sual maraqlandırır ki, bəs necə oldu ki, biz belə ağır bir vəziyyətlə üzləşdik? Ü.Cəfərov:** "Mən də o fikri bölüşürəm ki, Qarabağ müharibəsində bizim uğursuzluğumuzun ən əsas və həlledici səbəbi o vaxtkı zabit və sıravi heyətin təcrübəsizliyi, ordudakı hərc-mərclik, pərakəndəlik, sistemsizlik və vahid komandanlığın yetərincə olmaması və rəhbər heyətin belə fors-major hadisələrə hazır olmaması oldu. Bundan əlavə isə, o vaxt döyüşən qüvvələr üçün ağır texnika və silahlarımızın çox vaxt çatışmaması və ya azlıq etməsi, hətta bəzən keyfiyyətsiz olmasını göstərmək olar. Azərbaycan təkcə Ermənistanla müharibə aparmırdı. Heç kimə sirr deyil ki, Ermənistana Rusiya tərəfindən həm silah-sursat, həm də canlı qüvvə sarıdan çox böyük köməkliklər olunurdu. Müxtəlif ölkələrdən gətirilmiş çoxlu sayda muzdlular ermənilərin tərəfində döyüşürdü. Xatırlayırsınızsa, 1993-cü ildə avqust ayında çox ağır döyüşlərdən sonra məhv edilmiş düşmən əsgər və zabitlərinin əksəriyyəti ermənilərdən deyil, xaricdən gətirilmiş muzdlulardan ibarət olması xəbər verilmişdi və bu haqda həm foto, həm də video görüntülər mövcuddur".

**Polkovnik-leytenant qeyd etdi ki, elə bütün bu ağır durum səbəbindən ən strateji və əhəmiyyətli Ağdam rayonunun ermənilər tərəfindən işğalından cəmi bir ay sonra isə biz eyni gündə iki rayonumuzu - Cəbrayıl və Füzulini itirdik:** "Yeri gəlmişkən, onu qeyd edim ki, kim deyirsə ki, guya torpaqlarımız döyüşsüz itirilib, hesab edirəm ki, səhvə yol verir. Demək olar ki, hər bir kənd, qəsəbə və ümumilikdə rayonlar uğrunda ağır döyüşlər gedib. Bunu döyüşlərdə əldə silah iştirak etmiş adam kimi xüsusi olaraq vurğulamaq istəyirəm. Bir daha qeyd etmək istəyirəm ki, o vaxtkı şərtlər çərçivəsində orduda idarəçilik sisteminin çox zəif olması və bəzi siyasətbazların hoqqaları bizi indi yaşadığımız duruma saldı. Elə buna görə də Cəbrayıl və Füzuli rayonları bir günün içində işğal olundu. İnanıram ki, inşallah, Silahlı Qüvvələrimiz necə ki, 1994-cü ilin ən uğurlu əməliyyatlarını məhz Füzuli istiqamətində düşmənə sarsıdıcı zərbə endirməklə həyata keçirmişdi, bu dəfə də biz məhz xoş xəbərləri o istiqamətdən alacağıq".

**Ü.Cəfərov Horadiz döyüşlərini də xatırlatdı və ordumuzun təkbətək mübarizədə düşmənə cavab verməyə qadir olduğunu vurğuladı:** "Təvazökarlıqdan uzaq da olsa, qeyd edim ki, o tarixi döyüşlərin birbaşa iştirakçısı kimi mən öz əsgər və zabitlərimizlə fəxr edirəm. Onlar çox qısa bir zamanda 23 yaşayış məntəqəsini erməni yaraqlılarından təmizlədilər və bu gün o ərazilərdə yüz minlərlə dinc sakinlərimiz öz rahat, eyni zamanda gərgin həyatlarını sürürlər".

Yeri gəlmişkən, son günlər cəbhədə gərginliyin növbəti dəfə artması fonunda müdafiə naziri general-polkovnik Zakir Həsənovun döyüş bölgəsində olan hərbi hissəni qəfil həyəcan siqnalı ilə yoxlaması diqqət çəkir. Hətta müharibənin hər an başlaya biləcəyi barədə ehtimallar yenidən səslənir. Qəfil həyəcan siqnalı ilə qaldırılan qoşunların hərtərəfli döyüş hazırlığı, qarşıya qoyulan vəzifələri qısa müddətdə yerinə yetirmək üzrə bacarıqları və manevr imkanları yoxlanılmaqla praktiki döyüş atışları icra olunub. Müdafiə naziri yoxlanılan hərbi hissələrin döyüş və əməliyyat imkanlarını, hərbi əməliyyatları aparmaq qabiliyyətini yüksək qiymətləndirib.

**Hərbi ekspert Ü.Cəfərov dedi ki, bu fakt da çox normal qarşılanmalıdır:** "Ona görə ki, bu bilavasitə Ermənistanla sərhəd olan birləşməmizdir və orada real vəziyyətin necə olmasını MN-nin rəhbərliyi şəxsən yoxlamaq istəyib. Bu da hərbdə çox normal və ümumi qəbul edilmiş qaydalardan biridir. Çünki sabah döyüş əmri verərkən hansı nüansların olub-olmamasını Müdafiə Nazirliyinin rəhbərliyi dəqiq bilməlidir və öz gücünü və qüvvəsini düzgün hesablamalıdır. Müharibə oyuncaq deyil, orada heç bir xırda boşluğa yol vermək olmaz. Əlləxüsus da bu yağı düşmən üzərinə öz missiyasını - torpaqları işğal altından azad etmək tapşırığını yerinə yetirməyə gedən qüvvələr üçün ən vacib amillərdən biridir".

> "Ermənistana Rusiya tərəfindən həm silah-sursat, həm də canlı qüvvə sarıdan çox böyük köməkliklər olunurdu; müxtəlif ölkələrdən gətirilmiş çoxlu sayda muzdlular ermənilərin tərəfində döyüşürdü"

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015



# Mingəçevirdə polisə çağırılan gənc intihar etdi

**Mingəçevir sakini özünü şəhər Polis Şöbəsinin binasından aşağı ataraq intihar edib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə avqustun 20-də axşam saatlarında qeydə alınıb. Şəhər sakini, 1988-ci il təvəllüdlü Hacıyev Bəhruz Dilsuz oğlu dindirilmək üçün Mingəçevir Şəhər Polis Şöbəsinə çağırılıb. Bəhruz Hacıyev polis şöbəsinin binasının 3-cü mərtəbəsindən özünü aşağı ataraq intihar etdiyi bildirilir.**

Yaxınları Bəhruz Hacıyevin döyülərək öldürüldüyünü, bədənində qançırlar olduğunu deyirlər. Daxili İşlər Nazirliyi (DİN) Mingəçevir şəhər Polis Şöbəsində saxlanılan şəxsin ölümü ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirib. **Nazirliyin Mətbuat Xidmətinin rəis müavini Ehsan Zahidov** APA-nın sorğusuna cavabında bildirib ki, avqustun 20-də Mingəçevir şəhər sakini Bəhruz Hacıyev şübhəli şəxs qismində Şəhər Polis Şöbəsinə gətirilib: "İnzibati binadakı xidməti otaqlardan birində əməkdaşlar tərəfindən dindirilən B.Hacıyev, qəfildən özünü pəncərədən aşağı atıb və nəticədə hadisə yerindəcə keçinib. Mərhumun yaxın qohumlarının iştirakı ilə məhkəmə tibbi ekspertizasında müayinə olunan meyitin üzərində zorakılıq əlamətləri aşkar edilməyib".

**Hazırda faktla bağlı Mingəçevir şəhər Prokurorluğunda cinayət işi başlanıb. "İstintaqın nəticəsindən asılı olaraq məsələyə hüquqi qiymət veriləcək" deyə E.Zahidov qeyd edib.**

# Bakıda iki gənc qız itkin düşüb

**Bakıda iki qız itkin düşüb. APA-nın məlumatına görə, hadisə Sabunçu rayonunda qeydə alınıb. Rayonun Bakıxanov qəsəbə sakinləri - 1993-cü il təvəllüdlü Rəfiqə Mətləb qızı Məmmədovanın və 1997-ci il təvəllüdlü Nərmin Coşqun qızı İsmayılovanın avqustun 19-da itkin düşmələri ilə bağlı polisə məlumat daxil olub. Daxil olan məlumatlar əsasında axtarışlara başlanıb.**


# Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarınn dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Bakıda kişini döyərək pulunu və üzüyünü alan şəxslər tutulub

**Bakıda paytaxt sakinini döyərək pulunu və üzüyünü alan şəxslər tutulub. "Report"un xəbərinə görə, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) rəsmi saytı məlumat yayıb.**

Məlumata görə, Nəsimi rayonu ərazisində 2 naməlum şəxs Bakı şəhər sakini Əli Quliyevi döyüb, habelə bıçaqla hədələyərək 52 manatını və üzüyünü alıb. Rayon Polis İdarəsinin 20-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törədən Bakı şəhər sakini Asiman Yusifli və Salyan rayon sakini Əli Əliyev tutulub. Nəsimi Rayon Polis İdarəsi faktla bağlı araşdırma aparır.

# Mingəçevirdə qadın ilan sancmasından öldü

**Mingəçevirdə qadın ilan sancmasından vəfat edib. "Report" xəbər verir ki, Mingəçevir sakini, şəhərin Samux küçəsi mənzil 8-də yaşayan 28 yaşlı Səyalə Sergey qızı Quliyevanı ilan sancıb və o Mingəçevir Şəhər Xəstəxanasına gətirilib.**

Vəziyyəti ağır olan Səyalə Quliyevanı xilas etmək mümkün olmayıb. O, xəstəxanada dünyasını dəyişib. İlan 1987-ci il təvəllüdlü S.Quliyevanı yatdığı vəziyyətdə sancıb.

# Azərbaycan dövlət nömrə nişanlı avtomobil Türkiyədə qəza törətdi

**İstanbuldan Samsun istiqamətinə gedən Azərbaycan dövlət nömrə nişanlı avtomobil dəhşətli qəza törədib. AzVision.az türk mətbuatına istinadən xəbər verir ki, 47 yaşlı Bülənt İgid idarə etdiyi Azərbaycan dövlət nömrə nişanlı avtomobilin idarəetməni itirməsi nəticəsində yoldan çıxaraq dirəyə çırpılıb.**

Qəzada 3-ü uşaq olmaqla 5 nəfər yaralanıb. Onlardan biri azyaşlıdır.

Qəza nəticəsində sürücü ilə birlikdə ailə üzvləri Züleyxa İgid, övladları Berfin İgid, Berrak İgid, və Zilal İgid yaralanıb. Yaralılar hadisə yerinə gələn Təcili Tibbi yardım maşını ilə xəstəxanaya çatdırılıb.

# İki nazirlik dərman bazarında yeni nəzarət sistemi tətbiq edəcək

**Azərbaycan prezidenti İlham Əliyevin dərman vasitələri bazarına nəzarətin gücləndirilməsi barədə verdiyi tapşırıqların icrası ilə bağlı görülən işlərin davamı olaraq, İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi arasında razılaşma imzalanıb.**

Nazirlikdən Modern.az-a verilən məlumata görə, belə ki, dərman vasitələri apteklərə daxil olmazdan əvvəl qiymətlərin müəyyən olunmuş qaydada qablaşdırmanın üzərində göstərilməsinə və bu qiymətlərin Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilmiş qiymətlərə uyğunluğuna birgə nəzarət təşkil olunacaq.

**Yeni nəzarət sisteminin təşkili dərman vasitələri bazarında istehlakçıların hüquqlarının daha etibarlı müdafiəsinə, onların qiymətdə aldadılmasının qarşısının alınmasına, baş verə biləcək neqativ hallara qarşı birgə operativ tədbirlər görülməsinə imkan yaradacaq.**


# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34




## Əziz dostum, 70 yaşın mübarək!

**Hər bir kəsin həyatda formalaşması üçün ətraf mühitdən necə yararlanması vacib şərtdir. Allah-taala yaratdığı bəndələrin ən istəklisinə yaxşı qohumlar, dostlar bəxş edir. Həmişə düşünmüşəm ki, mən xoşbəxt insanam! Çünki həmişə ətrafımdakı dəyər verdiyim insanlar yaxşı əqidəli, xoşniyyətli, qayğıkeş, diqqətli insanlar olublar. Belə hesab edirəm ki, şəxsən mənim həyatımdakı məhz bu cür insanların olması mənim mən olmağımda əvəzsiz rola malikdirlər. Belə deyirlər ki, insan dünyaya gəlməmişdən dayısının, əmisinin, bibisinin və s. qohumlarının kim olacağı məlum olur, ancaq onun dostunun kim olacağı məlum olmur. Hər bir şəxs dostunu həyatda özü seçir, özü qazanır. Şair demiş:**

**Yanmışam alışmışam**
**Dostları həyatda mən özüm qazanmışam!**

**Bəli, hər kəsin həyatda qazanacağı dosta kimsəylə şərikliyi yoxdur. Mənim həyatımda dəyər verib özümə dost saydığım insanlar mənim xoşbəxtliyimin qarantıdır.**

**Avqustun 23-də ən qocaman dostumun ad günüdür. Hansı ki, bu dostum qəlbən çox cavandır. Onun ürəyinin genişliyi, sadəliyi, mehribanlığı, səmimiliyi və digər insani keyfiyyətləri o şəxsin ruhunun qocalmasına imkan vermir.**

**Əziz dostum, 70 yaş hələ bir şey deyil, bizim birlikdə şahidlik etməli olduğumuz çoxlu xoş hadisələrimiz var.**

**Haqqında danışdığım şəxs 1945-ci ildə Ordubad rayonunda anadan olmuş Hüseyn Rza oğlu Ağacanovdur. O, 1965-ci ildə Dövlət Neft Kimya İnstitutuna daxil olmuş, 1970-ci ildə oranı bitirərək əmək fəaliyyətinə başlamış və şərəfli bir ömür yolu keçmişdir.**

**Hüseyn müəllim yaxşı dost olmaqla yanaşı, gözəl ailə başçısı, sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ata, mehriban qonşu, ləyaqətli qohum olmağı, ümumilikdə ünsiyyətdə olduğu hər kəsin böyük rəğbətini, məhəbbətini qazanmağı bacarmışdır. Hüseyn müəllim 3 qız atasıdır. Belə deyirlər ki, 3 qız böyüdüb boya-başa çatdıran, onların nazını çəkə bilən ata hələ bu dünyadaykən haqq dünyasında cənnətini qazanır. Böyük övladı Vüsalə, ortancılı Aygün, sonbeşiyi Vəfa əziz dostumu həyata bağlayan, hər gününə xüsusi rəng qatan, yaşadığı hər anı rövnəqləndirən əvəzsiz varlıqlarıdır. Beş nəvə babası əziz dostuma ömür-gün yoldaşı Təyyibə xanımla hələ çoxlu sayda yubiley tədbirlərində iştirakçı, təşkilatçı, həm də səbəbkar kimi görüşməyimizi arzulayıram. Yaşın uzun olsun. Amin!**

**Hörmətlə: "Əks-SƏDA" qəzetinin baş redaktoru Vüqar HƏSƏNLİ**

# Nəqliyyat Nazirliyi vətəndaşlara müraciət etdi

**Bakıda ictimai nəqliyyat vasitələrində təhlükəsizliyin təmin edilməsinə yönəldilmiş genişmiqyaslı reydlər keçirilir. Nəqliyyat Nazirliyi Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən daxil olan məlumata görə, artıq 4 gündür ki, sərnişindaşımada yol verilən qayda pozuntularına qarşı aparılan mütəmadi reydlərə başlanılıb.**

Nəqliyyat Nazirliyi "Bakı Sərnişin və Yük Daşımalarının Təşkili" MMC vətəndaşlara müraciət edərək bildirir ki, sərnişin nəqliyyatının işinə mane olan amillərə: avtobus dayanacağında digər nəqliyyat vasitələrinin dayanmasına, avtobusların dayanacaqdan kənar saxlamasına, avtobuslarda və dayanacaqlarda təmizliyə riayət edilməməsinə və bu kimi digər neqativ faktorlara biganə qalmayaraq, belə hallarla rastlaşdıqda, dərhal "Bakı Sərnişin və Yük Daşımalarının Təşkili" MMC-nin qaynar xətti olan (012) 561-76-28/29 nömrələrinə, ən yaxın dayanacaqdakı dispetçerə və ya NİİM-in 141 Qaynar Xəttinə zəng etmələri xahiş olunur.

"Bakı Sərnişin və Yük Daşımalarının Təşkili" MMC marşrut avtobuslarından istifadə edən sərnişinlərə müraciət edərək yalnız dayanacaqda avtobusu gözləməyi və dayanacaqdan kənar yerlərdə avtobusu saxlamağı sürücüdən tələb etməməyi də xahiş edib.

YENİ MÜSAVAT
N 184 (6212) 22 avqust 2015

# Rus bölmələrində keçid balının aşağı olmasının səbəbi

## Təhsil eksperti məsələyə aydınlıq gətirir; Məlahət Mürşüdlü: "Son vaxtlar rus bölmələrinə meyl artıb.."

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının açıqladığı statistikaya əsasən, 32 min 276 nəfər tələbə adı qazanıb və ayrılan plan yerləri 83.12 faiz dolub. Hazırda isə boş qalmış yerlərə (6555 yer) ixtisas seçimi davam edir.**

Qeyd edək ki, ali məktəblərə qəbul balları Azərbaycan bölmələrində rus bölməsinə nisbətən çoxdur. Bu da şagirdlərin gələcəkdə ali məktəblərə daha asanlıqla qəbul ola bilmələri üçün məhz rus bölmələrini seçməyə vadar edir. Maraqlıdır , bu prosesin kökündə nə dayanır?

Məsələn, I ixtisas qrupunda Bakı Dövlət Universitetinin "fizika müəllimliyi" ixtisasına Azərbaycan bölməsində qəbul olan ən minimal bal 425 olduğu halda, rus bölməsində bu 202 baldır. Həmin universitetin "riyaziyyat müəllimliyi"nə Azərbaycan bölməsində 507 bal, rus bölməsində isə 202 bal, "Tarix müəllimliyi"nə 546 bal, rus bölməsində 288 bal, "Coğrafiya müəllimi" ixtisasına 440 bal, rus bölməsində 200 bal, "Sosiologiya" ixtisasında Azərbaycan bölməsində 455 bal, rus bölməsində 212 bal, hüquqşünaslıqda Azərbaycan bölməsində 507 bal, rus bölməsində 256 bal olub.

Bu ballardan da belə nəticə çıxarmaq mümkündür ki, ali məktəblərdə rus bölməsinə qəbul olunmaq, Azərbaycan bölməsinə qəbul olunmaqdan dəfələrlə asandır.



**Azad Müəllimlər Birliyinin sədri Məlahət Mürşüdlü** bu həddi abituriyentlərin topladığı balın müəyyənləşdirdiyini dedi: "Rus bölməsində abituriyentin topladığı bal həmin həddi müəyyənləşdirir. Yəni Azərbaycan bölməsinə gedən daha çoxdur. Ona görə də orada bal daha yüksəkdir. Həm də balların rus bölməsində az, Azərbaycan bölməsində çox olmasını abituriyentin topladığı balla müəyyənləşən bir məsələdir. Cədvəllə abituriyentlərin topladığı bal həddi sıra ilə düzülür və baxırsan ki, yuxarı hədd misal üçün 480, aşağı hədd isə 350 baldır. Deməli ki, bu həddi abituriyentin topladığı bal müəyyənləşdirir. Mən düşünmürəm ki, bu həddi Tələbə Qəbulu üzrə Dövlət Komissiyası müəyyənləşdirir".

**M.Mürşüdlü son vaxtlar rus bölməli məktəblərə də marağın artdığını dedi:** "Biz müşahidə edirik ki, rus bölmələrində ibtidai siniflərdə şagirdlərin, siniflərin sayı artıb. Bu düşündürücü haldır. Bunun kökünü müəllimlərimizin iş üslubunda, dərsliklərimizdə görürəm. Düşünürəm ki, müəllim hazırlığına, xüsusən də Azərbaycan bölümündə biz valideynlərlə də, uşaqlarla da söhbətlər edirik. Bu gün məktəb bilik verən bir məkandan çıxaraq uşaqlarımıza sosial vərdişləri aşılayan bir mərkəzə çevrilməlidir. Rus bölümündə dediyim o uşağın sosiallaşması, proqramdan kənara çıxaraq daha geniş bir sahədə biliyə, vərdişə, bacarığa, bütün mədəni davranışlara malik olması keyfiyyətləri rus bölümündə daha üstünlük təşkil edir. Çox maraqlıdır ki, bu gün rus bölmələrində işləyən müəllimlərinin 90 faizi Azərbaycan bölmələrinin müəllimləridir. Müqayisə edəndə görürük ki, müəllim azərbaycanlı olsa da, dediyimiz həmin o keyfiyyətləri çox bacarıqlı bir şəkildə şagirdlərə verə bilir. Bu keyfiyyətləri şagirdlərimiz, valideynlərimiz hiss edir. Buna görə də rus bölmələrinə meyl artır. Ancaq bir problem də var ki, bu gün bizim dövlət idarələrinin bir çoxunda yazı-pozu Azərbaycan dilində olsa da, danışıqlar rus dilində gedir. İstər şirkətlərdə, istər dövlət qurumlarında əməkdaşlar öz aralarında, telefona cavab verərkən belə rus dilində danışırlar. Bu da çox vacib və xoşa gəlməyən hallardan biridir".

❑ G.MANAFLI

# Çörəyi toxuculuqdan çıxan gözdən əlil gəncin rəngli dünyası...

## Elçin Abbasov: "Əlilə yuxarıdan aşağı baxıb gülüş obyektinə çevirənlərin gözü açıq olsa da, qəlbi kordur..."

### "Hətta evimizə qonaq gələndə qaçıb gizlənirdim ki, məni görməsinlər, ailəm məndən utanmasın..."

**Axşam saatlarında paytaxtda Nəriman Nərimanov adına parkda gözündə qara eynəklə oturub əlindəki rəngarəng saplarla şərf toxuyan bir kişi diqqətimizi çəkdi. Yaxınlaşanda onun iki gözdən əlil olduğunu və dünya işığına həsrət qaldığını öyrəndik. Gözləri görməsə belə, sanki seçdiyi rəngarəng saplara toxunduqca onun rənglərini, işığını hiss edirdi və üzündə qəribə bir ifadə yaranırdı.**







Görmədiyi halda toxuduğu gözəl naxışlı şərf, papaq, jaket və güllər insanı heyrətləndirməyə bilməzdi. Biz də bu heyrətimizi boğa bilməyib ona yaxınlaşdıq. Adının **Elçin Abbasov** olduğunu deyən bu şəxs 11 yaşından toxuculuqla məşğul olduğunu dedi. 6 yaşında ikən görmə qabiliyyətini itirdiyini deyən 32 yaşlı E.Abbasov həyatın onunla oynadığı acı oyuna baxmayaraq həyata nikbin yanaşmağa çalışırdı. O, bu həyatdan gözləntilərinin, istəklərinin olduğunu deyirdi.

**Bunları danışdıqca üzündəki ifadədə ümidlə ümidsizliyin, kədərlə sevincin vəhdətini görürdük.** "Kiçik yaşlarımdan gözlərim travma alıb. Amma 6 yaşıma kimi rəngləri seçə bilirdim. Sonradan əməliyyat olundum. Dedilər ki, Moskvada məni sağalda bilərlər. Ancaq maddi imkan olmadığı üçün ailəm məni Moskvaya apara bilmədi. Valideynlərim bir gözümü Bakıda əməliyyat etdirdilər. Dedilər ki, xeyri olsa, o biri gözümü də etdirəcəklər. Amma əməliyyatdan sonra evdə oynayan zaman yıxıldım və stolun tini əməliyyat olunan gözümə batdı. Ondan sonra həmin gözüm tam tutuldu. İllər keçdikcə, təzyiqdən gözümün görmə siniri sıradan çıxdı. İndi günün işığı da mənə qaranlıqdı".

Danışarkən səsinin titrəməsinə baxmayaraq bir təbəssümlə "görməsəm də anam üçün lazım olanda iynəni də saplayıram" dedi və yanındakı iynə ilə sapı saplayaraq bunu bizə də göstərdi. O, sanki kədərli həyatını unutmaq, dünənə yox sabaha baxmaq istəyirdi. Toxumaqla dərdlərini, problemlərini unutduğunu, qismən təskinlik tapdığını deyən E.Abbasov toxuduqlarının öz müştəriləri olduğunu və hamısını sata bildiyini dedi: "Mən 1994-cü ildən, 11 yaşımdan toxumağı öyrənmişəm. Amma 2007-ci ildən bəri artıq sərbəst toxumağa başlamışam. Toxuduqlarımı da satıram. Ramanada yerləşən Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində xalçaçılıq kursuna getdim və toxuculuğu daha yaxşı öyrəndim. Həmin kursu bitirib sertifikat aldım. Deməli olar ki, hər şey toxuya bilirəm. Hətta xırda muncuqlardan güllər də düzəldirəm. Onları burada parkda satıram. Hansısa mağazaya vermirəm, çünki mağazalar ucuz götürür. Papaqla şərfi dəst olaraq 15-20 manata satıram. Qışda daha çox alıcılarım olur. İndidən toxuyuram ki, qışadək çatdıra bilim. Bəzən gün ərzində 2-3, bəzən də bir dənə papaq, şərf sata bilirəm".

İlk dəfə 11 yaşında sapı az olduğu üçün kəmər toxuduğunu deyən müsahibim onu toxuya bildiyi zaman çox sevindiyini deyirdi. Kəməri toxuduğu gün sevincindən yemək yemədiyini deyən həmsöhbətim həmin kəməri dəfələrlə söküb yenidən toxuyub. Oturacaqda yanına qoyduğu sapın rəngarəngliyi və əsasən də açıq parlaq rənglər olması diqqətimizdən yayınmır və ondan bu sapların rəngini özünün istəyi ilə seçilib-seçilmədiyini soruşuruq. Sapların rəngini özünün seçdiyini deyən müsahibim sapa toxunanda onun yaxşı və ya pis sap olduğunu dərhal hiss etdiyini bildirdi: "Bu sapların rəngini özüm deyirəm. Satıcı da verir. Mən əl işlərimdən müğənni Elnarə Abdulayevaya, Kamran Həsənliyə, aparıcı Mətanət xanıma hədiyyə etmişəm. Ümumiyyətlə, bekar oturmağı sevmirəm. Bilirəm ki, əziyyətli olsa belə öz çörək pulumu toxumaqla çıxardıram və heç kimə möhtac deyiləm. Allah mənə bu sınağı veribsə, onun etdiyinə eyib deməli olmaz. İnsan nəsə pis vərdiş qazanırsa, eyib, rüsvayçılıq odur və ondan utanmalıdır. Əgər kimlərsə məni ələ salır, yuxarıdan aşağı baxırsa düşünürəm ki, o insanlar normal insanlar deyil. Əvvəllər belə hallar mənə çox pis təsir edirdi. Amma sonradan düşündüm ki, əlilə yuxarıdan aşağı baxan, gülüş obyektinə çevirən insanların gözləri açıq olsa da qəlbləri kordur. Bəzən burada oturanda hiss edirəm ki, gənclər, eləcə də yaşlılar bəzən gəlib qarşımda dayanır və mənim görüb görməməyimi yoxlayır. Sonra da toxuduqlarıma baxıb gülürlər. Bax, həmin insanlar dünyanın bütün rənglərini, işığını görsələr də qəlbləri, düşüncələri qaranlıq, bəsirətləri isə kordur. Həyatda heç sevmədiyim şey haqsızlıqdır. Amma heç vaxt deməmişəm ki, yaxşı ki, bu haqsızlıq edən insanları görmürəm. Çünki elə şeylər var ki, onu söz həll edir, göz həll edə bilmir. Elə şeylər də var ki, əksinə, söz yox, göz həll edir. Bu dünyanı - işıqları, rəngləri, ağacları görməyi çox istərdim. Amma heç vaxt özümü ümidə qapdırmamışam ki, mən nə vaxtsa görə bilərəm. Çünki həkimlər mənə demişdi ki, təzyiqdən gözlərimin görmə sinirləri sıradan çıxıb. Bunun da müalicəsi yoxdur. Bəlkə də xarici ölkələrdə bunun müalicəsi olar. Amma o ümidlə də yaşamaq istəmirəm. Çünki ümid edib o ümidin boşa çıxdığını görəndə adam ikinci tarvamanı yaşayır".

**E.Abbasovun valideynlərdən də bir istəyi var - əlil uşaqlarından utanmamaları, onları gizlətməmələri:** "Valideynlər bəzən əlil olan uşaqlarını ictimaiyyətdən gizlədirlər. Onu harasa aparmağa, insan içinə çıxartmağa utanırlar. Ailəsinin ondan utandığını hiss etmək o uşaq üçün nə deməkdir bunu heç kim anlaya bilməz. Mən də bu hissləri yaşamışam. 13-15 yaşlarıma kimi hiss edirdim ki, valideynlərim məndən sıxılır. Hətta evimizə qonaq gələndə onlar mənə demədən özüm qaçıb gizlənirdim ki, məni görməsinlər, ailəm məndən utanmasın. Kiminsə gəldiyini hiss edəndə, yaxud küçədə yanımdan insan keçəndə sanki cinayət işləmiş biri kimi qaçıb gizlənirdim. Sonra düşündüm ki, bu cəmiyyətdən qaçmağım normal deyil. Əgər mən bu cəmiyyətdə yaşayıramsa, normal insan kimi yaşamalıyam. Yox əgər belə qaçaraq yaşayacağamsa, o zaman heç yaşamağımın mənası yoxdur. Fikrimi ailəmə dedim. Amma onlar inkar etdilər və məndən heç vaxt sıxılmadıqlarını dedilər. Ancaq mən hər şeyi hiss edirdim və bu da məndə həyata qarşı küskünlük yaradırdı. Beləcə, fikrimi toxuculuğa verdim. İlk dəfə toxumağı bacılarımdan öyrəndim. Mənə maraqlı gəlirdi ki, bu sapı necə edirdilər ki, o, parça kimi alınırdı. Beləcə, yavaş-yavaş öyrəndim. Realibitasiya mərkəzində isə bu biliyimi daha da genişləndirdim. Özüm Lerik rayonunun Ərdəbil kəndindənəm. Amma artıq bir ildir ki, Bakıda qohumlarımla kirayədə qalıram. İstəyərəm ki, ailə qurum burada bir evim olsun. Gözdən əlillər üçün ev tikilir. Mən Bakı qeydiyyatına düşüb bu evdən almaq istəyirəm. Mən həyatımı normal insanlar kimi yaşamaq istəyirəm".

❑ Günel MANAFLI
Fotolar müəllifindir

YENİ MÜSAVAT

Son səhifə

N 184 (6212) 22 avqust 2015



# Yalançılığı müalicə edən klinika

İnsanlar üçün gündə orta hesabla 2 yalan danışmaq normal qəbul edilir. Amma bu rəqəmi 200-ə qədər artıranlar üçün Berlində klinika açılıb. İtalyanın "Libero" qəztinin xəbərinə görə, "Buratino" sindromundan qurtulmaq üçün "Sofie Charlotte" Xəstəxanasında açılan "Yalançılıqla mübarizə" bölümünə könüllü olaraq gələn və yalan söyləməkdən qurtulmaq istəyənlərin sayında gözlə görülən bir artım müşahidə olunur.

Amma müalicə müddəti uzandığı üçün hazırda klinika lazımi sayda xəstə qəbul edə bilmir. Bu vərdişindən qurtulmaq üçün insanlar bəzən aylar, hətta bir ilə qədər davam edən müalicələrdən keçir. Akademik adı "Psödoloji" adlanan bu xəstəliyin qurbanları yalan söyləməklə özünə zövq verəcək heyranlıqlar, əyləncələr, xoşbəxtliklər yaradacaq bir dünyanın arxasınca düşür, sonra da işi şişirdərək başqaları ilə paylaşmağa qərar verirlər. Maraqlıdır ki, klinikada gündə 100 yalan deyən insanlar xəstə kimi qəbul edilmir. Amma gündə 200 və ondan daha artıq yalan deyənlər mütləq müalicədən keçməlidir.

# 32 dollarlıq, 8 min kilokalorilik səhər yeməyi...

Şimali İngiltərədəki Bear Grill kafesinin rəhbərliyi qəribə bir səhər yeməyi menyusu hazırlayıb. Bu yeməyin ümumi kalorisi 8 min kilokaloridir. Amma bu səhər yeməyini dadmaq istəyənlər daha sonra səhhətlərində yarana biləcək hər hansı problemə görə kafe sahibindən narazı olmayacaqları ilə bağlı ərizə yazmalıdır.

"Hibernator" adı verilən səhər yeməyi menyusuna aşağıdakılar aiddir: 4 yumurtadan ibarət qayğanaq, 8 sosiska, bekon, kartofdan hazırlanmış kotlet, 4 yumurtadan və pendirdən hazırlanmış omlet, 4 vafli, 4 ədəd qızardılmış çörək, pudinq. Bundan başqa, səhər yeməyinə pomidor, göbələk, kartof fri də daxildir. Müəssisənin rəhbəri Mark Uaynder bildirib ki, bəzi insanlar bu səhər yeməyindən dadsa da, axıra çatdıra bilməyib. İngilis iş adamı deyib ki, kiminsə "Hibernator"u sona qədər yeyəcəyinə ümid etmir.



Bu nəhəng səhər yeməyinin qiyməti isə 19.95 funtdur. (32 dollar) Kafedə həmçinin Hibernatorun uşaqlar üçün olan mini versiyasını da hazırlayıblar.

# Ruslar xarici ölkədəki tətil zamanı bir-birini görmək istəmir

Rus turistlərin 40 faizi xarici ölkələrdə baş tutan tətil zamanı öz həmvətənləri ilə görüşü arzuedilməz sayır. Skyscanner turist servisinin 2.5 min nəfər rus turist arasında keçirdiyi rəy sorğusunun nəticələrinə görə, respondentlərin 40 faizi ümumiyyətlə, həmvətənlərinə diqqət göstərmirlər, qalanları isə bu görüşdən məmnundurlar. 26 faiz bu qarşılaşmadan qeyri-məmnunluğu rusların səyahət etdikləri ölkənin mədəniyyət və adət-ənənəsinə hörmətsizlikləri ilə izah ediblər. Daha 23 faiz isə qeyd edib ki, rusların ətrafdakılara münasibəti alçaldıcı olur, 17 faiz rusların alkoqollu içkilərdən çox istifadə etməsini əsas gətirib. Rəyi soruşulanların 23 faizi isə bu görüşdən məmnun olur. Onlar hesab edir ki, həmvətənlərlə şən vaxt keçirmək daha məqsədəuyğundur.

44 faiz respondent isə iddia edib ki, ruslar tətil zamanı özlərini digər millətlərdən olan turistlərdən daha pis aparırlar.





# Təyyarədə doğuldu, təyyarədə işə düzəldi

1990-cı ildə təyyarədə dünyaya gələn Türkiyə sakini Erkan Geldi "Turkish Airlines" hava şirkətində işə düzəlib. Lenta.ru "The Daily Mail"ə istinadən xəbər verir ki, Erkanın anası onu İzmir-Frankfurt səfəri zamanı 9 aylıq hamilə ikən dünyaya gətirib. Uşağı təyyarənin Erkan adlı pilotunun şərəfinə belə adlandırıblar.

Hazırda 25 yaşı olan Erkan isə ingilis dili müəllimi olaraq bakalavr təhsili alıb. Amma təhsilini bitirəndən sonra təyyarədə stüard işləməyə qərar verib. İş görüşməsi zamanı E.Geldi bildirib ki, o, bu peşəni yox, bu peşə onu seçib: "Mənim atam Almaniyada işləyirdi və biz tez-tez təyyarə səyahəti etməli olurduq. Hər dəfə təyyarəni görəndə fikirləşirdim ki, görəsən orda işləmək maraqlı ola bilərmi?"

2009-cu ildə "AirAsia" aviakampaniyası təyyarədə doğulan bir uşağa ömür boyu pulsuz uçuş haqqı hədiyyə edib. Həmin oğlan təyyarə yerdən 610 metr yüksəklikdə olanda, konkret olaraq Kuala-Lumprun üstündən keçəndə dünyaya gəlib.




**QOÇ** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**BUĞA** - O qədər də əlverişli gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**ƏKİZLƏR** - Əgər qəlbinizdə kiçicik bir iman işığı varsa, gün ərzində Allaha zidd hərəkətlər etməyin. Əksinə, Yaradandan tövbə və bağışlanma diləyin. Heç kimin qəlbinə dəyməyin. Saat 16-19 aralığı çox uğurludur.

**XƏRÇƏNG** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**ŞİR** - Bu gün bürcünüzün sonuncu hakimsutkasıdır. Çox məsuliyyətli gündür. Bu səbəbdən riskdən uzaq olun ki, cəhdləriniz boşa çıxmasın. Nahar ərəfəsində perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**QIZ** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Müştərək fəaliyyətdən uzaq olun.

**TƏRƏZİ** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**ƏQRƏB** - Dünəndən Ayın bürcünüzə girməsi fəaliyyət sahəsində uğurlarınıza mane olmayacaq. Amma yeni münasibət qurmaq, qlobal problemləri həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu deyil.

**OXATAN** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq, xüsusən də sevgidə. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Pul məsələlərində isə ehtiyatlı olun.

**BALIQLAR** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Gələcəyin müdirləri yazda doğulur

Mart və aprel ayında doğulanların karyeraları daha uğurlu olur. Sən demə, doğum tarixi insanların karyeralarına təsir edir. Britaniya Kolumbiyası Universitetinin tərkibində fəaliyyət göstərən Sauder Biznes Məktəbinin alimləri maraqlı araşdırma aparıblar. Məlum olub ki, yay aylarında anadan olan şəxslərin rəhbər vəzifələrdə işləmək şansı daha azdır.

Bir neçə il ərzində 500-ə qədər böyük şirkətlərin direktorlarının bioqrafiyasını araşdıran mütəxəssislər iyun və iyul aylarında anadan olanların rəhbər vəzifələrdə daha az təmsil olunduğunu müəyyən ediblər. 500 şirkət rəhbərindən yalnız 6 faizi iyunda, 5,8 faizi isə iyulda anadan olublar. Şirkət direktorlarının əksəriyyəti mart və aprel aylarında doğulanlardır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300